Xalqın qəzeti!

# Xalq qəzeti

№ 40 (31009) 3 mart 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Milli maşınqayırmanın “yaşıl” çağırışa töhfəsi

## Prezident İlham Əliyev Bakıda məişət tullantıları daşıyan texnikalarla tanış olub



**Martın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzinin həyətində məişət tullantıları daşıyan texnikalarla tanış olub.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi ilə Gəncə avtomobil zavodunda istehsal edilən bu texnikalar ölkəmizin müxtəlif şəhər və rayonlarına göndəriləcək.

Ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov və “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyev layihə barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirilib ki, ümumilikdə, layihə çərçivəsində hər birinin tutumu 22 kubmetr olan 70 kommunal texnika istehsal edilib. Kommunal texnikanın iki toplantı meydançasından – Bakı şəhərində Ekspo Mərkəzinin qarşısından və Gəncə şəhərində avtomobil zavodunun həyətindən Azərbaycanın 58 şəhər və rayonuna göndərilməsi nəzərdə tutulur.

*(ardı 2-ci səhifədə)*

## İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məsud Pezeşkiana

**Hörmətli cənab Prezident!**

İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin faciəvi vəfatı xəbəri bizi dərindən kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və dost İran xalqına dərin hüznlə başsağlığımızı ifadə edir, səbir və dözüm arzulayırıq.

Ayətullah Seyid Əli Xamenei uzun illər ərzində İran dövlətinin və cəmiyyətinin həyatında mühüm rol oynamış, ölkəsinin siyasi və dini həyatında xüsusi yer tutmuş şəxsiyyət olmuşdur. Onun vəfatı İran üçün böyük itkidir.

Bu çətin gündə dost və qardaş İran xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayırıq.

Allah rəhmət eləsin!

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 mart 2026-cı il**

## Gəncə şəhərində yerləşən Cümə məscidində təmir-bərpa işlərinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Gəncə şəhərində yerləşən Cümə məscidində təmir-bərpa işlərinin layihə-smeta sənədlərinin hazırlanması və həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ilkin olaraq 1,6 milyon (bir milyon altı yüz min) manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 mart 2026-cı il**

## İrəvanda ehtiyatlı seçki hazırlığı

### *Diaspor kimlərin ruporu olacaq?*



**Cənubi Qafqazda cərəyan edən yeni siyasi proseslər İrəvanın Moskva ilə münasibətlərində ehtiyatlı, lakin son dərəcə ziddiyyətli mənzərə yaradıb. Rəsmi İrəvanın bir tərəfdən Moskva ilə hərbi-siyasi müstəvidə nəzərəçarpacaq məsafə saxlaması, digər tərəfdən isə iqtisadi-institusional bağları qırılma nöqtəsinə çatdırmaması düşünülmüş “ikili xətt” strategiyasından xəbər verir. Bu proses, xüsusilə iyun ayında keçirilməsi gözlənilən parlament seçkilərinin həssas konyunkturasında həm daxili auditoriyanı sakitləşdirmək, həm də xarici güc mərkəzləri ilə yeni balans yaratmaq cəhdi kimi müstəsna əhəmiyyət daşıyır. Hazırkı Ermənistan hakimiyyəti üçün bu parlament seçkiləri, sadəcə, səsvermə deyil, həm də apardığı xarici siyasət kursunun daxili legitimlik sınağıdır.**

*(ardı 5-ci səhifədə)*

## Regional gərginlik və Azərbaycanın təmkin diplomatiyası



Səhifə ⇨ 3

## Yeni layihələr Xəzərdə əməkdaşlığı genişləndirir



Səhifə ⇨ 7

## Ermənistanda İran mövzusu: isterik durum, qutab və qarğıdalı



Səhifə ⇨ 5

## Yaxın Şərq yenidən alova bürünüb



Səhifə ⇨ 4

## Cənubi Asiyada köhnə münaqişənin yeni dartışması



Səhifə ⇨ 4

## Aİ-də daxili çatlar böyüyür



Səhifə ⇨ 5

## Azərbaycanda rəqəmsal keçidin yeni mərhələsi



Səhifə ⇨ 6

# MDB ölkələrinə məhsul ixracı artıb

Səhifə ⇨ 6

# Prezident İlham Əliyev Bakıda məişət tullantıları daşıyan texnikalarla tanış olub





*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanda paytaxt Bakı ilə yanaşı, bölgələrimizin inkişafı, orada müasir sosial infrastrukturun, o cümlədən parkların, yaşıllıq və meşə zolaqlarının yaradılması və bununla da, ümumilikdə, ölkəmizin ekoloji durumunun yaxşılaşdırılmasına yönəlmiş layihələr ardıcıl şəkildə davam etdirilir. Bu baxımdan məişət tullantıları daşıyan texnikaların şəhər və rayonlarımıza göndərilməsi bir neçə vacib amili özündə birləşdirir. Belə ki, bu, ilk növbədə, regionlarda kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi və sanitariya-gigiyena vəziyyətinin yaxşılaşdırılmasına töhfə verəcək. Beləliklə, müasir yeni texnikalar məişət tullantılarının vaxtında və səmərəli daşınmasını, yaşayış məntəqələrində təmizlik işlərinin daha keyfiyyətli aparılmasını təmin edəcək. Bununla yanaşı, layihə ətraf mühitin mühafizəsi baxımından da mühüm rol oynayır. Layihənin daha bir mühüm məqamı odur ki, bu texnikalar yerli istehsaldır. Ümumilikdə, indiyədək Gəncə avtomobil zavodunda çox sayda traktor, kombayn, digər kənd təsərrüfatı texnikası, minik və yük avtomobili və sair texnika istehsal olunub.

Qeyd edək ki, Gəncə avtomobil zavodunun əsası 1986-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulub. 2004-cü ildə Prezident İlham Əliyevin tapşırığı ilə bu istehsal müəssisəsi fəaliyyətə başlayıb. Hazırda zavodda 500-ə yaxın işçi çalışır.

# Azərbaycan lideri Rusiya Hökuməti Sədrinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib.**

Görüş əsnasında Rusiya tərəfi regionda mürəkkəb və gərgin şərait fonunda Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində operativ köməyə görə Azərbaycan rəhbərliyinə səmimi təşəkkürünü bildirib.

Azərbaycan-Rusiya münasibətlərinin gündəliyi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Söhbət zamanı qeyd edilib ki, Azərbaycan və Rusiya liderlərinin 2025-ci il oktyabrın 9-da Düşənbədə keçirilən görüşündə əldə etdikləri razılaşmalara uyğun olaraq, tərəflər 2024-cü il dekabrın 25-də “AZAL” təyyarəsinin qəzaya uğraması nəticəsində yaranan problemlərin həlli üzrə yaxın vaxtlarda kompleks praktik addımlar atacaqlar.

Azərbaycan ilə Rusiya arasında qarşılıqlı faydalı iqtisadi-ticari, investisiya, sənaye və nəqliyyat-logistika əməkdaşlığının gələcəkdə daha da inkişaf etdirilməsinə dair ortaq niyyətə diqqət yetirilib.

Görüşdə regionda nəqliyyat əlaqələrinin inkişafı perspektivləri müzakirə edilib.

“Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə işləri davam etdirmək üçün ortaq niyyət təsdiqlənib.

Söhbət əsnasında bir sıra humanitar məsələlər də müzakirə edilib.

Görüş Azərbaycan-Rusiya dövlətlərarası dialoquna xas olan ənənəvi dostluq və konstruktiv şəraitdə keçib.

***AZƏRTAC***

# Ceyhun Bayramovun telefon danışıqları




**Martın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı İranda hərbi əməliyyatlar və bölgədə hərbi eskalasiya nəticəsində yaranmış vəziyyət müzakirə olunub.

İranın xarici işlər naziri cari vəziyyət və atılan addımlar barədə məlumat verib.

Ceyhun Bayramov bölgədə vəziyyətin faciəvi şəkildə gərginləşməsindən ciddi narahatlıq ifadə edib. İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və günahsız mülki insanların həlak olması ilə bağlı başsağlığı diləklərini çatdırıb.

Hərbi əməliyyatların tezliklə dayandırılacağına, mövcud vəziyyətin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll olunacağına dair ümid ifadə olunub.

Bununla yanaşı, hər hansı bir ölkə tərəfindən Azərbaycan ərazisinin qonşu və dost İrana qarşı istifadə edilməsinin mümkün olmadığı vurğulanıb.

*



**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı bölgədə artmaqda olan hərbi gərginlik və eskalasiya nəticəsində mövcud təhlükəsizlik vəziyyəti müzakirə olunub. Tərəflər qarşıdurma nəticəsində bölgədə yaranmış vəziyyətdən ciddi şəkildə narahat olduqlarını bildirib, münaqişənin diplomatik yollarla həllinin vacib olduğunu vurğulayıblar.

Avropa İttifaqı üzv ölkələrinin vətəndaşları daxil olmaqla, xarici ölkə vətəndaşlarının İrandan təxliyəsində Azərbaycanın oynadığı əhəmiyyətli rol təqdir olunub.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

*

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı olub.**



Telefon danışığı zamanı regionda mövcud olan hərbi-siyasi vəziyyət, Yaxın Şərqdə artan gərginlik və təhlükəsizlik riskləri ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər regional eskalasiyanın daha geniş coğrafiyaya yayılmasının yolverilməz olduğunu vurğulayaraq, məsələlərin beynəlxalq hüquq normaları və prinsipləri əsasında, diplomatik yollarla həllinin vacibliyini qeyd ediblər.

Nazirlər bölgədə sabitliyin və təhlükəsizliyin qorunmasının əhəmiyyətini vurğulayıb, xüsusilə mülki əhalinin və obyektlərin təhlükəsizliyinin təmin olunmasının prioritet məsələ olduğunu bildiriblər.

Azərbaycan və Türkiyə arasında strateji müttəfiqlik münasibətlərinin mövcud çağırışlar fonunda daha da əhəmiyyət kəsb etdiyi qeyd edilib, iki qardaş ölkənin sıx koordinasiyanı davam etdirəcəyi vurğulanıb.

*

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Ərəb Əmirliklərinin Baş nazirinin müavini və xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında telefon danışığı aparılıb.**




Söhbət zamanı Yaxın Şərqdə son günlər müşahidə olunan hərbi toqquşmalar və təhlükəsizlik mühitindəki gərginlik əsas müzakirə mövzusu olub. Tərəflər yaranmış vəziyyət ilə bağlı dərin narahatlıqlarını ifadə ediblər. Mövcud hərbi eskalasiyanın regional sabitlik üçün yaratdığı risklər xüsusi qeyd edilərək, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət edilməsinin, münaqişənin dialoq və siyasi vasitələrlə həllinin zəruri olduğu vurğulanıb.

Mülki əhalinin və obyektlərin təhlükəsizliyinin təmin edilməsinin prioritet məsələ olduğu bildirilib. Nazir Ceyhun Bayramov qarşıdurma nəticəsində mülki insanların həlak olması və xəsarət alması ilə bağlı başsağlığı diləklərini çatdırıb.

*

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev, Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov, Bəhreyn Krallığının xarici işlər naziri Abdullətif bin Rəşid əl-Zayani, Kanadanın xarici işlər naziri Anita Anand, İraq Respublikasının Baş nazirinin müavini və xarici işlər naziri Fuad Hüseyn, İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər naziri Ayman Əl-Səfadi, Küveyt Dövlətinin xarici işlər naziri Şeyx Cərrah Cabir əl-Əhməd əl-Sabah, Oman Sultanlığının xarici işlər naziri Sayid Bədr ibn Həməd ibn Hammud Albusəidi arasında da telefon danışığı baş tutub.**

***XQ***

# Baş nazirin bp heyəti ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 2-də bp şirkətinin Hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə bp arasında formalaşmış uzunmüddətli qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə edilib.

bp-nin Azərbaycanda reallaşdırdığı layihələrin önəmi qeyd olunub, eyni zamanda, ikitərəfli əməkdaşlığın gündəliyində duran perspektivli layihələr nəzərdən keçirilib.

***XQ***

# Rusiya–Azərbaycan Hökumətlərarası Komissiyasında müzakirə



**Rusiya hökumət nümayəndə heyətinin martın 2-də Bakıya səfəri çərçivəsində İqtisadi əməkdaşlıq üzrə Rusiya–Azərbaycan Hökumətlərarası Komissiyasının həmsədrləri – Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk və Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev Rusiya və Azərbaycan arasında praktiki qarşılıqlı fəaliyyətin bütün aktual məsələlər kompleksini müzakirə ediblər. Ticarət-iqtisadi, sənaye, enerji, nəqliyyat-logistika və aqrar-sənaye əməkdaşlığının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilib.**

Tərəflər əmtəə dövriyyəsinin davamlı artımını məmnunluqla qeyd ediblər. Orta və uzunmüddətli perspektivə hesablanmış birgə investisiya layihələrinin həyata keçirilməsi üçün geniş imkanların olduğu vurğulanıb.

Həmsədrlər Rusiya və Azərbaycan arasında avtomobil, dəmir yolu və dəniz nəqliyyatı ilə yükdaşımaların həcminin daha da artırılması üzrə tədbirləri müzakirə ediblər. Rusiya-Azərbaycan dövlət sərhədindəki buraxılış məntəqələrinin səmərəli işi və onların gələcəkdə daha da modernləşdirilməsinin məqsədəuyğunluğu diqqətə çatdırılıb.

“Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi məsələləri, xüsusən də onun buraxılış qabiliyyətinin artırılması və nəqliyyat-logistika infrastrukturunun təkmilləşdirilməsi ayrıca nəzərdən keçirilib.

A.Overçuk və Ş.Mustafayev cari ilin aprel ayında Azərbaycan Respublikasında İqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsi barədə razılığa gəliblər. Görüş Rusiya-Azərbaycan qarşılıqlı əlaqələrinə ənənəvi olaraq xas olan konstruktiv və dostluq şəraitində keçib.

***XQ***

# İran səfiri Azərbaycan dövlətinə və xalqına minnətdarlığını bildirib

**Hazırkı şəraitdə İran İslam Respublikasının atdığı addımlar beynəlxalq hüquq çərçivəsində özünümüdafiə hüququna əsaslanır və qanunidir. Qarşı tərəf hücum və təcavüzlərini davam etdirdiyi halda İran İslam Respublikasının heç bir cavab verməməsi və addım atmaması, təbii ki, düzgün yanaşma olmazdı.**



Bu sözləri İran İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu İranın Azərbaycandakı səfirliyində keçirilən mətbuat konfransında söyləyib.

Səfir Azərbaycan dövlətinə və xalqına minnətdarlığını bildirib: “Azərbaycan bu çətin dövrdə həm rəsmi, həm də qeyri-rəsmi başsağlığı mesajları ilə həmrəylik nümayiş etdirib və öz dəstəyini ifadə edib. Bu, ortaq mədəniyyətimizin və münasibətlərimizin bir göstəricisidir və buna görə təşəkkürümüzü bildiririk.

Mediada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana başsağlığı verdiyini görmüsünüz.

Həmçinin xarici işlər nazirləri arasında da telefon danışığı olub. Ceyhun Bayramov və Seyid Abbas Əraqçi son proseslərlə bağlı fikir mübadiləsi aparıblar. Həmin telefon danışığında Azərbaycanın rəsmi mövqeyi ifadə edilib və qeyd olunub ki, Azərbaycan heç vaxt öz ərazisindən İrana qarşı hər hansı təhdidə yol verməyəcək.

Biz hər zaman buna inanmışıq. Azərbaycanın ən yüksəksəviyyəli rəsmiləri də bu mövqeni açıq şəkildə bəyan ediblər”.

# Regional gərginlik və Azərbaycanın təmkin diplomatiyası



**Yaxın Şərqdə son dövrlər müşahidə olunan gərginlik regionun təhlükəsizlik arxitekturasını yenidən diqqət mərkəzinə gətirib. Böyük güclər arasında qarşıdurma riskinin artması, həmçinin hərbi əməliyyatların genişlənməsi ehtimalı region dövlətlərini öz xarici siyasət kurslarını daha ehtiyatlı şəkildə müəyyən etməyə vadar edir. Bu kontekstdə Azərbaycan rəsmi olaraq balanslı və təmkinli mövqe nümayiş etdirərək regional sabitlik və diplomatik həll yollarının vacibliyini vurğulayır.**

Azərbaycanın xarici siyasət doktrinası uzun illər ərzində formalaşmış və müəyyən strateji prinsiplər üzərində qurulmuş konseptual yanaşmaya əsaslanır. Rəsmi siyasətin mərkəzində dövlət suverenliyinin qorunması, ərazi bütövlüyünün təmin edilməsi və beynəlxalq hüququn fundamental normalarına hörmət dayanır. Xüsusilə Cənubi Qafqaz kimi geosiyasi baxımdan həssas bölgədə yerləşən dövlət üçün beynəlxalq hüquqa əsaslanan mövqe həm legitimlik yaradır, həm də müxtəlif güc mərkəzləri ilə münasibətlərin balanslaşdırılmasına imkan verir.

Son illər Yaxın Şərqdə və regionun yaxın coğrafiyasında müşahidə olunan gərginlik fonunda Azərbaycan diplomatiyası bu prinsiplərə daha çox istinad edir. Rəsmi Bakı hesab edir ki, hərbi eskalasiyanın genişlənməsi regional sabitliyə və beynəlxalq münasibətlər sisteminə də mənfi təsir göstərir. Bu səbəbdən Azərbaycan mövcud mübahisələrin və qarşıdurmaların həlli üçün diplomatik kanalların açıq saxlanılmasının vacibliyini xüsusi olaraq vurğulayır. Diplomatik dialoq və siyasi vasitəçilik mexanizmləri, xüsusilə mürəkkəb regional münaqişələr kontekstində, uzunmüddətli sabitliyin qorunması üçün daha dayanıqlı alət kimi qiymətləndirilir.

ABŞ/İsrail–İran hərbi qarşıdurmasında da rəsmi Bakı özünün praqmatik mövqeyini nümayiş etdirmiş, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov iranlı həmkarı Abbas Əraqçi ilə telefon danışığında hərbi əməliyyatların tezliklə dayandırılacağına, mövcud vəziyyətin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll olunacağına dair ümid ifadə olunub.

Bu yanaşma həm də Azərbaycanın xarici siyasət modelinin mühüm xüsusiyyətini – balanslı diplomatiyanı – əks etdirir. Azərbaycan müxtəlif regional və qlobal aktorlarla münasibətlər qurarkən hər hansı geosiyasi bloklaşmanın bir hissəsinə çevrilməkdən çəkinir və daha çox qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modelini üstün tutur. Mövcud strategiya mürəkkəb beynəlxalq mühitdə ölkənin manevr imkanlarını genişləndirir və eyni zamanda, onun regional sabitliyə töhfə verən aktor kimi qəbul olunmasına şərait yaradır.

Azərbaycanın mövqeyində xüsusi diqqətçəkən məqamlardan biri ölkə ərazisinin üçüncü dövlətlərə qarşı istifadə olunmasına prinsipial şəkildə qarşı çıxılmasıdır. Müstəqillik dövründə Azərbaycan mürəkkəb geosiyasi mühitdə fəaliyyət göstərən dövlət kimi öz təhlükəsizlik konsepsiyasını elə qurmağa çalışıb ki, ölkə regional qarşıdurmaların birbaşa iştirakçısına çevrilməsin və eyni zamanda, müxtəlif güc mərkəzləri arasında balans qorunsun.

*

Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan öz ərazisinin başqa dövlətlərə qarşı hərbi və ya siyasi platformaya çevrilməsinə imkan verməyəcək. Dövlət ərazisinin hər hansı regional və ya qlobal rəqabətin alətinə çevrilməsi, xüsusilə də hərbi məqsədlərlə istifadə olunması Azərbaycanın təhlükəsizlik mühitini birbaşa risk altına qoya bilər. Məhz bu səbəbdən rəsmi Bakı regional proseslərdə iştirak edərkən öz ərazisinin geosiyasi qarşıdurmalar üçün istifadə olunmaması məsələsinə xüsusi həssaslıqla yanaşır. Analitik baxımdan bu mövqe həm də Azərbaycanın müstəqil və çoxvektorlu xarici siyasət kursunun davamı kimi qiymətləndirilə bilər. Müasir beynəlxalq münasibətlər sistemində regional dövlətlər tez-tez böyük güclər arasında rəqabət mühitində fəaliyyət göstərirlər. Belə şəraitdə müəyyən dövlətlərin ərazilərinin hərbi və ya strateji məqsədlərlə istifadə olunması həmin ölkələri qarşıdurmanın bir hissəsinə çevirə bilir. Azərbaycan isə bu cür risklərin qarşısını almaq üçün öz diplomatik mövqeyini balanslı şəkildə formalaşdırmağa çalışır və regionda qarşılıqlı etimadın qorunmasına önəm verir.

Əgər hər hansı dövlət öz ərazisini üçüncü tərəfin hərbi və ya siyasi təsir alətinə çevirərsə, bu, regional güc balansını pozaraq yeni gərginlik ocaqlarının yaranmasına səbəb ola bilər. Azərbaycanın seçdiyi model isə daha çox neytral və məsuliyyətli davranışa əsaslanır. İlk növbədə nəzərə almaq lazımdır ki, Azərbaycan mürəkkəb və həssas geosiyasi mühitdə yerləşir. Cənubi Qafqaz regionu tarixən müxtəlif regional və qlobal güclərin maraqlarının kəsişdiyi məkan kimi formalaşıb. Azərbaycan da məhz bu reallıqları nəzərə alaraq regional münasibətlərdə ehtiyatlı və balanslı davranış modelini seçib. Hər hansı tərəfin açıq şəkildə dəstəklənməsi və ya geosiyasi bloklaşmanın bir hissəsinə çevrilmək mövcud regional balansın pozulmasına və ölkənin təhlükəsizlik mühitinin daha mürəkkəb hala gəlməsinə səbəb ola bilər. Buna görə də rəsmi Bakı daha çox neytral və praqmatik yanaşmaya üstünlük verir.

Digər mühüm amil Azərbaycanın uzun illər ərzində formalaşdırdığı çoxvektorlu diplomatiya modelidir. Azərbaycan həm region dövlətləri ilə, həm də qlobal aktorlarla münasibətlər qurarkən qarşılıqlı maraqlar prinsipinə əsaslanmağa çalışır. Çoxvektorlu diplomatiya modeli dövlətin beynəlxalq münasibətlər sistemində daha çevik manevr imkanları əldə etməsinə şərait yaradır və ölkənin hər hansı geosiyasi qarşıdurmanın bir tərəfinə çevrilməsinin qarşısını alır. Həmçinin qeyd etməliyik ki, enerji layihələri, nəqliyyat və logistika marşrutları, regional əməkdaşlıq formatları kimi strateji təşəbbüslər müxtəlif dövlətlərlə əməkdaşlıq tələb edir. Əməkdaşlığın davamlılığı isə əsasən sabit siyasi mühitdən və balanslı xarici siyasət kursundan asılıdır.

Enerji infrastrukturu və beynəlxalq nəqliyyat dəhlizləri sabit siyasi mühit tələb edən uzunmüddətli strateji layihələrdir. Gərginliyin artması investisiya mühitinə mənfi təsir göstərə, logistika marşrutlarının fəaliyyətində qeyri-müəyyənlik yarada və regionun iqtisadi inteqrasiya perspektivlərini zəiflədə bilər. Diplomatik müstəvidə Azərbaycanın yanaşması mübahisələrin həlli üçün dialoq və diplomatik kanalların açıq saxlanılmasına əsaslanır. Rəsmi Bakı hesab edir ki, regional münaqişələrin hərbi eskalasiya yolu ilə həlli qısamüddətli taktiki nəticələr versə belə, uzunmüddətli sabitlik yaratmaq baxımından effektiv mexanizm hesab oluna bilməz. Yaxın Şərq və ümumilikdə regionun son onilliklərdə yaşadığı təcrübə göstərir ki, hərbi qarşıdurmaların genişlənməsi əksər hallarda yeni təhlükəsizlik problemlərinin yaranmasına, siyasi sistemlərin zəifləməsinə və regional qeyri-müəyyənliyin artmasına səbəb olur.

Azərbaycanın diplomatik yanaşmasının əsas xüsusiyyətlərindən biri qarşıdurmanın tərəfi kimi çıxış etmədən, beynəlxalq hüququn prinsiplərinə əsaslanan siyasi mövqe nümayiş etdirməkdir. Müasir beynəlxalq münasibətlər sistemində vasitəçilik, diplomatik kommunikasiya və çoxtərəfli əməkdaşlıq mexanizmləri münaqişələrin idarə olunmasında mühüm rol oynayır.

Son olaraq qeyd edək ki, təmkinli diplomatiya, dövlət suverenliyinin və ərazi prinsipinin qorunması, eləcə də dialoqa üstünlük verilməsi Azərbaycanın regional siyasətində sabitlik və balansın əsas elementləri kimi



çıxış edir. Mövcud geosiyasi şəraitdə belə yanaşma regionda gərginliyin azalmasına və daha sabit təhlükəsizlik mühitinin formalaşmasına töhfə verə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Yad dini təriqətlər inanc pozuculuğuna xidmət edir

**Həmsöhbətimiz vaxtilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində, AMEA-nın Şərqşünaslıq İnstitutunda çalışmış, 2018–2020-ci illərdə İlahiyyat İnstitutunun rektoru vəzifəsini tutmuş, hazırda Milli Məclisin deputatı, ictimai birliklər və dini qurumlar və elm və təhsil komitələrinin üzvü, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədovdur. Onunla söhbətimizin mövzusu çağdaş dünyamızda dinin əzəli missiyasından uzaqlaşması, dini siyasiləşdirmə meyilləri, bunun cəmiyyətlərdə inikası və bu təmayüllərə qarşı mübarizə üsulları barədədir.**



***– Ceyhun müəllim, bu gün qloballaşma din amilini də ön plana çıxarıb. Maraqlı təmayüllər müşahidə olunmaqdadır. Sankı İslam dünyasında da bir-birindən fərqli mərkəzlər yaranır. Bu, müsəlman həmrəyliyi kimi qələmə verilsə də, dinin siyasi amilə çevrildiyi göz qabağındadır. Nə baş verir?***

– Bu gün dünyanın siyasi mənzərəsinə nəzər yetirdikdə – nə qədər desək də din siyasətdən ayrıdır – gedən proseslər onu göstərir ki, din heç də siyasətdən ayrı deyil. Əslində, din insanların mənəvi cəhətdən kamilləşməsini təlqin edən bir sistem olsa da, hazırda bir çox hallarda ondan, təəssüf ki, siyasi alət kimi istifadə olunur. Məsələnin mahiyyətinə varanda, prosesin hansı formada və xarakterdə getdiyinə diqqət yetirəndə dinin siyasiləşdirilməsinə şübhəmiz qalmaz. Hətta dinin siyasətə gətirilməsini qəbul etməyənlər belə bu amildən diplomatiyada istifadə etməyə çalışırlar. Bəli, dinin siyasiləşməsi prosesi gedir. Biz bu təmayülü Avropa ölkələrində, eləcə də müsəlman dünyasında müşahidə edirik. Roma Katolik Kilsəsi dini mərkəz olmaqla yanaşı, həm də siyasi institut, Vatikan özünün siyasi atributlarına malik bir dövlətdir. Bu dini mərkəz siyasi proseslərin gedişində öz mövqeyini ortaya qoyur. Oxşar nümunələri başqa ölkələrin timsalında da görürük. Güman edirik ki, bu tendensiya hələ uzun müddət davam edəcək və din amilindən siyasətdə yararlanmağın ən müxtəlif formalarını görəcəyik.

***– Sizcə, ortadakı ziddiyyətin səbəbi nədir: kənar güclərin müsəlman ölkələri arasında düşünülmüş şəkildə yad məzhəb, təriqət kimi ayırıcı xətlər yaratması, yoxsa bu düşərgədə siyasi-iqtisadi maraqların üst-üstə düşməməsi?***

– Müsəlman ölkələrinə gəldikdə, kənar güclər bu coğrafiyada çeşidli metod və amillərdən istifadə edirlər. Bunlardan biri də din amilidir. Ümumiyyətlə, bu gün hər hansı bir ölkəni dünyanın siyasi xəritəsindən silmək üçün din amilindən çox məharətlə istifadə edilir. Aşkar görünür ki, bəzi bölgələrdə dini zəmində, dini müstəvidə ayrı-seçkilik yaradılır, münaqişələrə rəvac verilir. Bununla da bütöv ölkələr arasında qarşıdurmalar körükləndirilir. Suriyada, Sudanda, İraqda və Pakistanda baş verənlər dediklərimizin təsdiqi sayıla bilər. Buna görə də müsəlman ölkələrinin üzərinə çox ciddi və böyük vəzifə düşür. Bu sırada Azərbaycan da məzhəbçilik zəminində hər hansı prosesin qarşısını vaxtında almağa çalışmalıdır. Qeyd etməliyik ki, dövlətimiz bu istiqamətdə olduqca böyük işlər görür. Aydın məsələdir ki, burada siyasi maraqlar məsələsi ön plana çıxır. Yəni Qərb ölkələri müəyyən məsələlərdə özlərinin siyasi maraqlarını təmin etməkdən ötrü din amilini dövriyyəyə daxil etməkdən çəkinmirlər. Bu, olduqca incə, vacib məsələdir və biz buna diqqətli yanaşmalıyıq.



***– Müsahibələrinizin birində demisiniz ki, dinlə mübarizə aparmaq yox, onunla əməkdaşlıq etmək lazımdır. Bu tezisi bir qədər izah edərdiniz.***

– Bəli, həm bizim düşüncəmizə görə, həm də dünyada cərəyan edən proseslər onu göstərir ki, dünyanın müxtəlif bölgələrində dinlə mübarizə aparan ölkələrin heç biri uğur qazana bilməyib. Təbii ki, biz mövhumat, xurafatla, həmçinin dini radikalizm və ekstremizmlə mübarizə aparmalıyıq. Amma, eyni zamanda, dini proseslər, din siyasəti dövlət tərəfindən həyata keçirilməlidir. Əgər biz bir tərəfdən mövhumatla, xurafatla, radikal dini cərəyanlarla, qruplarla mübarizə aparırıqsa, digər tərəfdən əməkdaşlığa meyilli, mötədil, loyal tərəflərlə də əməkdaşlıq etməliyik. Yəni bu proses iki istiqamətdə getməlidir. Bunun bir qolu görüləcək inzibati tədbirlər, başqa qolu isə maarifləndirmə yoludur. Biz məhz bu istiqamətlər üzrə addımlarımızı atmalıyıq. Amma yalnız mübarizə aparmaqla da kifayətlənmək olmaz. Bu fikri deyərkən nəyə əsaslandığımı izah edim. Sovet hökuməti yetmiş il ərzində dinə qarşı mübarizə aparsa da, məsələni tam sıradan çıxarmağı bacarmadı. Həm də bunu nəzərə alaraq, bu istiqamətdə daha çox əməkdaşlığı, ortaya çıxan problemlərin birgə müzakirəsini təklif edirəm.

***– Gənc nəslə əxlaqi, mənəvi və dini dəyərlərin aşılanması çox vacibdir. Burada din amili xüsusi yer tutur. Açığını deyək ki, bu gün gənclərin bir qismi radikal dini cərəyanlara meyillənir. Burada kənar qüvvələrin "xidməti" öz yerində, amma savadsızlıq amili də rol oynayır...***

– Haqlısınız, milli-mənəvi, əxlaqi dəyərlərin təbliğində dinin çox böyük rolu var. Biz dinimizin məhz bu dəyərləri aşılamasından istifadə edərək, gəncləri mənəviyyatca saf, sağlam, vətənpərvərlik ruhunda böyütməliyik. Gənclərimizin radikal cərəyanlara meyil göstərməsi, kənar təsirlərin altına düşməsi o zaman baş verir ki, cəmiyyət gənc nəslə bu sahədə yetərli qədər bilik aşılaya bilmir. Bütün çıxışlarımda onu xüsusi olaraq vurğulayıram ki, biz davamlı olaraq maarifləndirmə və təbliğat işləri aparmalıyıq. Bu sahədə boşluq yarananda radikal təmayüllü təriqətlər, ünsürlər meydana daxil olaraq, vətəndaşlarımızı yoldan çıxarırlar. Bunun baş verməməsi üçün çox ciddi və məqsədyönlü işlər görülməlidir.

***– Radikal dini təriqətlərin, qruplaşmaların nümayəndələrinin çıxışlarını, çağırışlarını eşidəndə, "Kərimə dövləti" xülyasına düşənləri dinləyəndə adam real təhlükə hiss edir. Dövlətin və vətəndaşın dini təhlükəsizliyinə təhdidləri önləməyin yolları, üsulları barədə fikirləriniz maraqlı olardı.***

– Dediyiniz yad dini təriqətlər, qruplaşmalar birmənalı olaraq cəmiyyətimiz üçün təhlükədir. Azərbaycanda daxili sabitliyi pozmaq üçün xaricdən düşünülmüş şəkildə iş aparılır. Region dövlətlərinin bəziləri bu prosesdə fəallıq göstərir, təbliğata üstünlük verirlər. Belə ideoloji təhdidlərə sıradan bir çağırış kimi baxmamalı, bunlara qarşı olduqca diqqətli olmalıyıq. Çünki həmin yad təriqət təbiğatçılarının əməllərinin təzahürlərini zaman-zaman müşahidə edirik. Gənclərimiz məhz məlumatsızlıqdan bu kənar təsirlərin altına düşə bilirlər. Bir daha təkrar edirəm, bu istiqamətdə ardıcıl və çox ciddi çalışmalıyıq.

***Söhbəti yazdı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Kilsənin "mənəvi missiya" iddiasının gizlin hədəfi

## *Məqsəd revanşist niyyətləri qızışdırmaqdır*

**Erməni Apostol Kilsəsi ilə hakimiyyət arasındakı münasibətlər gərgin olaraq qalmaqdadır. Uzun illər toxunulmaz sayılan kilsə ilk dəfədir ki, siyasi proseslərin mərkəzində bu qədər sərt şəkildə tənqid olunur. Kilsə rəhbərliyi baş verənləri mənəvi dəyərlərə və ənənələrə yönəlmiş təzyiq kimi təqdim etməyə çalışsa da, hakimiyyət nümayəndələri məsələnin sırf hüquqi müstəvidə qiymətləndirilməli olduğunu vurğulayırlar. Onların fikrincə, dini institutun açıq siyasi mövqe sərgiləməsi mənəvi missiyanın sərhədlərini aşır. Ölkədə taleyüklü parlament seçkilərinin yaxınlaşması hakimiyyət–kilsə qarşıdurmasını daha da kəskinləşdirir və tərəflərin ritorikasını sərtləşdirir.**

Bu istiqamətdə "Hraparak" qəzetinin dünənki sayında yazılanlar maraq doğurur. Qəzet qeyd edir ki, hakim "Mülki müqavilə" partiyasının nümayəndələri seçkilər ərəfəsində Erməni Apostol Kilsəsi ilə qarşıdurmanın siyasi qüvvənin nüfuzuna zərər vura biləcəyini düşünürlər. Nəşrin məlumatına görə, fevralın 22-də Sevan şəhərindəki Müqəddəs Arxangel kilsəsində Baş nazir Nikol Paşinyanın iştirakı ilə keçirilən liturgiya zamanı bütün ermənilərin katolikosu II Qareginin adının çəkilməsi hakim komanda daxilində anlaşılmazlıq yaradıb. Qəzet qeyd edir ki, partiya daxilində seçkilərə qədər "atəşkəs"ə üstünlük verilməsi meyili güclənir. Onların qənaətincə, iyunun 7-də keçiriləcək seçkilərdə qələbə qazanılacağı təqdirdə, "məsələ öz-özünə həllini tapacaq" və katolikos könüllü şəkildə istefa verəcək.

Məqalədə əksini tapan fikirlərin təhlilinə keçmədən öncə qeyd edək ki, "Hraparak" Ermənistanın müstəqil gündəlik qəzetlərindən biridir. Uzun illərdir ki, nəşrin sahibi və baş redaktoru Arpine Ohanyandır. "Hraparak" adətən müxalif tonlu, tənqidi materialları ilə seçilir və xüsusilə Paşinyan hakimiyyətinə qarşı sərt mövqedən çıxış edən yazılar dərc edir. Bununla belə, o, rəsmi olaraq hansısa partiyanın orqanı sayılmır və özünü müstəqil media kimi təqdim edir. Qəzet 2008-ci ildən fəaliyyət göstərir və daha çox daxili siyasi proseslər, hakimiyyət daxilindəki müzakirələr və kuluar məlumatları ilə tanınır. Onun yaydığı məlumatlar bir çox hallarda sonradan öz təsdiqini tapır. Bu baxımdan Ermənistanda və ondan kənarda qəzetə ciddi informasiya mənbəyi kimi yanaşılır.

Yazıda qeyd edilən Ermənistanda hakimiyyətin seçkiyə qədər kilsə ilə münasibətlərdə nisbi sakitlik xətti götürməsi fikri təsadüfi addım kimi görünmür. Bu, daha çox siyasi zərurətdən doğan taktiki manevr təsiri bağışlayır. Çünki son aylarda kilsəyə qarşı sərt ritorika, xüsusilə katolikosun istefası tələbi ətrafında aparılan kampaniya cəmiyyətdə birmənalı qarşılanmadı. Hakim komanda üçün əsas risk dini məsələnin siyasi gündəliyi üstələməsi və sosial narazılığı dərinləşdirməsi idi. Seçkilər ərəfəsində iqtidar üçün ən vacib məsələ elektoratı parçalamamaqdır. Etiraf etmək lazımdır ki, Ermənistan cəmiyyətində isə kilsənin tarixi və simvolik çəkisi böyükdür. Hətta hakimiyyətə tənqidi yanaşan seçici də dini institutun açıq şəkildə hədəfə alınmasını həzm etməyə bilər. Bu mənada atəşkəs qərarı emosional qarşıdurmanı yumşaltmaq, gündəliyi sosial-iqtisadi və təhlükəsizlik mövzularına yönəltmək cəhdidir.

Digər tərəfdən, bu taktika hakimiyyətin geri çəkilməsi anlamına gəlmir. Əksinə, prosesə daha soyuq hesabla yanaşma görüntüsü yaradır. Məntiq sadədir: seçkidən sonra siyasi legitimlik möhkəmlənərsə, kilsə daxilindəki parçalanma və din xadimlərinin bir qisminin mövqeyi fonunda məsələ fərqli mərhələyə keçə bilər. Yəni indi sükut, sabah isə yeni konfiqurasiya ehtimalı var. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, qarşıdurma artıq sırf dini çərçivədə deyil. Postmüharibə reallıqları, sülh gündəliyi və Ermənistanın xarici siyasi kursu fonunda kilsə bir növ alternativ fikir mərkəzinə çevrilib. Hakimiyyət isə bu mərkəzin seçki öncəsi fəallaşmasının əlavə risklər yaradacağını anlayır. Ona görə də açıq toqquşma əvəzinə müvəqqəti pauza seçilir.

Bu addım həm də cəmiyyətə mesajdır ki, iqtidar qarşıdurma axtarmır, sabitlik istəyir. Lakin seçici də anlayır ki, problem aradan qalxmayıb, sadəcə dondurulub. Katolikosun istefası məsələsi gündəmdən çıxmayıb, yalnız arxa plana keçib. Seçkilərin nəticəsi isə bu mövzunun taleyini müəyyənləşdirə bilər. Hakimiyyətin atəşkəs xətti zəiflik deyil, vaxt qazanmaq strategiyası kimi də qiymətləndirilə bilər. Ermənistan siyasi səhnəsində hazırda əsas sual budur ki, tərəflər seçkidən sonra yenidən üz-üzə gələcək, yoxsa qarşıdurma yeni format alacaq? Mövcud durum göstərir ki, sükutun özü də mübarizənin bir formasıdır və proses hələ bitməyib.

***



Bundan əlavə, kilsənin müqavimət strategiyası yalnız daxildən qaynaqlanmır. Katolikos II Qaregin revanşist dairələrlə və ölkənin ikinci prezidenti Robert Koçaryanla birbaşa əlaqəlidir. Bu da kilsənin bəyan etdiyi mənəvi dəyərlərlə uzlaşmadığını, onun siyasi oyunlarla məşğul olduğunu göstərir. Bu istiqamətdə Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyanın jurnalistlərə açıqlamasında səsləndirdiyi fikirlər diqqəti cəlb edir. "Bütün din xadimləri yadda saxlamalıdırlar ki, onlar Erməni Apostol Kilsəsinə və xalqa xidmət edirlər, Robert Koçaryanın qərargahına və oliqarxların maraqlarına yox", – deyən Rubinyan əlavə edib ki, heç bir din xadimi partiya mənsubiyyətinə görə kilsəyə gələnləri ayrı-seçkiliyə məruz qoymamalıdır. Onun sözlərinə görə, kilsə rəhbərləri ictimai etimadı qorumağa və siyasi təsirlərdən uzaq durmağa borcludurlar. Vitse-spiker vurğulayıb ki, hakimiyyət yalnız ictimai sabitliyi təmin etmək üçün nəzarət aparır, dini institutun daxili işlərinə müdaxilə etmir. Eyni zamanda, Rubinyan kilsə ilə dialoqun davam etdirilməsinin vacibliyini, qarşılıqlı anlaşmanın yalnız uzunmüddətli sülh və sabitliyə xidmət edəcəyini qeyd edib.

R.Rubinyanın açıqlaması bir daha göstərir ki, kilsə Qarabağ klanının, necə deyərlər, xaç atası hesab olunan R.Koçaryanla, Rusiyameyilli oliqarxlarla sıx əlaqəlidir. Onlar sinxron hərəkət edirlər. Bu əlaqələr kilsənin bəyan etdiyi mənəvi missiyanın həqiqi mahiyyətinə ziddir. II Qaregin Ermənistana bəlalar yaşatmış, keçmişin qalığı olan siyasi dairələrlə yaxınlığı həm kilsə daxilində, həm də cəmiyyətin geniş təbəqələrində narazılıq doğurur. Belə münasibət kilsənin nüfuzuna xələl gətirir və dini institutun tərəfsiz imicini zəiflədir. Revanşist dairələrdən gələn təsirlər kilsə qərarlarının obyektivliyini şübhə altına alır. Bu, həm də hakimiyyət üçün əlavə risk yaradır, çünki seçki öncəsi sosial gərginliyi artırmaq potensialı daşıyır. Kilsə ilə siyasi qüvvələr arasındakı bu koordinasiya, həmçinin cəmiyyətdə qütbləşməni gücləndirir. Nəticədə, II Qaregin və onun müttəfiqlərinin fəaliyyəti yalnız dini və mənəvi sahə ilə məhdudlaşmır, həm də açıq siyasi təsir elementləri daşıyır. Bu isə Ermənistanın ictimai-siyasi sabitliyinə əlavə təzyiq göstərir.

***Səxavət HƏMİD***
***XQ***

# Erməni millətçiliyi kimə sərfəlidir?

## *Rus politoloq Nikolay Silayev sualı, bəlkə, fərqinə varmadan cavablandırır*

**Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu nəzdindəki Beynəlxalq Tədqiqatlar Mərkəzinin aparıcı elmi işçisi, politoloq Nikolay Silayev İrəvanda keçirilən “Avrasiya Dialoqu. Ermənistan” Beynəlxalq Analitik Proqramının təqdimatı zamanı son dərəcə maraqlı məqama toxunub. Daha doğrusu, onun üzərində dayandığı məsələ Qafqazda erməni varlığının əsas mahiyyətini ortaya qoyub. Əlbəttə ki, söhbət dırnaqarası mahiyyətdən gedir.**



Xeyr, “dırnaqarası mahiyyət” ifadəsini tam olaraq reallığın dilə gətirilməsi, yəni Qafqazda erməni varlığının real “missiyasının” vurğulanması kontektsində işlətmirik. Başlıca məqam bu varlığa kənardan münasibətdir. O münasibət ki, xarici qüvvələr onun tərkib hissəsi olan hərəkət və davranışları, obrazlı desək, hayların əyinlərinə biçib, onlar üçün alın yazısına çeviriblər. Yəni politoloq Silayevin bəlkə fərqinə varmadan dilə gətirdiyi məhz budur. Elə isə yazımızın məğzinə keçək.

Deməli, rusiyalı siyasi ekspert bildirib ki, son 1,5 əsr ərzində erməni millətçiliyi mühüm xarici siyasət faktoru olub, bu və ya digər formada böyük dövlətlərin Cənubi Qafqazda proseslərə yanaşmasına təsir göstərib: “Hazırda biz görürük ki, Ermənistan son 150 ildə mövcud olmuş erməni millətçiliyindən imtina edir. Burada artıq ölkənin tərəfdaşlarında suallar yaranır”.

Görəsən, hansı suallar? Bu barədə ehtimallarımızı irəli sürərək aşağıdakıları bildirək. Birincisi, Silayev son iki əsrə qədərki zaman kəsiyinin üzərində dayanır. Yəni bu məqam hayların bölgənin aborigen xalqı olmalarına dair sərsəmləmələrini alt-üst edir. İkincisi, tarixdən məlumdur ki, ermənilər Cənubi Qafqaza 1812-1813 və 1827-1828-ci illərin Rus-İran müharibələrinin yekunu olaraq köçürülüblər. Hətta müharibənin nəticələrini təsdiqləyən 1828-ci ilin Türkmənçay müqaviləsində bu köçürülmə barədə ayrıca müddəa yer alıb.

Köçürülmə prosesi 1830-cu ildən sonra vüsət almağa başlamış və bir müddət sonra çar Rusiyası tərəfindən Qafqazda erməni vilayəti yaradılmışdı. Ən başda məqsəd türk-müsəlman torpaqlarına xristian-erməni pazı yeritmək olmuşdu. Məsələ həm Qərb, həm də rus imperializminin marağında idi. Çünki onlar müştərək düşmənə - Osmanlıya qarşı təxribat sipəri formalaşdırmağa girişmişdilər və istəklərinə nail olmuşdular.

Bəli, hər iki tərəf eyni məqsəd naminə erməni millətçiliyindən yararlanmışdı. Onlar bu millətçiliyin təşkilatlanması istiqamətində məqsədyönlü fəaliyyət də həyata keçirmişdilər. Silayevin barəsində söz açdığı “erməni millətçiliyi mühüm xarici siyasət faktoru olub” fikri də diqqətə çatdırdığımız tarixi reallıqdan qaynaqlanır.

İndi isə ekspert, bir növ, həyəcan təbili çalır. Təxminən belə: erməni varlığı kənar qüvvələrin xarici siyasət faktoru olmaq ampluasından çıxıb. Belə bir hal yaşanıbsa, ermənilər kimə lazımdır? Rusiyalı ekspertin sözlərindən gəlinən qənaət budur ki, heç kim bu varlığa ehtiyac duymur. Onun “burada artıq Ermənistanın tərəfdaşlarında suallar yaranır” fikri də gəldiyimiz qənaətin təsdiqidir.

Qeyd edək ki, politoloq Silayev düşüncələrini 2020 və 2022-ci illərin hadisələrindən sonra İrəvanın Moskva ilə ittifaqa etimadının azalması kontekstində açıqlayıb. Onun sözlərinə görə, Ermənistan rəhbərliyi son illərdə belə bir mövqedən çıxış edir ki, Azərbaycandan və daha az dərəcədə Türkiyədən qaynaqlanan təhlükəni azaltmaq lazımdır və problem güzəştlər hesabına aradan qaldırılmalıdır.

Əlbəttə, politoloqun nəyə görə məsələyə sırf təhlükə prizmasından yanaşdığı məlumdur. Çünki ermənilərin azərbaycanlılara, ümumən türklərə düşmənçilik motivlərini aşılayan həm də Rusiya olub. Yəni cənab Silayev rus siyasi estableşmentindəki ənənəvi tezisi təkrarlayır. Belə bir tezisin mövcudluğuna görədir ki, rəsmi İrəvanın konstruktivliyə meyilli kursu güzəşt sayılır. Əslində, ermənilər, müəyyən mənada, təməl oyun qaydalarını pozmuş kimi göstərilir. Axı türklərlə barışıq erməni varlığının əyninə biçilmiş libas deyil. Müvafiq olaraq, türklərlə düşmənçilik hay millətçiliyinin qayəsidir.

Deməli, Silayev erməni millətçiliyinin çöküşünü Ermənistanın Rusiya ilə yollarını ayırması nöqteyi-nəzərdən təsəvvürə gətirib. Baxın, o, çox açıq şəkildə deyib ki, Ermənistan Ankara və Bakı ilə razılaşmalar əldə etməklə, faktiki olaraq, Moskva ilə əməkdaşlığa ehtiyacı azaldır. Amma politoloq, İrəvanı, belə demək mümkünsə, məhvərinə qaytarmaq üçün “şans” gördüyünü də açıqlayıb. Söhbət bu ilin yayında Ermənistanda keçirilməsi nəzərdə tutulan parlament seçkilərindən gedir.

O seçkilərdən ki, rusiyalı politoloqun fikrincə, erməni millətçiliyi ideologiyasının insanlar, yəni sıravi haylar üçün nə dərəcədə aktual qaldığı sualına aydınlıq gətirəcək: “Amma məsələ ondadır ki, istənilən xarici müdaxilə insanları bu və ya digər qərara sövq edə bilər – ya həmin erməni ideologiyasının əhəmiyyətini təsdiqləyə, ya da ondan imtinaya gətirib çıxara bilər”.

Sonda onu da bildirək ki, politoloq Silayevin dilə gətirdikləri məqamlar, bütövlükdə, Rusiya düşüncə sisteminin Ermənistana yanaşmasından qaynaqlanır. O yanaşmadan ki, onu rəsmi İrəvanın təmsilçiləri, ən əsası, baş nazir Nikol Paşinyan bəzən açıq, bəzən isə dolayısı ilə tənqid edir. Məsələn, Paşinyan bir müddət əvvəlki “Facebook” paylaşımında vurğulamışdı ki, indiyədək ermənilərə yaşamaq uğrunda mübarizə təlqin olunub, amma bundan sonra inkişaf dövrü başlayacaq.

Başqa sözlə desək, düşmənlərə qarşı mübarizə təbliğatı Ermənistanın və erməni xalqının inkişafına maneçilik törədib. Belədə ortaya son dərəcə mühüm sual çıxır: Hay millətçiliyini arzulayan xarici qüvvələr, indiki halda rusiyadakılar Ermənistanın bir dövlət olaraq mövcudluğuna, erməni xalqının dövlətə malik xalq kimi ömür sürməsinə razılıq verəcəkmi? Hesab edirik ki, bu sual rəsmi İrəvanı çox ciddi düşündürməlidir. Nəinki rəsmi İrəvan, bütövlükdə erməni xalqını düşündürməli və qarşıdakı parlament seçkilərinə daha böyük əzmlə hazırlaşmalıdır.

Hər iki kəsim nəzərə almalıdır ki, artıq 150, 200 il əvvəlki dövr deyil. Nə hazırkı Azərbaycan həmin illərdəki dövlətsizlik durumunun məngənəsində boğulur, nə də indiki Türkiyə o zamanın Osmanlısıdır. Kimlərəsə, hansısa qüvvələrəsə güvənməyin mənasızlığı da 44 günlük müharibə və savaşdan sonrakı proseslər gedişində tam sübuta yetirildi. Yəni erməni xalqı qətiyyət göstərib millətçiliyi tarixin arxivinə göndərməli, öz qarşısında pozitiv, qonşularla normal keçinməyə əsaslanmış yaşam səhifəsi açmalıdır. Nicat yolu yalnız bundadır, yenidən xarici qüvvələrin maşasına çevrilməkdə yox!

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yaxın Şərq yenidən alova bürünüb

## *Beynəlxalq birliyin sülh çağırışları eşidiləcəkmi?*

**Fevralın son, mart ayının ilk günlərinə düşən ABŞ/İsrail–İran hərbi eskalasiyası Yaxın Şərqin hərbi səhnəsində qlobal güc balansını tamamilə sarsıdıb. Ağ Ev administrasiyası və İsrail hökumətinin müştərək həyata keçirdiyi genişmiqyaslı hava əməliyyatları, sadəcə, regional hərbi addım xarakteri daşımır. Hazırkı geosiyasi böhran xroniki münaqişələrin həlli yolunu silahların kölgəsinə çəkərək diplomatiya ənənələrini iflic vəziyyətinə salıb. Təşkil edilən hərbi kampaniyanın əsas məqsədi mövcud rejimin dayaqlarını məhv etməyə, dövlətin idarəetmə aparatını çökdürməyə istiqamətlənib.**

Qeyd olunan tarix müasir kitablara yüksəktexnologiyalı qırıcıların amansız mərmi yağışı kimi həkk olunacaq. Rəsmi Vaşinqton aparılan qlobal hücumu “Epik qəzəb” adlandırıb, İsrail ordusu isə həmin missiyanı “Nərildəyən şir” şifrəsi altında icra edir. Adıçəkilən hərbi ittifaqın nəhəng kəşfiyyat və aviasiya imkanları tam səfərbər olunaraq İranın ciddi mühafizə edilən yeraltı mərkəzlərini məhv etməyə yönəldilib. Hədəflər siyahısına paytaxt Tehran, uranın zənginləşdirilməsi obyektlərinin yerləşdiyi İsfahan, Qum, həmçinin Kərəc və Kirmanşah şəhərlərindəki yeraltı strateji obyektlər daxildir. Hava həmlələrinin intensivliyi, koordinasiyası və dağıdıcı qüvvəsi rəqib tərəfin zenit raket komplekslərini asanlıqla yararaq kütləvi dağıntılara səbəb olub. Hədəfə alınan məkanlar arasında prezidentin parad meydanı, Təhlükəsizlik Şurasının qərargahı, kəşfiyyat idarələri də daxil olmaqla, ümumilikdə otuzdan çox hərbi obyekt yer alır.



*

Əməliyyatların ən sarsıdıcı nəticəsi İranın siyasi və dini rəhbəri sayılan Ali Rəhbər Ayətullah Əli Xameneinin öldürülməsidir. Paytaxt Tehranın mərkəzində yerləşən, son dərəcə qorunan iqamətgaha endirilən dəqiq hava zərbələri dini liderin həyatına son qoyub. Vurulan hədəflər siyahısında ölkənin Təhlükəsizlik Şurasının nüfuzlu nümayəndəsi Əli Şəmxani, müdafiə naziri Əziz Nəsirzadə, İslam İnqilabı Keşikçiləri Korpusunun rəhbərlərindən Məhəmməd Pakpur kimi mühüm şəxslərin adları sadalanır.

*

Hadisələrin cərəyan etdiyi təlatümlü mənzərə fonunda Qafqazın geosiyasi mərkəzi olan Azərbaycanın yürütdüyü xarici siyasət kursu son dərəcə soyuqqanlı, praqmatik yanaşması ilə seçildi. Böhranın kəskinləşdiyi ilk saatlarda Prezident İlham Əliyev qonşu ölkənin başçısı Məsud Pezeşkiana rəsmi başsağlığı məktubu ünvanlayaraq, Ali dini rəhbər Ayətullah Əli Xameneinin həlak olmasından qaynaqlanan dərin kədərini ifadə edib, qonşu xalqa dözüm arzulayıb. Eyni zamanda, xarici işlər naziri Ceyhun Bayramov iranlı həmkarı Abbas Əraqçi ilə telefon vasitəsilə əlaqə yaradaraq yaranmış regional xaosdan doğan narahatlığı qarşı tərəfin diqqətinə çatdırıb.

Hadisələr mürəkkəb xronologiya ilə irəliləyir, rəhbərlərin hər cümləsi qlobal bazarların nəbzini dəyişir. Müharibə xaosundan yaxa qurtarmağın yeganə resepti ali müdriklik və qətiyyətli təmkindir. Əldə olunan son məlumatlara görə, əhaliyə humanitar yardımın çatdırılması və təhlükəsiz zonaların yaradılması üzrə tədbirlər həyata keçirilir. Bu isə ümidləri artırır ki, müharibə xaosundan çıxış yolu tədricən formalaşacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Cənubi Asiyada köhnə münaqişənin yeni dartışması

## *Pakistan–Əfqanıstan gərginliyi sağalmayan yaraya çevrilib*



**Deyəsən, yeni dünya düzəni “qlobal anarxiya” formasında gəlir. Yaxın Şərqdən tutmuş Cənubi Asiyaya qədər bir çox ixtilafların həll olunmamış qalması sabit dünya konsepsiyasının reallaşmasını mümkünsüz edir. Səbəb isə İkinci Dünya müharibəsindən sonra bərqərar olmuş mövcud sistemin həllər tapmaq yerinə, böhranları gələcəyə miras saxlamaqla kifayətlənməsi oldu. Pakistan və Əfqanıstan arasında uzun müddətdir davam edən münaqişə bunun bariz nümunəsidir.**

Ötən ayın son həftəsi iki ölkə arasında gərginlik pik həddə çatdı. Rəsmi İslamabad terror təşkilatı hesab etdiyi və son illər İslam prinsiplərinə zidd fəaliyyətlərinə görə “xaricilərin fitnəsi” adlandırdığı “Tehrik-e-Taliban Pakistan” (TTP) qruplaşmasının liderlərinin Əfqanıstan ərazisində sığınacaq tapdığını iddia edərək fevralın 21-də Nanqarar və Paktika vilayətlərinə hava zərbələri endirdi. Cavab olaraq fevralın 26-da Taliban qüvvələri sərhəd mövqelərinə qarşı əməliyyatlar həyata keçirdiyini açıqladı. Fevralın 27-si səhər saatlarında Pakistan ordusu əks-hücuma keçərək Kabil, Kəndəhar, Paktia və digər ərazilərə genişmiqyaslı hava və artilleriya zərbələri endirdi. Ölkənin müdafiə naziri Xəvəca Əsif rəsmi olaraq Əfqanıstana müharibə elan edildiyini bildirdi. Son rəqəmlərə əsasən, itkilər hər iki tərəfdən kifayət qədərdir. Pakistan 274 Taliban döyüşçüsünün məhv edildiyini, Əfqanıstan isə 55 Pakistan əsgərinin öldürüldüyünü bildirib.

**ARAYIŞ:** *Mübahisənin təməli 1893-cü il noyabrın 12-də Britaniya Hindistanının xarici işlər naziri Mortimer Dürand və Əfqanıstan əmiri Əbdürrəhman xan arasında imzalanmış sazişə dayanır. Faktiki olaraq, bu sənəd puştunların məskunlaşdığı əraziləri iki yerə bölərək Britaniyanın maraqları üçün bufer zona yaratdı. 1947-ci ildə Pakistan yarandıqdan sonra Əfqanıstan tərəfi müqavilənin Britaniya imperiyası tərəfindən təzyiq altında imzalandığını və 100 illik müddətinin bitdiyini əsas gətirərək sərhədi tanımır. Əfqanıstanın bəzi radikal millətçi qrupları Pakistanın Xeyber-Paxtunxva əyalətini və Bəlucistanın şimal hissələrini “tarixi Əfqanıstan”ın ayrılmaz parçası hesab edirlər.*

Məsələ burasındadır ki, aparılan sorğulara əsasən, Əfqanıstanın mübahisəli hesab etdiyi Pakistan ərazilərində yaşayan yerli əhali İslamabadın siyasətini dəstəkləyir və ölkədən ayrılmaq niyyətində deyil. Başqa sözlə, Əfqanıstandakı mövcud rejimin həm öz ərazisini, həm də Pakistan və İranın bir hissəsini əhatə edən “Puştunistan” dövləti yaratmaq ideyası həmin bölgələrdə məskunlaşan yerli xalqın əksəriyyəti tərəfindən rəğbətlə qarşılanmır.

Ötən əsrin sonlarında formalaşan Taliban hərəkatı 2001-ci ilə qədər Əfqanıstanın böyük hissəsini öz nəzarətində saxlasa da, 11 sentyabr hadisələrindən sonra regionda geosiyasi mənzərə köklü şəkildə dəyişdi. ABŞ-ın Əfqanıstana hərbi müdaxiləsi nəticəsində hakimiyyətdən uzaqlaşdırılan Taliban qüvvələri mövcudiyyətini qorumaq üçün geri çəkilmək və fəaliyyətlərini ciddi şəkildə məhdudlaşdıraraq gizli müqavimət taktikasına keçmək məcburiyyətində qaldı. 2021-ci ildə ABŞ qoşunları Əfqanıstanı tərk etdikdən sonra Talibanın hakimiyyətə qayıdışı İslamabadda böyük ümidlər yaratmışdı. Pakistan tərəfi yeni rejimi özünə sadiq tərəfdaş hesab etsə də, Taliban gözlənilməz addım ataraq TTP kimi Pakistan daxilində fəaliyyət göstərən silahlı qruplaşmaların hücumlarına zəmin yaratdı. Məhz bu səbəbdən ötən bir neçə il ərzində iki ölkə arasındakı sərhəd bölgələrində mütəmadi olaraq silahlı toqquşmalar qeydə alınıb.

Qarşıdurmanın gedişatı ilə bağlı bir neçə mümkün ssenarini nəzərdən keçirmək yerinə düşər. Bəzi analitiklər sonrakı mərhələdə tərəflərin məhdud eskalasiyaya yol verərək, qısa müddətdən sonra nisbi sakitlik fazasına keçəcəyini ehtimal edirlər. Bu ehtimala görə, Pakistan yalnız strateji hədəflərə nöqtəvi zərbələr endirməklə tammiqyaslı müharibədən yayınacaq, Əfqanıstan isə simvolik cavab tədbirləri ilə kifayətlənəcək. Belə bir vəziyyətdə Qətər, Çin və ya Körfəz dövlətlərinin vasitəçiliyi ilə sülh danışıqlarının canlanması və hər iki tərəfin uzunmüddətli hərbi münaqişədən çəkindirilməsi mümkün görünür. Arzuolunmayan digər ssenariyə əsasən, toqquşmaların miqyasının tədricən genişlənərək uzunmüddətli cəbhə müharibəsinə çevrilməsi ehtimalı istisna edilmir. Belə bir gedişat onsuz da bölgənin həssas durumuna ciddi təsir edəcək və regionda yenidən qeyri-sabitliyin bərqərar olmasına şərait yaradacaq.

Üçüncü ssenariyə görə, Taliban daxildə parçalanacaq və rəhbərlər arasında ciddi qarşıdurma baş qaldıracaq. Bu, hər bir qanadın müxtəlif strateji və ideoloji maraqlara üstünlük verməsi səbəbindən silahlı toqquşmalara və hakimiyyət uğrunda mübarizəyə çevrilə bilər. Nəticə isə başda Əfqan xalqı olmaqla, mövcud rejiminin sonunu gətirəcək. Dördüncü proqnoz region dövlətlərinin rolu ilə bağlıdır. Çin–Pakistan İqtisadi Kəməri çərçivəsində Pekinin stabilliyə marağı, İranın sərhəd təhlükəsizliyini qoruma arzusu, Hindistanın isə Pakistanın zəifləməsində strateji marağı var. Birbaşa hərbi müdaxilə ehtimalı aşağı olsa da, diplomatik dəstək, maliyyə yardımı və təhlükəsizlik sahəsində məsləhətlər regiondakı güc balansına ciddi təsir göstərə və qarşıdurmanı yumşalda bilər.

Nəticə etibarilə, Pakistan və Əfqanıstan arasında gərginliyin hansı müstəviyə keçəcəyi hələ də qeyri-müəyyənliyini qoruyur. Mövcud vəziyyət onu deməyə əsas verir ki, regionun gələcəyi İslamabadın daxili güc balansından və xarici siyasət kursundan asılı olacaq. Keçmişdən qalan münaqişələrin istənilən yolla həlli bu gün bütün dünyada təhlükəsizlik arxitekturasını yenidən formalaşmasına təkan verə bilər.

***Tacir SADIQOV***
***XQ***

# Böyük Britaniyanın yeni səfiri

**Böyük Britaniya Dunkan Normanı Azərbaycana yeni səfir təyin edib. O, bu vəzifədə Ferqus Auldu əvəz edəcək. Məlumata görə, Dunkan Norman vəzifəsinin icrasına may ayında başlayacaq.**



Yeni səfir sosial şəbəkə platforması “X”də paylaşım edərək Azərbaycan və Böyük Britaniya tərəfdaşlığını dərinləşdirmək məqsədilə ikitərəfli münasibətlərin əsasları üzərində irəliləməyi və ortaq prioritetlər üzrə mühüm işi davam etdirməyi səbirsizliklə gözlədiyini bildirib.

***XQ***

# Astara keçidi xilas yoluna çevrilib



**Astara Dövlət Sərhədindən Buraxılış Məntəqəsindən dünən səhər saatlarından etibarən Azərbaycan və xarici ölkə vətəndaşlarının keçidi davam edib. Xarici ölkələrin, ümumilikdə, 100-dən çox vətəndaşının İrandan təxliyəsi təmin olunub.**

Təxliyə olunan şəxslər Çin (50), Pakistan (20), Tacikistan (7), Fransa (1) vətəndaşlarıdırlar. Təxliyə edilənlər arasında Rusiya Federasiyası vətəndaşları üstünlük təşkil edir. Təxliyə iştirakçıları müvafiq qeydiyyat və sənəd yoxlanışı prosedurlarından keçirilib, təhlükəsiz və nizamlı şəkildə ölkə ərazisinə daxil olublar. Son mərhələdə 70-ə yaxın Rusiya vətəndaşı Azərbaycan ərazisindən tranzit qaydada keçərək ölkələrinə yola salınıb.

Təxliyə olunan göstərilən diqqət, qayğı və qonaqpərvərlik üçün Azərbaycan dövlətinə və xalqına təşəkkürlərini bildiriblər.

***XQ***

# Ermənistanda İran mövzusu: isterik durum, qutab və qarğıdalı

## *Yaxud hay başıpozuqların Azərbaycan və Türkiyə qarabasmaları*

**ABŞ və İsrailin İranla müharibə həddinə çatmış hərbi qarşıdurması fonunda Ermənistanda bu duruma münasibət baxımından ən real mənzərə ölkənin baş naziri Nikol Paşinyanın və parlament sədri Alen Simonyanın avtobusda əvvəl qutab, sonra isə qarğıdalı yemələridir. Əslində, bunda təəccüblü heç nə yoxdur. Qlobal savaş fonunda ermənilər başqa nə edə bilərlər? Ritorik suala sonda qayıdacağıq.**

Başda Paşinyan və Simonyan olmaqla, Ermənistan Təhlükəsizlik Şurası üzvlərinin Yaxın Şərqdəki gərginliyə həsr olunmuş məşvərəti keçirilib. Toplantıda nələrdən söz açıldığı bildirilmir. Ehtimal böyükdür ki, çıxarılan qərar "qutab və qarğıdalıya sadiqliyi" rəhbər tutub. Ritorik saydığımız suala cavabımız kimi, bu sadiqliyin də düzgün olub-olmadığını sonda açıqlayacağıq. Hələlik isə...

Əlqərəz, İrandakı müharibə şəraiti fonunda Ermənistandakı bəzi siyasi dairələr ciddi şəkildə hərəkətə keçərək, hay cəmiyyətini qarışdırmağa səy göstərirlər. Söhbət revanşistlərdən və şovinistlərin aktivləşmələrindən gedir. Onlar savaşın miqyasının genişlənəcəyi təqdirdə, ölkələrinin üzləşəcəyi iqtisadi problemlərlə yanaşı, diqqəti Azərbaycanın və Türkiyənin Ermənistana hərbi müdaxiləsi üzərində cəmləşdirirlər. Əlbəttə, başıpozuqlardan başqa nə isə gözləmək mümkünsüzdür.

Deməli, Ermənistandakı revanşist və şovinistlər əsasən iki məqama köklənirlər. Birincisi, Azərbaycan və Türkiyə Qərbin təhriki ilə İrana qarşı açıq hərbi əməliyyatlara başlaya bilər. Mövcud xüsusda Azərbaycanın İrana quru yolu ilə daxil olmaq üçün ən mühüm məntəqə olduğu vurğulanır. İkinci məqam isə bilavasitə Ermənistanla əlaqəlidir. Bildirilir ki, Azərbaycanın və Türkiyənin vəziyyətdən yararlanaraq, Süniki, yəni Zəngəzuru ələ keçirməsi mümkündür.

Qeyd edək ki, Ermənistandakı revanşist və şovinist dairələr, bir qayda olaraq, Bakı və İrəvan arasında ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə əldə olunmuş sülh razılaşmasını, imzalanmış Birgə Bəyannaməni heçə endirmək, sənədin heç bir təhlükəsizlik təminatı vermədiyini iddia etmək yolu tuturlar. Onlar Ermənistanın Rusiyaya köklənmiş ənənəvi təhlükəsizlik sisteminin nəzərə alınmamasını böyük fəlakət kimi qiymətləndirir və İrəvanın Moskva ilə yaxınlaşmasının vacibliyini vurğulayırlar.



Hazırda İranla bağlı durumun gərginləşməsi fonunda Azərbaycan və Türkiyənin fəallaşacağı ritorikasının təbliği də məhz Rusiya ilə yaxınlaşmaq tezisinin əhəmiyyətini qabartmağa yönəlib. Əlbəttə, hay başıpozuqların İranın da Ermənistan üçün təhlükəsizlik faktoru olmasına dair düşüncələri var. Axı vaxtilə Tehran rəsmilərinin Zəngəzur dəhlizinə qarşı çıxan, regionda sərhədlərin dəyişilməsinin yolverilməzliyini vurğulayan sərt fikirləri olmuşdu.

Beləliklə, Ermənistandakı revanşist və şovinist kəsim İrandakı durumun daha da gərginləşdiyi şəraitdə ABŞ-ın təhlükəsizlik zəmanətinin heç nəyə yaramadığı ideyasını təbliğ edir, ölkənin ənənəvi anti-Azərbaycan və anti-Türkiyə xəttinin təbliğatına girişib. Təbliğatın ana xətti isə budur: Birləşmiş Ştatların Ermənistan üçün təhlükəsizlik zəmanətinin heç nəyə yaramadığı bir dönəmdə Qərbdəki himayədarları Azərbaycanı və Türkiyəni İrana qarşı hərbi əməliyyatlara təhrik edəcək, İran əks-zərbələr endirəcək və buna qarşılıq Azərbaycan Süniki ələ keçirəcək. Sən demə Süniki, yəni Zəngəzuru ermənilər üçün qoruyan İran imiş.

Ermənistanda anti-Amerika ab-havası formalaşdırmağa xidmət edən bu cür sərsəm baxışlara daha bir təbliğat seqmenti də hakimdir. Sərsəmlik müəllifləri iddia edirlər ki, ABŞ Zəngəzur ərazisini 99 il müddətinə icarəyə götürməkdənsə, Azərbaycana və Türkiyəyə Ermənistana müdaxilə etməməklə bağlı sərt xəbərdarlıq edə bilərdi. Yəni Vaşinqtonun Bakı və Ankaraya xəbərdarlığının yoxluğu şəraitində də ABŞ-ın İrəvan üçün təhlükəsizlik zəmanətindən danışmağa dəyməz.

Məlumdur ki, belə baxışlar tipik hay xislətindən qaynaqlanır. O xislət ki, ona Ermənistanı və erməni varlığını mütləq kiminsə birmənalı qaydada qorumalı olduğuna dair cəfəngiyyat hakimdir. Sanki dünya ermənilərə borclu imiş. Amma Rusiyanın Ermənistanı tam aşkar himayəyə götürdüyü dövrü xatırlayırıq. Hayların Qarabağ avantürasının mövcudluğu dövrünü. Görünən budur ki, həmin zaman kəsiyinin dadı kimlərinsə damağındadır... Nə isə Ermənistanda İranın gələcəyinə dair proqnozlar da verilir və bu zaman iki məqamın üzərində dayanılır. Birincisi, ABŞ və İsrailin İran kampaniyasının tənəzzülə uğraması fonunda Birləşmiş Ştatlarda Tramp hakimiyyətinin devrilməsi. İddia olunur ki, bunun nəticəsində Vaşinqtonun Cənubi Qafqazdakı fəallığı sıfırlanacaq və beləliklə, Azərbaycan–Ermənistan sülh prosesi əhəmiyyətini itirəcək və bu ssenari İrəvan üçün müsbətdir... İkincisi, Birləşmiş Ştatlar İran platformasında uğur qazanacaq, nəticədə, İrandakı azərbaycanlı faktoru güclənəcək ki, durumun ağırlığı Ermənistanı tam iflasa sürükləyəcək. Aydındır ki, xüsusən ikinci tezis mahiyyət etibarilə Rusiyaya sığınmağın ən doğru qərar olduğunu aşılamaq məramına söykənir. O Rusiyaya ki, hazırda Ukraynada müharibə aparır və onun Yaxın Şərqdə yaşananlara heç bir müdaxiləsi yoxdur.

Bildirdiklərimiz fonunda sonda əvvəldəki ritorik sualımıza doğru yön alaq və vurğulayaq ki, Ermənistanda İran mövzusu ətrafında gedən diskussiyaların ana xəttini ölkənin hazırkı hakimiyyətinin bacarıqsızlığı və səriştəsizliyi ideyası təşkil edir. Əlbəttə, Paşinyan administrasiyasına, belə demək mümkünsə, bu damğa yapışır. Çünki onun səhvləri az deyil. Ancaq hesab edirik ki, sırf indiki durumda rəsmi İrəvan ən doğru olanı edir. Söhbət qutab və qarğıdalı yeməkdən gedir. Axı rəsmi İrəvan başqa nə edə bilər? Əlbəttə ki, heç nə.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**"Qoca qitə"nin xəritəsinə diqqətlə baxdıqda, heç nə dəyişməyib kimi görünür. Lakin daxildəki vəziyyət üçün eynisini deyə bilmərik. Çünki etimad məsələsi son illər Avropada sürətlə aşınan anlayışa çevrilib. Məhz bu kontekstdə Avropa İttifaqının (Aİ) qarşısında duran əsas problem xarici təhdidlərdən daha çox daxildə dərinləşən struktur uyğunsuzluqlar və siyasi koordinasiya böhranıdır.**

# Aİ-də daxili çatlar böyüyür

## *Etimad böhranı üzvlər arasında gərginlik yaradır*



Mövcud dinamikanın mərkəzində isə Almaniya dayanır. "Soyuq müharibə"dən sonrakı mərhələdə iqtisadi gücünü siyasi ehtiyatla balanslaşdıran Berlin uzun müddət inteqrasiyanın mühərriki kimi qəbul olunurdu. Lakin son illər Almaniyanın təhlükəsizlik və müdafiə siyasətində müşahidə olunan dönüş İttifaq daxilində yeni müzakirə xətti formalaşdırıb. Müdafiə xərclərinin əhəmiyyətli şəkildə artırılması, borclanma məhdudiyyətlərinin yumşaldılması və ordunun modernləşdirilməsi ilə bağlı qərarlar Almaniyanın geosiyasi çəkisini artırmaq məqsədi daşıyır. Berlin bu kursu Avropanın təhlükəsizlik mühitinin kəskin dəyişməsi ilə əsaslandırır. Lakin digər paytaxtlarda məsələ, sadəcə, təhlükəsizlik arqumenti çərçivəsində qiymətləndirilmir. XX əsrin siyasi travmaları kollektiv yaddaşlarda qalmaqda davam edir və Almaniyanın sürətli remilitarizasiyası xüsusilə Mərkəzi və Qərbi Avropada ehtiyatlı reaksiyalar doğurur.

Nəzərə alsaq ki, Avropaya inteqrasiya məhz milli güclərin qarşılıqlı nəzarət və asılılıq mexanizmləri vasitəsilə balanslaşdırılması üzərində qurulmuşdu, Almaniyanın nisbi üstünlüyünün artması həmin mexanizmlərin gələcək effektivliyi barədə suallar yaradır. Maraqlıdır, Almaniyanın güclənməsi Avropanın kollektiv gücünün artımı deməkdirmi, yoxsa asimmetrik liderliyin dərinləşməsi İttifaq daxilində siyasi narazılıqları artıracaq?

İttifaq daxilində fikir ayrılıqlarının daha açıq forması Şərqi Avropa istiqamətində müşahidə olunur. Macarıstanın Baş naziri Viktor Orbanın Aİ-nin Rusiya ilə bağlı yeni sanksiya paketlərini bloklaması Brüsseldə və Berlində sərt reaksiyalara səbəb oldu. Avropa Komissiyası və üzv ölkələrin bəzi nümayəndələri Budapeştə qarşı institusional təzyiq alətlərinin işə salınmasını müzakirə etməyə başladılar. Amma məsələnin mahiyyəti konkret sanksiya paketində deyil, qərar qəbuletmə mexanizmlərindədir. Çünki Aİ konsensus və ya geniş razılaşma prinsipi üzərində qurulub. Lakin üzv dövlətlərdən biri fərqli mövqe sərgilədikdə, dialoq yerini sanksiya ritorikasına verirsə, institusional modelin gələcəyi ilə bağlı suallar yaranır. Plüralizm və milli maraqların nəzərə alınması prinsipinin hansı həddə qədər legitim sayıldığı da naməlum qalır. Macarıstanın enerji təhlükəsizliyi ilə bağlı arqumentləri də müzakirənin ayrılmaz hissəsidir. Dənizə çıxışı olmayan ölkə üçün alternativ enerji marşrutlarının məhdudluğu real iqtisadi çətinlik yaradır. Bu baxımdan, Budapeştin mövqeyi struktur xarakter daşıyır. Lakin Brüsselin reaksiyası kompromis axtarışından daha çox intizam mexanizmlərinin tətbiqinə yönəldikdə, qarşılıqlı etimad daha da zəifləyir.

Avropa inteqrasiyasının simvollarından biri sərhədsiz hərəkət prinsipidir. Şengen razılaşması uzun illər "Avropa evi" ideyasının həyatda konkret təzahürü kimi təqdim olunurdu. Lakin miqrasiya axınları və təhlükəsizlik narahatlıqları fonunda Almaniyanın daxili sərhədlərdə nəzarəti bərpa etməsi presedent xarakteri daşıyır. Rəsmi arqumentlər təhlükəsizlik və ictimai sabitliklə bağlıdır. Ancaq siyasi mesaj daha geniş yozulur. Daha dəqiq desək, üzv dövlətlər zəruri hesab etdikdə ümumi qaydaları prioritetlərə tabe edə bilərlər. Bu tendensiya domino effekti yaradır və digər ölkələr də oxşar addımlar atmağa başlayırlar. Nəticədə, kağız üzərində qüvvədə qalan azad hərəkət prinsipi praktikada selektiv tətbiq olunan mexanizmə çevrilir. Proses inteqrasiyanın geri dönüşü olmayan nailiyyətləri barədə təsəvvürü də zəifledir. Çünki hüquqi mexanizmlərin müvəqqəti dayandırılması tez-tez təkrarlanarsa, onlar normaya çevrilə bilər.

Avropa inteqrasiyasının tarixi boyu Fransa–Almaniya tandemi əsas istiqamətləndirici rol oynayıb. Bu xətt üzərindəki koordinasiya zəiflədikdə İttifaqın strateji gələcəyi sual altına düşür. Son illər müdafiə sənayesi sahəsində fikir ayrılıqları mövcud uyğunsuzluğu daha görünən edib. Xüsusilə yeni nəsil döyüş təyyarəsi layihəsi çərçivəsində Berlinlə Paris arasında yaranan ziddiyyətlər diqqət çəkir. Bundan öncə Almaniyanın ABŞ istehsalı olan "F-35 Lightning II" platformasına üstünlük verməsi Fransada narazılıqla qarşılandı. Çünki Paris uzun müddətdir Avropanın strateji muxtariyyətini müdafiə edir və müdafiə sənayesində daxili kooperasiyanın dərinləşdirilməsini prioritet hesab edir. Bu xəttin əsas siyasi simalarından biri Emmanuel Makrondur. O, dəfələrlə Avropanın təhlükəsizlik məsələlərində daha müstəqil davranmasının vacibliyini vurğulayıb. Lakin real siyasətdə trans-Atlantik asılılıq hələ də mühüm yer tutur. Almaniyanın seçimləri göstərir ki, təhlükəsizlik arxitekturasında NATO çərçivəsi prioritet olaraq qalır. Bu isə Avropa müdafiə inteqrasiyasının dərinləşdirilməsi ideyasını zəifledir və Paris–Berlin xəttində strateji baxış fərqini artırır.

Mövcud proseslər vizual dəyişikliklərlə müşayiət olunmur. Avropa paytaxtlarında fövqəladə vəziyyət elan edilməyib, institutlar fəaliyyətini davam etdirirlər. Lakin struktur səviyyədə səssiz transformasiya baş verir. Aİ-nin əsas dayağı olan qarşılıqlı etimad zəiflədikcə, institusional konstruksiya daha həssas hala gəlir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Məlumdur ki, Rusiyanın Ukraynaya müdaxiləsindən sonra Almaniyanın təhlükəsizlik siyasətində dönüş nöqtəsi yaşandı. Kansler Olaf Şoltsun elan etdiyi "Zamanın dönüşü" konsepsiyası ilə Berlin müdafiə xərclərini artırdı, ordunun modernləşdirilməsinə milyardlarla avro ayırdı və Avropada təhlükəsizlik arxitekturasında daha aktiv rol almağa başladı. Tarixi səbəblərə görə uzun illər hərbi baxımdan ehtiyatlı davranan Almaniyanın bu sürətli transformasiyası bəzi üzv ölkələrdə Aİ daxilində liderlik balansının dəyişməsi ilə bağlı suallar doğurmağa başladı. Lakin nəzərə almaq lazımdır ki, Almaniyanın artan rolu fərdi ambisiyadan çox struktur təhlükəsizlik boşluğunun nəticəsi idi. ABŞ-ın Avropadakı nisbi çəkisinin azalması və regional təhlükələrin artması Berlinin daha məsuliyyətli mövqe tutmasını zəruri edirdi.

Digər tərəfdə isə Macarıstanın Baş naziri Viktor Orbanın Aİ-nin bəzi qərarlarına veto qoyması və ya gecikdirməsi institusional gərginliyi artırır. Sanksiyalar, miqrasiya siyasəti və hüququn aliliyi məsələlərində Budapeşt Brüssellə tez-tez kəllə-kəlləyə gəlir. Burada iki əsas səbəbi qeyd etməliyik. Birincisi, konsensus mexanizmindan sui-istifadə riski, ikincisi isə siyasi dəyərlər ilə milli suverenlik arasında tarazlığın pozulması. Bu cür gərginliklər və etinadsızlıq mühitində parçalanma riski ortaya çıxsa da qısa müddətdə tam institusional dağılma ehtimalı zəif görünür. Aİ dərin iqtisadi inteqrasiyaya malikdir, vahid bazar, avro zonası və hüquqi çərçivə üzv dövlətləri bir-birinə ciddi şəkildə bağlayır. Brexit təcrübəsi göstərdi ki, İttifaqdan ayrılma yüksək iqtisadi və siyasi xərc yaradır.

Fikrimizcə, institusional etimadı qorumaq üçün bir neçə mexanizm effektiv ola bilər. Birincisi, səsvermə prosedurları ilə bağlı islahatların həyata keçirilməsidir. Xarici siyasət və təhlükəsizlik məsələlərində yekdillik, yəni konsensus prinsipindən mərhələli şəkildə ixtisaslaşdırılmış səs çoxluğuna keçid bloklanma riskini azalda bilər. İkincisi, maliyyə alətlərinin şərtləndirilməsi mexanizmidir. Yəni Aİ fondlarının hüququn aliliyi standartlarına bağlanmasıdır. Bu addım normativ çərçivəni gücləndirə bilər. Daha bir vacib addım siyasi dialoqun institusional platformalarda daha sistemli və erkən mərhələdə aparılmasıdır.

# İrəvanda ehtiyatlı seçki hazırlığı

*(əvvəli 1-ci səhifədə)*



Bu baxımdan baş nazir Nikol Paşinyanın "Rusiyaya zərər vermək istəmirik" bəyanatı və xarici işlər naziri Ararat Mirzoyanın, "ABŞ və ya Aİ ilə münasibətləri dərinləşdirəndə Rusiyanı sıxışdırmaq üçün gizli bir məqsəd, bir gündəm axtarmağa ehtiyac yoxdur" açıqlaması təsadüfi xarakter daşımır. Bu ritorika, əslində, ölkənin iqtisadi və demoqrafik reallıqlarından doğan strateji ehtiyatlılıq nümunəsidir. Mövcud iqtidar dərk edir ki, Rusiyadakı erməni faktoru həm daxili ictimai rəy, həm də səsvermənin yekun nəticələri üçün həlledici təsir vasitəsidir. Çünki müxtəlif hesablamalara görə, hazırda Rusiya Federasiyası ərazisində 2,5 milyondan 3 milyona qədər erməni yaşayır ki, bu rəqəm Ermənistanın özünün daxili əhalisi ilə müqayisə oluna bilər. Belə bir diaspor potensialı hakimiyyət üçün həm siyasi legitimlik, həm də iqtisadi dayanıqlılıq baxımından önəmlidir.

Lakin məsələnin mahiyyəti təkcə statistik rəqəmlərin böyüklüyündə deyil, həm də bu təsirin hüquqi və praktiki icra mexanizmlərindədir. Rusiyada yaşayan ermənilərin hamısının Ermənistan vətəndaşı olmaması və onların seçki prosesinə mütəşəkkil şəkildə cəlb edilməsinin texniki çətinlikləri təsirin miqyasını müəyyən qədər məhdudlaşdırır, lakin onu tamamilə sıradan çıxarmır. Ermənistanın seçki coğrafiyasına və xaricdəki səsvermə ənənələrinə nəzər saldıqda maraqlı fakt ortaya çıxır. Məsələn, Moldovadan fərqli olaraq, Ermənistanın Avropa ölkələrində geniş seçki məntəqələri şəbəkəsi mövcud deyil. Bu reallıq rəsmi İrəvanın Qərbdəki elektoratdan əlavə dəstək toplamaq imkanlarını daraldır və siyasi diqqəti yenidən Rusiya istiqamətinə yönəltməyə məcbur edir. Rusiyada fəaliyyət göstərən seçki məntəqələrinin sayı, oradakı erməni icmasının ənənəvi təşkilatlanma səviyyəsi və maliyyə imkanları seçkilərin nəticəsinə təsir edə biləcək hüquqi-siyasi prosedur gücünə malikdir.

Ermənistanın Avrasiya İqtisadi İttifaqı (AİI) çərçivəsindəki fəallığı, regional iqtisadi layihələrdə iştirakı və "Strategiya-2025" kimi sənədlərin icrasına sadiqliyi göstərir ki, siyasi ritorika nə qədər kəskin olsa da, iqtisadiyyatın dili real asılılıqlar üzərində qurulub. Ermənistan bu gün Rusiya bazarından, ucuz enerji resurslarından və oradakı işçi qüvvəsinin gətirdiyi dividendlərdən imtina etmək imkanına sahib deyil. Deməli, bu balansın pozulması həm iqtisadi, həm də sosial baxımdan Ermənistan üçün ciddi risklər daşıyır. Bu reallıq onu sübut edir ki, Ermənistan hələ də Avrasiya iqtisadi məkanının ayrılmaz bir parçasıdır. Bu nöqtədə diaspor faktoru həm hədəf, həm də vasitə kimi aktuallaşır.

İrəvanın ehtiyatlı, bəzən isə ziddiyyətli siyasəti beynəlxalq təşkilatlar səviyyəsində də özünü göstərir. BMT Baş Assambleyasında müxtəlif qətnamələrin qəbulu zamanı Ermənistan nümayəndə heyətinin nümayiş etdirdiyi "bitərəf" mövqe, əslində, tam qarşıdurma xəttinə keçməyin fəsadlarını öncədən hesablamaq cəhdidir. Paşinyan hökuməti anlayır ki, körpüləri tamamilə yandırmaq daxili auditoriyanı parçalaya və iqtisadi böhrana səbəb olar. Bu da indiki şəraitdə iqtidarın maraqlarına xidmət etmir. Çünki bu ölkənin parlamentinin vitse-spikeri Ruben Rubinyanın son açıqlamaları hakim komandanın iyun seçkilərinə yanaşmasını tam çılpaqlığı ilə ortaya qoyub. Rubinyan açıq şəkildə bildirib ki, "Mülki müqavilə" partiyası parlamentdə yenidən konstitusion çoxluq əldə etməyi hədəfləyib. Onun sözlərinə görə, hakimiyyətin qarşısında duran əsas vəzifə sabiq prezident Robert Koçaryanın, eləcə də Rusiyada və Ermənistanda böyük biznes şəbəkəsinə malik Samvel Karapetyan və Qaqik Tsarukyan kimi fiqurların siyasi səhnədə dominantlıq qazanmasının qarşısını almaqdır.

Bu kontekstdə Rusiyadakı erməni diasporu həm hədəf, həm də vasitə kimi aktuallaşır, çünki həmin "oliqarxik" qüvvələrin ən böyük bazası məhz Moskva ilə sıx bağlı olan dairələrdir. Rubinyan həm də müxalif qüvvələrin birləşə biləcəyi ehtimalından narahatlığını ifadə edib və seçicilərin şüurlu seçim etməsinin vacibliyini vurğulayıb. Göründüyü kimi, müxalifətin əsas dayağı Rusiya ilə sıx bağlıdır. Rusiyada yaşayan erməni icması daxilində ənənəvi dəyərlərə sadiqlik və Moskva ilə hərbi-strateji ittifaqın bərpası ideyaları hələ də kifayət qədər güclüdür. Əgər bu kütləvi elektorat vahid və mütəşəkkil bir mövqedən çıxış edərək seçkilərə qatılarsa, bu, hazırkı iqtidar üçün ciddi legitimlik problemi yaradar.

Lakin diasporun daxili strukturu Ermənistanın özü kimi parçalanmış haldadır. Burada həm Paşinyan ideyalarına inananlar, həm də radikal müxalifət mövcuddur. Dünya təcrübəsində olduğu kimi, Ermənistanda da seçki fəallığı ənənəvi olaraq ölkə xaricində aşağı olur. Üçüncüsü, Ermənistanın mövcud seçki sistemi və xaricdə səsvermə mexanizmləri xaricdə yaşayan seçicilərin iradəsinin real nəticəyə çevrilməsini müəyyən dərəcədə çətinləşdirir, onun təsir imkanlarını məhdudlaşdırır. Bu, diasporun seçkinin nəticəsinə birbaşa təsirini azaltsa da, daxili auditoriya üzərindəki psixoloji basqını saxlayır. Ona görə də əsas mübarizə Ermənistanın öz ərazisində gedəcək. İqtidar qələbəni, ilk növbədə, ölkə daxilində əldə etməlidir ki, Rusiyadakı səslərə o qədər də ehtiyac yaranmasın. Əgər seçki mübarizəsi proqnozlaşdırıldığı kimi kəskin keçərsə və hakimiyyətlə müxalifət arasındakı səs fərqi minimal olarsa, Rusiyadan gələn hər bir səs tərəzinin həlledici daşına çevriləcək.



Mövzu ilə bağlı XQ-yə danışan **siyasi icmalçı Cəsarət Hüseynzadə** bildirdi ki, Ermənistan–Rusiya münasibətlərində "tam olmayan məsafələşmə" seçkiqabağı siyasi taktikanın tərkib hissəsidir: "Rəsmi İrəvan bir tərəfdən Qərblə təhlükəsizlik və siyasi əməkdaşlığı genişləndirir, digər tərəfdən isə Moskva ilə iqtisadi və institusional əlaqələri qoruyur. Bu balansın əsas səbəblərindən biri Rusiyada yaşayan çoxsaylı erməni diasporunun mövcudluğudur. Hazırkı mərhələdə əsas həlledici amil Ermənistan daxilində sosial-iqtisadi vəziyyət, hakimiyyətin reytinqi və müxalifətin təşkilatlanma səviyyəsidir. Diaspor faktoru daha çox siyasi və psixoloji təsir elementi kimi çıxış edir və İrəvanın Moskva ilə münasibətlərdə kəskin addımlardan çəkinməsinə səbəb olan mühüm, lakin dolayı amildir. Azərbaycan üçün bu kontekstdə əsas maraq odur ki, Ermənistanın həm Qərbə yaxınlaşma cəhdləri, həm də Rusiyaya bağlılığı regional sabitliyi pozmasın, eyni zamanda, Bakı ilə strateji mövqelər arasında balans qorunsun".

Beləliklə, Ermənistan–Rusiya münasibətlərindəki indiki mərhələ "məcburi tərəfdaşlıq" və "strateji qeyri-müəyyənlik" dövrüdür. İrəvan nə Moskva ilə əlaqələri birdəfəlik kəsmək iradəsinə sahibdir, nə də əvvəlki tam asılılıq modelində qalmaq istəyir. Bu tərəddüdlər iyun seçkilərinə qədər davam edəcək, əsas xətt olaraq qalacaqdır. Rusiyadakı erməni seçicilərin təsiri isə hələlik "gizli potensial" statusundadır ki, onun real gücü yalnız səsvermə prosesinin gedişatında bəlli olacaqdır. İyun seçkilərinin nəticələri Ermənistanın gələcək illər üçün geosiyasi istiqamətini və regional təhlükəsizlik arxitekturasındakı yerini birdəfəlik müəyyən edəcək.

***P.ƏFƏNDİYEV***
***XQ***

# AYİB-in Gəncə və Şəkinin su təchizatının yenilənməsinə maliyyə dəstəyi

**Azərbaycanın sosial-iqtisadi inkişaf gündəliyində su və şəhər infrastrukturu prioritet istiqamətlərdən biri kimi xüsusi yer tutur. Bu kontekstdə Maliyyə Nazirliyində Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı Daimi Nümayəndəliyinin rəhbəri Natali Mouravidzenin başçılıq etdiyi nümayəndə heyəti ilə keçirilən görüş strateji məzmunu ilə diqqət çəkib.**



Görüş çərçivəsində imzalanması nəzərdə tutulan layihələrin icra vəziyyəti, eləcə də su təchizatı və şəhər infrastrukturunun modernləşdirilməsi istiqamətində prioritet məsələlər geniş müzakirə olunub. Maliyyə nazirinin birinci müavini Anar Kərimov vurğulayıb ki, özəl sektorun gücləndirilməsi, şəhər təsərrüfatının dayanıqlı əsaslarla yenilənməsi, ekoloji tarazlığın qorunması və kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində AYİB Azərbaycanın əsas beynəlxalq maliyyə tərəfdaşlarından biridir. Onun sözlərinə görə, icra edilən layihələr strateji xarakter daşıyır və mərhələli şəkildə, fiskal dayanıqlılıq prinsipləri əsas götürülərək reallaşdırılır.

Xüsusilə Gəncə və Şəki şəhərlərində həyata keçirilən su və kanalizasiya layihələri artıq real nəticələr verməkdədir. Bu təşəbbüslər yalnız infrastrukturun yenilənməsi ilə məhdudlaşmır. Eyni zamanda, şəhərlərdə ekoloji standartların yüksəldilməsi, su itkilərinin azaldılması, enerjidən səmərəli istifadə və kommunal xidmətlərin idarəetməsində müasir yanaşmaların tətbiqi təmin olunur. Regionlarda dayanıqlı şəhər mühitinin formalaşdırılması istiqamətində atılan addımlar vətəndaşların həyat keyfiyyətinə birbaşa təsir göstərir.

Natali Mouravidze isə öz çıxışında Azərbaycanın AYİB üçün etibarlı və uzunmüddətli tərəfdaş olduğunu bildirib. O qeyd edib ki, Bank üçün əsas prioritetlərdən biri su və şəhər infrastrukturu sahəsində layihələrin icrasını sürətləndirmək, maliyyələşmə mexanizmlərini daha çevik və səmərəli strukturlaşdırmaqdır. Eyni zamanda, yaşıl keçid, iqlim maliyyələşməsi və texniki dəstək alətlərinin genişləndirilməsi əməkdaşlığın əsas istiqamətləri kimi müəyyənləşdirilib.

Qeyd edək ki, Gəncə ilə bağlı Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən təqdim olunan rəsmi layihə məlumatları göstərir ki, infrastruktur problemlərinin sistemli şəkildə həlli üçün mərhələli və uzunmüddətli investisiya modeli tətbiq edilir. 22 yanvar 2025-ci il tarixində 35 milyon avroya qədər məbləğdə suveren kredit üzrə I mərhələ imzalanıb. Bu mərhələ Gəncədə su təchizatı və kanalizasiya sisteminin yenilənməsi istiqamətində ilkin və fundamental islahatları əhatə edir. Məqsəd mövcud şəbəkələrin dayanıqlılığını artırmaq, itkiləri azaltmaq və xidmət keyfiyyətini yüksəltməkdir.

Növbəti mərhələ isə miqyasına görə daha geniş və strateji xarakter daşıyır. 120 milyon avroya qədər maliyyələşməni nəzərdə tutan II mərhələ çərçivəsində 400 min nəfər əhali ekvivalenti gücündə yeni tullantı su təmizləyici qurğunun inşası planlaşdırılır. Bununla yanaşı, su təchizatı, kanalizasiya və yağış sularının idarə olunması sistemləri üzrə əlaqəli şəbəkələrin qurulması və modernləşdirilməsi də bu paketə daxildir. Bu yanaşma şəhərin ekoloji təhlükəsizliyinin təmin olunmasına, ətraf mühitə düşən yükün azaldılmasına və urbanizasiya prosesinin daha sağlam əsaslarla idarə edilməsinə xidmət edir.

Layihənin miqyası təkcə iki mərhələ ilə məhdudlaşmır. Hər iki mərhələ ümumi dəyəri 410 milyon avro həcmində qiymətləndirilən geniş Prioritet İnvestisiya Proqramının tərkib hissəsidir. Bu isə o deməkdir ki, Gəncə üçün nəzərdə tutulan infrastruktur yenilənməsi qısamüddətli layihə deyil, uzunmüddətli strateji proqram çərçivəsində reallaşdırılır.

Mövcud məlumatlara əsasən, II mərhələnin 2026-cı ilin may ayında imzalanması gözlənilir. Bu baş verdiyi təqdirdə, Gəncə regionunda su və tullantı su idarəçiliyi sahəsində yeni keyfiyyət mərhələsi başlayacaq və şəhər müasir, ekoloji cəhətdən davamlı infrastruktur modelinə bir addım daha yaxınlaşacaq.

Şəki şəhəri də su və kanalizasiya infrastrukturunun yenilənməsi baxımından genişmiqyaslı transformasiya mərhələsinə hazırlaşır. Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən şəhər və ətraf kəndlərə xidmət göstərən tullantı su təmizləyici qurğuda su təchizatı, kanalizasiya və yağış sularının idarə olunması şəbəkələrinin, eləcə də bioloji təmizləmə bloklarının tikintisini dəstəkləmək məqsədilə 91 milyon avroya qədər suveren kredit nəzərdə tutulur.

Qeyd edək ki, layihənin maliyyə strukturu mərhələli şəkildə formalaşdırılıb: 57 milyon avro ilkin imzalanma zamanı ayrılacaq, qalan 34 milyon avro isə növbəti mərhələdə təqdim ediləcək. Ümumi layihə dəyəri 95 milyon avro həcmində qiymətləndirilir. Bundan əlavə, Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit Tərəfdaşlığı Fondu tərəfindən 4 milyon avroya qədər investisiya qrantı ilə birgə maliyyələşmə mexanizmi də tətbiq olunacaq. Fondun 14 noyabr 2025-ci il tarixli açıqlamasında Şəkinin mövcud sosial ehtiyacları da konkret rəqəmlərlə təqdim olunur.

Beləliklə, Şəki üzrə planlaşdırılan bu təşəbbüs həm də ictimai sağlamlıq, ekoloji təhlükəsizlik və regionun dayanıqlı inkişafı baxımından strateji əhəmiyyət daşıyan kompleks proqram kimi qiymətləndirilir.

Beləliklə, Azərbaycan ilə AYİB arasında əməkdaşlıq həm də institusional inkişaf, yaşıl iqtisadiyyat və müasir şəhər idarəçiliyi konsepsiyasının təşviqi baxımından strateji tərəfdaşlıq modelinə çevrilməkdədir. Bu tərəfdaşlıq ölkənin dayanıqlı inkişaf yolunda mühüm dayaqlardan biri kimi çıxış edir.

***Nurlan ABDALOV***
***XQ***

# “Prezident Heydər Əliyev” tankeri Xəzərə qayıdıb




**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) “Prezident Heydər Əliyev” tankerinin əsaslı təmiri başa çatıb. Bu barədə XQ-yə qurumdan verilən xəbərdə bildirilib ki, “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan təmir işləri çərçivəsində gəminin baş və köməkçi mühərrikləri, boru sistemləri, mexanizmləri təmir edilib.**

Tanker üzrə elektrik-quraşdırma və avtomatika, eləcə də gövdə-qaynaq işləri yerinə yetirilib. Bununla yanaşı, rabitə və elektroradionaviqasiya sahəsinə aid müasir, yeni 1 dəst radar və TV sistemi quraşdırılıb, gəmidə olan girokompas avadanlığına aid yeni girosfera quraşdırılıb və təmir bərpa işləri aparılıb.

Tankerin heyətinə məxsus yaşayış otaqları, sanitar qovşaqlar və yeməkxanalar yenilənib. Təmir zamanı tankerin sualtı və suüstü hissələri və göyərtəsi təmizlənərək rənglənib. İşlər başa çatdıqdan sonra tanker dəniz sınaq yoxlanışından keçib. Gəminin təmirdən sonra ilk səfəri isə Aktau-Səngəçal istiqamətində olub.

Xatırladaq ki, “Prezident Heydər Əliyev” gəmisinin uzunluğu 149,9, eni 17,3 metrdir. Tankerin tam yükgötürmə qabiliyyəti 13,8 min tondur.

***XQ***

# Soydaşımız bp-də yüksək vəzifədə

**Azərbaycanda iri neft-qaz hasilatı və ixracı layihələrinin operatoru bp şirkəti ölkədə kadr potensialının gücləndirilməsinə də mühüm töhfələr verir. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda şirkətin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edir.**



Bu günlərdə isə daha bir azərbaycanlı mütəxəssis bp şirkətində yüksək vəzifəyə təyinat alıb. Bu, uzun müddət şirkətdə çalışan Nadir İmanovdur. O, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üçün maliyyə məsələləri üzrə vitse-prezidenti vəzifəsinə təyin edilib. N.İmanov bu vəzifədə bp-nin Azərbaycanda yerli vətəndaş olan 7-ci vitse-prezidenti kimi Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional rəhbər heyətinin üzvü olacaq.

Hazırda şirkətin Yaxın Şərq və Şimali Afrikada maliyyə üzrə vitse-prezident kimi fəaliyyət göstərən N.İmanov bu il aprelin 1-dən yeni vəzifəsinin icrasına başlayacaq. O, bp-nin London ofisindəki hasilat və əməliyyatlar sahəsində maliyyə məsələləri üzrə baş vitse-prezidentinin rəhbərliyi altında çalışacaq.

Xatırladaq ki, 30 ildən artıq planlaşdırma və kommersiya sahəsində təcrübəsi olan Nadir İmanov bp əməkdaşı kimi Azərbaycan, Türkiyə, Misir və Omanda çalışmaqla həmin ölkələrdə böyük komandalara və iri biznes sahələrinə rəhbərlik edib.

***XQ***

# Azərbaycanda rəqəmsal keçidin yeni mərhələsi

**Prezident İlham Əliyevin sərəncamı ilə “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı” təsdiq edilib. Bu plan rəqəmsal texnologiyaların müasir iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olduğu və qlobal rəqabətin kəskinləşdiyi bir dövrdə rəqəmsal inkişafın strateji əhəmiyyəti nəzərə alınaraq hazırlanıb.**



Sənəddə qeyd olunur ki, son illərdə Azərbaycan Respublikasında rəqəmsal inkişaf üçün əhəmiyyətli hüquqi və texnoloji baza yaradılıb. “Hökumət buludu”nun istifadəyə verilməsi, “SİMA” biometrik rəqəmsal imzanın uğurlu tətbiqi (4 milyondan artıq istifadəçi) və infrastrukturun inkişafı nəticəsində Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Elektron Hökumətin İnkişafı İndeksində 2024-cü ildə 9 pillə irəliləyərək 74-cü yerə yüksəlib və “çox yüksək inkişaf etmiş ölkələr” kateqoriyasına daxil olub.

Bildirilir ki, lakin innovasiya əsaslı iqtisadiyyata keçid prosesində başlıca tələblərə əməl etmək zərurəti qalmaqdadır. Qlobal İnnovasiya İndeksində Azərbaycan 94-cü yerdə mövqe tutur. İnnovasiyalar insan kapitalı, tənzimləyici mühit, elmi potensial və dayanıqlı maliyyələşmənin qarşılıqlı vəhdətinə əsaslanan milli ekosistemdə formalaşır.

Bu sahədə əsas maneələr sırasında məlumat idarəçiliyindəki çatışmazlıqlar və məlumat keyfiyyəti problemləri, vençur kapitalı və kraudfandinq kimi innovativ maliyyə alətlərinin hüquqi bazasının olmaması, süni intellektin (Sİ) inkişafı – suveren süni intellekt üçün kritik olan hesablama infrastrukturunun yetərsizliyi, ixtisaslı kadr çatışmazlığı və artan kibertəhlükəsizlik riskləri xüsusi qeyd edilməlidir.

Fəaliyyət planına əsasən, 2026–2028-ci illərdə “vahid məlumat idarəçiliyi” yanaşmasının tətbiqi və məlumatların dövlət orqanları tərəfindən alınmasında “yalnız bir dəfə” prinsipinin reallaşdırılması nəzərdə tutulur. Eyni zamanda, proaktiv dövlət xidmətlərinə keçid təmin ediləcək və bütün xidmətlər “MyGov” və “MyGov Biznes” platformalarının (portal və mobil tətbiqlər) üzərindən göstəriləcək.

Bu dövrdə vençur maliyyələşməsi və kraudfandinq münasibətlərinin hüquqi tənzimlənməsi, “mələk investorlar” institutunun təşviqi, texnoparklarda rezidentlik şərtlərinin sadələşdirilməsi və yerli innovativ məhsulların dövlət satınalmalarında dəstəklənməsi planlaşdırılır. Qlobal istedadların cəlbi məqsədilə “rəqəmsal səyyah” vizasının tətbiqi, müstəqil mütəxəssislərin hüquqi statusunun müəyyənləşdirilməsi və miqrasiya prosedurlarının sadələşdirilməsi də nəzərdə tutulur.

Bununla yanaşı, İKT, süni intellekt və informasiya təhlükəsizliyi sahələrində mütəxəssislərin bilik və bacarıqlarının artırılması, dövlət informasiya ehtiyatları və sistemlərinin “Hökumət buludu”na tam miqrasiyası, maliyyə xidmətlərinin rəqəmsallaşdırılması həyata keçiriləcək. Elektron ticarət və informasiya təhlükəsizliyi üzrə normativ-hüquqi aktların da tam yenilənməsi planlaşdırılır.

Qeyd edək ki, fəaliyyət planının icrası nəticəsində bir sıra hədəflərə nail olunması da təsbit edilir. Sənəd çərçivəsində Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsi və müasir texnologiyaların tətbiqi üçün əlverişli mühitin formalaşdırılması əsas prioritetlər kimi müəyyən edilib.

Bununla yanaşı, proaktiv qaydada göstərilən dövlət elektron xidmətlərinin payının 50 faizə çatdırılması planlaşdırılır. İKT sektorunun qeyri-neft-qaz ÜDM-də payının artırılması, rəqəmsal məhsul və xidmətlərin illik ixrac həcminin genişləndirilməsi də əsas hədəflər sırasındadır.

Fəaliyyət planı, eyni zamanda, dövlət idarəetməsinin optimallaşdırılması və rəqəmsallaşdırılması istiqamətində sistemli islahatların həyata keçirilməsini qarşıya qoyur.

Fəaliyyət Planı ölkədə rəqəmsal idarəetmənin genişləndirilməsi və iqtisadiyyatın rəqəmsal transformasiyasının sürətləndirilməsini əsas məqsədlərdən biri kimi müəyyən edir. Sənəd milli innovasiya ekosisteminin gücləndirilməsini, texnoloji sahibkarlığın inkişafını və müasir texnologiyalar sahəsində insan kapitalının formalaşdırılmasını prioritet istiqamət kimi önə çəkir.

Eyni zamanda, istedadların ölkəyə cəlb edilməsi, qabaqcıl texnoloji infrastrukturun qurulması və kibertəhlükəsizliyin təmin olunması planın əsas hədəfləri sırasındadır. Elmi-tədqiqatların təşviqi və əldə olunan nəticələrin kommersiyalaşdırılmasının sürətləndirilməsi də diqqət mərkəzindədir.

Bununla yanaşı, ölkə üzrə rəqəmsal inkişafın vahid arxitektura əsasında həyata keçirilməsi və müasir texnologiyaların istehsalı ilə tətbiqi sahəsində dövlət dəstəyinin artırılması Fəaliyyət Planının strateji istiqamətlərini təşkil edir.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Elvin ABBASOV,**
**Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri**

Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş “2026–2028-ci illər üçün Fəaliyyət Planı” Azərbaycanın rəqəmsal ekosistemini pərakəndə layihələrdən vahid, strateji bir “əməliyyat sistemi”nə keçirir. Ölkəmizdə bu çərçivədə baş verən sürətlənməni şərtləndirən ən mühüm faktor idarəetmə modelinin ən yüksək səviyyədə mərkəzləşməsidir. Rəqəmsal İnkişaf Şurasının yaradılması və onun Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyinə verilməsi rəqəmsallaşmanı sadəcə texniki bir iş olmaqdan çıxarıb, dövlətin iqtisadi, hüquqi və sosial siyasətinin nüvəsinə yerləşdirib. Bu, bürokratik maneələrin aradan qalxmasına və qərarların operativ icrasına birbaşa təsir edən əsas mühərrikdir.

Mövcud bazanın formalaşdırılması üçün tələb olunan fundamental şərtlərdən biri infrastrukturun hazırlığı idi ki, bu məsələ artıq öz həllini tapıb. Ölkənin ən ucqar nöqtələrinə qədər çəkilmiş GPON (optik internet) şəbəkəsi rəqəmsal sürətlənmənin fiziki təməlini təşkil edir. Bu infrastruktur bazası generativ süni intellekt, böyük verilənlər (Big Data) və bulud texnologiyalarının (Cloud computing) effektiv tətbiqi üçün zəruri olan yüksək sürətli məlumat ötürülməsini təmin edir. İnfrastruktur bəhanəsinin ortadan qalxması dövlət xidmətlərinin rəqəmsallaşdırılmasında bütün regionlar üçün bərabər imkanlar yaradır.

Sürətlənməni şərtləndirən digər mühüm baza rəqəmsal mühitdə hüquqi və etik təhlükəsizlik çərçivəsinin qurulmasıdır. Xüsusilə uşaqların rəqəmsal mühitdə qorunması ilə bağlı son sərəncamlar göstərir ki, dövlət artıq interneti nəzarətsiz bir sahə kimi deyil, vətəndaşın hüquq və məsuliyyətinin keçərli olduğu sosial məkan kimi görür. Ofisi olmayan qlobal platformalara qarşı yerli subyektlərin (valideynlər, provayderlər) məsuliyyətinin artırılması rəqəmsal keçid dövründə yarana biləcək xaotik risklərin qarşısını alır. Bu hüquqi baza innovasiyaların “vəhşi” deyil, tənzimlənən və təhlükəsiz bir mühitdə inkişafına zəmanət verir.

Nəhayət, bu sürətlənmənin uğurunu şərtləndirən ən vacib amil insan kapitalı və kurikulumların yenilənməsidir. Fəaliyyət Planı çərçivəsində təhsil proqramlarına rəqəmsal savadlılıq, kibertəhlükəsizlik və süni intellekt mövzularının daxil edilməsi gələcək bazanın intellektual təməlini qoyur. Generativ süni intellektdən istifadə yalnız texniki alətlərin alınması demək deyil. Bu, həm də həmin alətləri idarə edə biləcək mütəxəssis ordusunun və bu xidmətləri qəbul edəcək hazırlıqlı vətəndaş cəmiyyətinin yetişdirilməsini tələb edir. Bu kompleks yanaşma Azərbaycanı qlobal rəqəmsal trendlərin, sadəcə izləyicisi deyil, aktiv iştirakçısı halına gətirir.

# MDB ölkələrinə məhsul ixracı artıb



**Bu ilin yanvar ayında Azərbaycanın xarici ticarət dövriyyəsi 3 milyard 538 milyon ABŞ dolları təşkil edib. Bunun da 2 milyard 235,9 milyon dolları ixracın, 1 milyard 302,2 milyon dolları isə idxalın payına düşüb. Hesabat dövründə ölkəmizin xarici ticarət dövriyyəsində 933,6 milyon dollarlıq müsbət saldo qeydə alınıb.**

İlin ilk ayında Azərbaycan və MDB ölkələri arasında ticarət dövriyyəsinin dəyəri isə 392 milyon 232 min dollar təşkil edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 164 milyon 222,3 min dollar və ya 29,5 faiz azdır. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, hesabat dövründə Azərbaycanın MDB ölkələrinə ixracının dəyəri 4,7 faiz artaraq 125 milyon 713,8 min dollar, idxalının dəyəri isə 40 faiz azalaraq 266 milyon 518,2 min dollar olub. Ümumilikdə isə, yanvarda MDB ölkələrinin Azərbaycanın ümumi ixracında payı 5,6 faiz, idxalında payı isə 20,5 faiz təşkil edib.

Azərbaycandan MDB ölkələrinə əsasən xam neft, neft məhsulları, təbii qaz, müxtəlif növ meyvə-tərəvəz və qida sənayesi malları (pomidor, fındıq, alma, xurma, gilas, nar və kartof, şəkər, meyvə-tərəvəz şirələri və konservləri, çay), sənaye və kimya məhsulları (polietilen, polipropilen, pambıq mahlıcı və ipliyi, sement klinkeri və bentonit gili, alüminium və ondan hazırlanan məmulatlar, polimer məhsullar, eləcə də qara metallar və onlardan hazırlanan məmulatlar ixrac olunub. İxracın strukturunda kənd təsərrüfatı və yüngül sənaye məhsulları üstünlük təşkil edib.

Azərbaycanın MDB ölkələrindən idxal etdiyi mallar isə əsasən qida və kənd təsərrüfatı məhsulları (buğda, bitki yağları, kərə yağı, süd məhsulları, qənnadı məmulatları və şokolad), enerji və yanacaq məhsulları (benzin və dizel), minik və yük avtomobilləri, avtobuslar və müxtəlif mexaniki avadanlıqlar, tikinti və sənaye materialları (qara metallardan çubuqlar və borular, ağac məmulatları, mebel və mineral gübrələr, sənaye avadanlıqları, həmçinin müxtəlif istehlak mallarından (tütün məmulatları, məişət kondisionerləri, paltaryuyan maşınlar və digər elektrik avadanlıqları) ibarət olub.

***XQ***

# Ötən il avtoqəzalara 749 min manat sığorta ödənilib

**“İcbari sığortalar haqqında” Qanuna əsasən Azərbaycan Respublikası ərazisində baş vermiş yol nəqliyyat hadisələri nəticəsində icbari sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallarda sağlamlığına zərər dəyən üçüncü şəxslərə kompensasiya ödənişinin verilməsi İcbari Sığorta Bürosu (İSB) tərəfindən həyata keçirilir.**

2025-ci ildə quruma kompensasiya ödənişləri ilə bağlı 398 müraciət daxil olub. Həmin müraciətlər əsasında 217 şəxsin sağlamlığına vurulmuş müxtəlif dərəcəli xəsarətlərə görə 216 min 342 manat, 10 şəxsin əmək qabiliyyətini tam və ya qismən itirməsinə (əlillik) səbəb olmuş xəsarətlərə görə 28 min manat və 171 şəxsin ölümü ilə nəticələnmiş hadisələr üzrə 504 min 833 manat olmaqla, ümumilikdə, 749 min 175 manat kompensasiya ödənişləri həyata keçirilib.

İSB-dən verilən məlumata əsasən, kompensasiya ödənişi üçüncü şəxsin sağlamlığına naməlum və ya oğurlanmış avtonəqliyyat vasitəsilə zərər vurulduqda avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığorta müqaviləsi mövcud olmayan şəxs (sığortasız) tərəfindən üçüncü şəxsin sağlamlığına zərər vurulduqda və sığorta qanunvericiliyində nəzərdə tutulmuş sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olmadıqda (iflas etmiş sığorta şirkəti) təmin edilir.

***XQ***

*Araşdırma*

# Ağartı bazarında "qara" əməllər

## *"Qaymaqlı şor" – nə qaymaq dadır, nə də şor*

**Son günlər ticarət müəssisələrində "Qaymaqlı şor" adı ilə saxta, keyfiyyətsiz məhsulların satılması barədə yayılan məlumatlar qida təhlükəsizliyi məsələsini yenidən gündəmə gətirib. Ənənəvi milli süd məhsulu olan şorun tərkibinin dəyişdirilməsi, ona bitki yağlarının və müxtəlif kimyəvi qatqıların əlavə olunması yalnız istehlakçı sağlamlığı baxımından deyil, həm də bazar etimadı və istehlakçı hüquqları baxımından ciddi narahatlıq doğurub.**




Mütəxəssislər bildirirlər ki, saxta məhsulların dövriyyəsinin qarşısını almaq üçün həm istehlakçılar daha diqqətli olmalı, həm də dövlət nəzarət mexanizmləri gücləndirilməlidir. Etiket məlumatlarının yoxlanılması, sertifikat mövcudluğunun qorunması və məhsulun etibarlı satış nöqtəsindən alınmasına ilkin təhlükəsizlik addımları olaraq mühüm önəm verilməlidir.

### Halallığa haramlıq necə qatılır?

**Qida mütəxəssisi Eldəniz Cabbarovun** sözlərinə görə, "Caspian Prodakşn Layn" MMC-nin bazara çıxardığı bəzi şor məhsullarının tərkibində təbii şor üçün nəzərdə tutulmayan maddələr nəzərə çarpır. Müəssisə hazırda ticarət müəssisələrində müxtəlif adda ağartı məhsulları satır. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, bəzi məhsulların tərkibində palma yağı və bir sıra qida əlavələri mövcuddur.

Məhsul etiketlərinə əsasən, adıçəkilən MMC-nin istehsal etdiyi "Qonaqkənd şor" və "Şor lavanda" adlı məhsulların tərkibində palma yağı istifadə edilib. Palma yağı texnoloji baxımdan ucuz və dayanıqlı komponent sayılsa da, onun yüksək doymuş yağ tərkibi ürək-damar xəstəlikləri riskini artırması ilə bağlı beynəlxalq səviyyədə həmişə müzakirə mövzusu olub. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) isə doymuş yağların normadan artıq qəbulunun sağlamlıq üçün arzuolunmaz nəticələr doğura biləcəyini dəfələrlə vurğulayıb.

Bundan əlavə, "Şor lavanda" məhsulunun tərkibində quru südün istifadə olunması da diqqət çəkir. Qida mütəxəssisləri bildirirlər ki, ənənəvi şor istehsalında təbii fermentasiya prosesi əsasdır və quru süd qatqısı isə məhsulun təbii xüsusiyyətlərini dəyişdirir. Hər iki məhsulun – "Qonaqkənd şor" və "Şor lavanda"nın tərkibində kalsium xlorid maddəsinin (E509) olması ayrıca müzakirə mövzusudur. E509 qida sənayesində bərkidici və turşuluq tənzimləyicisi kimi tətbiq edilir.

Maddənin müəyyən normativ çərçivədə istifadəsi beynəlxalq standartlara görə icazəli sayılsa da, həddindən artıq qəbulu mədə-bağırsaq pozuntularına, ürəkbulanma, qarın ağrısı və ishala səbəb ola bilir. Böyrək xəstəlikləri olan şəxslər üçün isə bu maddənin çoxluğu daha ciddi problemlərlə nəticələnir.

Uşaq orqanizmi kimyəvi qatqılara qarşı daha həssas olduğundan, belə məhsulların körpələr tərəfindən mütəmadi istifadəsi də məqsədəuyğun hesab edilmir. Eyni zamanda, E509 məhsula daha bərk və "keyfiyyətli" görünüş verdiyi üçün istehlakçıda təbii məhsul təəssüratı yaradaraq onun aldadılması ilə nəticələnir.

**Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov** bildirir ki, şor ənənəvi üsulla süd məhsullarının emalı nəticəsində hazırlanır. Qatıq və ya qaymaq nehrədə çalxalanaraq yağ və ayran alınır. Ayran qızdırıldıqdan sonra çürüdülərək suyu ayrılır və xüsusi torbalarda süzülür. Nəticədə əldə olunan kütlə duzsuz şor hesab edilir. Bu məhsul tez xarab olduğu üçün müəyyənləşdirilən xüsusi şəraitdə saxlanılır. Sonradan istəyə uyğun şəkildə duz əlavə edilərək duzlu şor hazırlanır.

Amma bəzi hallarda duzsuz şora qaymaq qatılması da mümkündür. Lakin burada əsas məsələ əlavə edilən qaymağın mənşəyidir. Belə ki, əgər qaymaq heyvan mənşəlidirsə və təmiz xammaldan əldə olunursa, məhsul sağlamlıq üçün təhlükə yaratmır. Əks halda, bitki yağı "qaymaq" adı ilə təqdim olunursa, bu, artıq istehlakçının aldadılması və hüquqlarının pozulması deməkdir. Etiketdə məhsulun mənşəyi, tərkibi və istifadə olunan xammal açıq və aydın şəkildə göstərilməlidir. Bu, həm qanunvericiliyin tələbi, həm də vicdanlı biznes prinsiplərinin əsas şərtidir.

### Nəzarət olmayanda fırıldaq tüğyan edir

"Qaymaqlı şor" adı ilə tərkibi dəyişdirilən, palma yağı və müxtəlif qida əlavələri ilə istehsal edilən məhsulların satışa çıxarılması da təkcə etik problem deyil, bu, eyni zamanda, birbaşa olaraq istehlakçı hüquqlarının qorunması, düzgün etiketləmə, ədalətli rəqabət və qida təhlükəsizliyi ilə bağlı hüquqi məsələdir. Mövcud vəziyyət isə göstərir ki, respublikamızın bazar nəzarəti sistemində həm normativ, həm də icra mexanizmləri baxımından ciddi təkmilləşdirməyə ehtiyac var.

Azərbaycanda qida təhlükəsizliyi sahəsində əsas icraedici qurum Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) hesab olunur. Agentlik qida məhsullarının təhlükəsizliyi, etiketlənməsi və istehsal standartlarına nəzarət edir. Bundan əlavə, istehlakçı hüquqlarının müdafiəsi sahəsində Azad İstehlakçılar İctimai Birliyi kimi vətəndaş cəmiyyəti institutu isə ictimai nəzarət funksiyasını yerinə yetirir.

Lakin təcrübədə bitki yağı ilə heyvan mənşəli qaymağın fərqləndirilməsinin etiketdə aydın göstərilməməsi, qida əlavələrinin (məsələn, E509) istehlakçı üçün risk səviyyəsinin açıq izah edilməməsi, laborator nəzarətin seçmə və epizodik xarakter daşıması kimi problemlər müşahidə olunur. Qida mütəxəssisləri tərəfindən isə mövcud vəziyyətin yaxşılaşdırılması, narahatlıq doğuran problemlərin aradan qaldırılması məqsədilə müəyyən dəyişikliklər təklif edilir. Bunun üçün, ilk növbədə, "Şor", "Qaymaqlı şor" və "Təbii süd məhsulu" anlayışları dəqiqləşdirilməli, bitki mənşəli yağ istifadə edilən məhsulların "Şor" adı ilə satışı qadağan edilməli, belə məhsullar ayrıca kateqoriyada – "süd məhsulu əsaslı qarışıq" kimi təsnifləşdirilməlidir.

Yuxarıda vurğulananlarla yanaşı, etiketləmə qaydalarının sərtləşdirilməsi, bu zaman palma və digər bitki yağlarının ön hissədə iri şriftlə göstərilməsi, qida əlavələrinin funksiyasının aydın şəkildə qeyd olunması, habelə "təbii" ifadəsinin istifadəsi üçün xüsusi sertifikat mexanizminin tətbiq edilməsi diqqətdə saxlanılmalıdır.

Göründüyü kimi, "Qaymaqlı şor" məsələsi sistemli yanaşma tələb edən qida təhlükəsizliyi problemidir. Qlobal təcrübə göstərir ki, səmərəli nəticə yalnız üçtərəfli model – dövlət nəzarəti, məsuliyyətli biznes və məlumatlı istehlakçı – əsasında əldə edilə bilər. Əgər normativ baza dəqiqləşdirilərsə, nəzarət mexanizmləri gücləndirilərsə və sanksiyalar real çəkindirici xarakter daşıyarsa, bazarda saxta məhsulların payı əhəmiyyətli dərəcədə azalar.

### Sağlam qida qlobal hədəfdir

Saxta və keyfiyyətsiz qida məhsulları problemi təkcə ölkəmizdə müşahidə edilmir. Qlobal səviyyədə qida saxtakarlığı anlayışı artıq beynəlxalq təhlükəsizlik məsələsi kimi qiymətləndirilir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının müvafiq qurumları tərəfindən qida təhlükəsizliyi sahəsində dövlətlərə texniki dəstək göstərilir və risklərin qiymətləndirilməsi mexanizmləri hazırlanır. Bir çox ölkələrdə isə risk əsaslı nəzarət sistemi tətbiq olunur, yəni yüksək riskli məhsullar daha tez-tez laborator yoxlamadan keçirilir.

Avropa İttifaqına üzv ölkələr arasında məlumat mübadiləsi sistemi səmərəli fəaliyyət göstərir. Şübhəli məhsul aşkar edilərsə, dərhal digər dövlətlərə xəbərdarlıq göndərilir və məhsul bazardan yığışdırılır. Bu sistem sürətli reaksiya mexanizmi kimi səmərəli sayılır.

Bütün bunlarla bərabər, bir sıra inkişaf etmiş ölkələrdə qida məhsullarının istehsal zənciri blokçeyn texnologiyası (məlumatların dəyişdirilməsi mümkün olmayan şəffaf və paylanılmış rəqəmsal reyestr (dəftər) texnologiyası) ilə izlənilir. Başqa sözlə, istehlakçı məhsulun üzərindəki QR kod vasitəsilə xammalın mənşəyini, istehsal tarixini və laborator analiz nəticələrini görə bilir. Bu yanaşma ilə saxtakarlıq riski minimuma endirilir.

Bir çox ölkələrdə qida saxtakarlığı cinayət məsuliyyəti yaradır və yüksək məbləğdə cərimələrlə yanaşı, istehsalın dayandırılması və lisenziyanın ləğvi ilə nəticələnir. Bu, bazar iştirakçıları üçün preventiv (hər hansı xoşagəlməz hadisənin, xəstəliyin və ya təhlükənin baş verməsinin qarşısını almaq üçün əvvəlcədən görülən tədbir, önləyici addım) mexanizm ilə tənzim olunur.

**Azərbaycanda isə mövcud vəziyyət göstərir ki, aşağıdakı istiqamətlərdə addımların atılması vacibdir:**

*– qida məhsullarının etiketlənməsinə dair tələblər sərtləşdirilməli;*

*– məhsul etiketlərində palma və bitki mənşəli yağların açıq şəkildə qeyd edilməsi məcburi xarakter daşımalı;*

*– risk əsaslı laborator yoxlamaların sayı artırılmalı;*

*– istehlakçı maarifləndirilməsi kampaniyaları genişləndirilməlidir. Bütün bunlarla bərabər, saxta məhsul istehsalçılarına qarşı cərimələr ağırlaşdırılmalı, ictimai nəzarət mexanizmləri gücləndirilməlidir.*

Beləliklə, "Qonaqkənd şor", "Şor lavanda", "Qaymaqlı şor" kimi adlarla keyfiyyətsiz və ya saxta məhsulların satılması yalnız fərdi sağlamlıq problemi deyil, həm də bazar iqtisadiyyatında etimad böhranı yaradan amildir. Təbii məhsul adı ilə kimyəvi müdaxilə yolu ilə formalaşdırılmış bu qida məhsullarının istehsalı və satışı həm etik, həm hüquqi, həm də sosial məsuliyyət baxımından qəbuledilməzdir.

İstehlakçıların məlumatlığı, dövlət nəzarətinin səmərəliyi və vicdanlı sahibkarlıq prinsipləri birlikdə işlədikdə bazarda sağlam rəqabət və təhlükəsiz qida təmin edilə bilər. Əks halda isə saxta məhsulların dövriyyəsi həm ictimai sağlamlıq, həm də milli qida təhlükəsizliyi üçün risk olaraq qalacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**İlkin ŞİRİNOV,**
**qida eksperti**

Bazarda "Qaymaqlı şor" adı ilə saxta və ya keyfiyyətsiz qida məhsullarının satılması ilə bağlı yayılan xəbərlər istehlakçıların qida təhlükəsizliyi və düzgün məhsul seçimi məsələlərini gündəmə gətirir. Ekspertlər bildirirlər ki, saxta məhsulların aşkarlanması və təhlükəsiz qida istehlakı üçün istehlakçılar diqqətli olmalı, etiket və sertifikatlara baxmalı və yalnız etibarlı ticarət nöqtələrindən alış-veriş etməlidirlər. Eyni zamanda, bu cür halların qarşısını almaq üçün bazarda nəzarət mexanizmləri gücləndirilməlidir.

Ümumiyyətlə, "Qaymaqlı şor", "kənd ətirli şor" və ya hər hansı bir rayon və kənd adı ilə adlandırılan şorların istehsalında əsas məsələ məhsulun tərkibinin düzgün göstərilməsidir. Burada süd və qatığın miqdarı, keyfiyyəti məhsulun etiketində qeyd olunan göstəricilərə tam uyğun olmalıdır.

Məhsulların markalanması zamanı əgər tərkibində süd yağı yoxdursa, məhsulu "qaymaqlı" adlandırmaq düzgün deyil. Bəzi hallarda süd yağı əvəzinə ucuz bitki yağları, məsələn, palma yağları istifadə olunur ki, bu da məhsulun keyfiyyətini təmin etmir. Qiymət bəzən meyar kimi göstərilsə də, əslində, məhsulu yedikdə ağızda südün tamı və yağlılığı hiss edilməlidir.

Saxta məhsullarda bu mümkün deyil və belə məhsullar vitrinlərdə uzun müddət xarab olmadan qala bilir. Halbuki süd məhsulları tez xarab olur. Əksinə, bu, istehlakçı üçün şübhə doğuran əsas amillərdən biridir. Bundan əlavə, məhsulların üzərindəki markalanma və tərkib məlumatları düzgün deyilsə, belə hal istehlakçının aldanması hesab olunur və qida təhlükəsizliyi üçün risk yaradır.

İkiqat paketlənən, düzgün saxlanılmayan və açıq şəraitdə satılan məhsullar qida zəhərlənmələrinə səbəb olur. Bu səbəbdən məhsulların laborator analizləri zəruri sayılır. Analizlər məhsulun tərkibi ilə markalanma arasındakı fərqi, südün yağ faizini, bitki yağlarının olub-olmadığını və mikrobioloji göstəriciləri müəyyən edir. Yalnız bu nəticələr əsasında məhsul haqqında düzgün və tam fikir söyləmək mümkündür. Ucuz qiymətlər, endirimlər və cəlbedici qablaşdırmalar müştəriləri cəlb edə bilər, amma bu, məhsulun keyfiyyəti ilə bağlı aldanmaya səbəb olmamalıdır. Xüsusilə "kənd qaymaqlı şor" kimi adlar altında istehlakçının aldanması yolverilməzdir.

Ən doğru yanaşma hər hansı bir məhsul haqqında fikir bildirilməzdən əvvəl Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin laborator analizləri aparılmalıdır. Məhsulun tərkibi, yağlılıq və qatıq miqdarı tam müəyyən edildikdən sonra yalnız düzgün qiymətləndirmə mümkündür.

# Yeni layihələr Xəzərdə əməkdaşlığı genişləndirir

## *"Qarabağ" və "Əşrəfi-Dan ulduzu-Aypara" yataqları üzrə sazişlər gerçəkləşdirilir*

**Xəzər dənizinin ölkəmizə aid sektorunda yerləşən "Qarabağ" neft yatağı və "Əşrəfi-Dan ulduzu-Aypara" (ADUA) sahəsi üzrə müvafiq olaraq risk xidməti və hasilatın pay bölgüsü sazişləri Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Böyük Britaniyanın "British Petroleum" (bp) arasında əməkdaşlıqda yeni perspektivlər açır. Bu sahədə əməkdaşlığın təməli isə 2024-cü il sentyabrın 20-də qoyulub. Məlum olduğu kimi, "Əsrin müqaviləsi"nin 30-cu ildönümü günündə iki qurum arasında sözügedən hasilat və kəşfiyyat bloku üzrə anlaşma memorandumu imzalanıb.**




Həmin layihələrdə iştirak paylarının dəqiqləşdirilməsi ilə bağlı sövdələşməni rəsmiləşdirən sazişlər isə 2025-ci il iyunun əvvəllərində keçirilmiş Bakı Enerji Həftəsi çərçivəsində imzalanıb. Sövdələşməyə əsasən SOCAR və bp hər iki layihə üzrə müvafiq olaraq 65 faiz və 35 faiz iştirak payı əldə ediblər. Layihənin operatoru funksiyası isə Britaniya şirkətinə həvalə olunub. Ümumilikdə, bu sazişlər Xəzərdə mövcud infrastrukturdan səmərəli şəkildə istifadə etməyə imkan yaradacaq yeni işlənmə variantlarını müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Ötən müddətdə hər iki layihə üzrə planlaşdırılmış işlər qrafikə uyğun davam etdirilib. "bp-Azərbaycan" şirkətinin 2025-ci ilin yekunlarına dair hesabatına əsasən, hazırda "Qarabağ" yatağında ilk addım olaraq dənizdibi sensor qovşaqlarla tədqiqat daxil olmaqla seysmik tədqiqat proqramı həyata keçirilir. Tədqiqatın yataq haqqında məlumatları artıracağı, quyuların planlaşdırılması işlərinə və yatağın işlənmə strategiyalarının optimallaşdırmasına kömək edəcəyi gözlənilir. Dənizdibi sensor qovşaqlarla tədqiqat ötən ilin dekabrında başlayıb və təqribən 3 ay yarım davam edəcək.

Bundan əlavə, proqram çərçivəsində yüksək dəqiqlikli və ultra yüksək dəqiqlikli tədqiqatların da aparılması nəzərdə tutulur. Bunda da əsas məqsəd quyu bütövlüyünə təsir göstərə biləcək geoloji riskləri, eləcə də platformanın və digər infrastrukturun təhlükəsiz şəkildə quraşdırılmasına maneə yarada biləcək yeraltı təhlükələri müəyyənləşdirməkdir. Yüksək dəqiqlikli və ultra yüksək dəqiqlikli tədqiqatların cari ilin mart-aprel aylarında həyata keçiriləcəyi və 45 günədək davam edəcəyi gözlənilir. "Qarabağ" yatağında seysmik tədqiqat proqramına aid ətraf mühitə təsirin qiymətləndirilməsi sənədinin layihə variantı 2025-ci ilin oktyabr ayında ictimaiyyətə açıqlanıb və sənədin yekun variantı dekabrda dövlət tərəfindən təsdiqlənib.

"Əşrəfi-Dan ulduzu-Aypara" layihəsi üzrə isə ilk addım olaraq 2026-cı ilin fevral və aprel ayları arasında suyun 20-40 metr dərinliyində seysmik tədqiqat proqramının aparılması planlaşdırılır. Proqrama 2D yüksək dəqiqlikli seysmik tədqiqat daxildir. Qısa müddət üçün nəzərdə tutulmuş bu tədqiqatın 20 günədək davam edəcəyi və "Əşrəfi-Dan ulduzu-Aypara" sahəsinin şimal-qərb hissəsində kiçik bir ərazini əhatə edəcəyi nəzərdə tutulur. Tədqiqatda əsas məqsəd yerin, təxminən, 1500 metr dərinliyinədək qatları haqqında ətraflı məlumatlar əldə etməklə gələcək kəşfiyyat quyularının planlaşdırılmasına dəstək verməkdir. Tədqiqat yeraltı qırılmalar, dayaz qatlara yığılmış qazlar və digər geoloji xüsusiyyətlər də daxil olmaqla qazma əməliyyatları və quyu bütövlüyünə təsir göstərə biləcək yeraltı geoloji risklərin müəyyənləşdirilməsinə kömək edəcək.

"Əşrəfi-Dan ulduzu-Aypara" blokunda seysmik tədqiqat proqramına aid ətraf mühitə təsirin qiymətləndirilməsi sənədinin layihə variantı isə ötən ilin son ayında ictimaiyyətə açıqlanıb və nəzərdən keçirilmək üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilib.



Xatırladaq ki, "Qarabağ" perspektivli dəniz strukturu kimi 1959-cu ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilib. 1984-cü ildə strukturun sahəsi dəqiqləşdirilib və 1997-1998-ci illərdə kəşfiyyat qazması nəticəsində neft-qazlılığı təsdiqlənib. Yataq Bakıdan 120 kilometr şərqdə, "Günəşli" yatağından 20-25 kilometr məsafədə, suyun 150-200 metr dərinliyində yerləşir. Yatağın ilkin qiymətləndirilmiş geoloji ehtiyatları 60 milyon ton neftdən artıqdır.

1996-cı il fevralın 13-də xarici şirkətlərlə imzalanmış hasilatın pay bölgüsü sazişinə əsasən, buradan 25 il ərzində neft hasil ediləcəyi qərara alınıb. Həmin il iyunun 4-də layihə çərçivəsində nəzərdə tutulmuş işləri yerinə yetirmək məqsədilə Xəzər Beynəlxalq Əməliyyat Şirkəti yaradılıb. Şirkət tərəfindən burada 3 kəşfiyyat quyusu qazılıb. Quyuların 2-si strukturun cənub-şərq hissəsində layların qazla doyumlu olduğunu təsdiqləyib. 1 quyu isə strukturun qərb hissəsində layların neft və qazla doyumlu olduğunu aşkara çıxarıb. Bununla belə, beynəlxalq şirkətlərdən ibarət olan konsorsium sonradan sahənin rentabelli olmadığı qənaətinə gələrək 1999-cu il yanvarın 26-da əməliyyatı dayandırdığını elan edib.

2018-ci ildə isə "SOCAR Qarabağ" və Norveçin "Equinor" şirkəti arasında yatağın işlənməsi üzrə risk xidməti sazişi imzalanıb. Sazişə əsasən şirkətlər layihədə bərabər pay əldə ediblər. Həmin il sənəd Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunub. 2019-cu il dekabrın 23-də yataqda ilk qiymətləndirmə quyusunun qazılmasına başlanılıb. SOCAR-ın CDC qazma şirkəti tərəfindən "Dədə Qorqud" üzən qazma qurğusu vasitəsilə suyun 180 metr dərinliyində qazılmış quyudan əldə olunmuş ilkin nəticələr yataqda kəşf edilmiş neft və qaz həcmlərinin onun iqtisadi cəhətdən səmərəli işlənməsi üçün yetərli olduğunu təsdiqləyib. Bununla da "Qarabağ" ölkəmizin müstəqilliyi dövründə kəşf edilmiş ilk neft yatağı kimi tarixə düşüb. Bununla belə, 2023-cü ilin sonlarında Norveç şirkətinin ölkəmizi tərk etməsi ilə əlaqədar layihə öz işini dayandırmalı olub.

Heç şübhəsiz, yenidən həyata vəsiqə almış "Qarabağ" neft layihəsi SOCAR və bp-nin birgə səyi nəticəsində uğurlu işlənmə mərhələsinə qədəm qoyacaq ki, bu da Xəzər regionunda yeni bir əməkdaşlıq nümunəsinin əsasını qoyacaq. "Qarabağ" yatağından ilk neftin isə 2029-cu ildə hasil olunacağı planlaşdırılır.

"Əşrəfi-Dan ulduzu-Aypara sahəsi" Bakıdan 90-110 kilometr şimal-şərqdə, açıq dənizdə suyun 80-180 metr dərinliyində yerləşir. Bu sahə bir sıra kəşf olunmuş mövcud və perspektiv strukturları əhatə edir. Buranın ehtiyatları tam dəqiqləşdirilməsə də, ilkin qiymətləndirmələrə görə sahə böyük neft-qaz potensialına malikdir. Ölkəmizin enerji sektorunda uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsi olan "Əşrəfi-Dan ulduzu-Aypara" hasilatın pay bölgüsü sazişi Xəzər dənizinin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının artırılmasına yönəlmiş strateji addım kimi xüsusi əhəmiyyət daşıyır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Milli humanitar elmlərin uğurları və hədəfləri

**2025-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası İctimai Elmlər Bölməsinə daxil olan institutlar səmərəli fəaliyyət göstərmiş və bir çox uğurlara imza atmışdır. İlin mühüm elmi hadisəsi 3 noyabr 2025-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilmiş ümumi yığıncaqda Prezident İlham Əliyevin tarixi, strateji məzmunlu və proqram xarakterli çıxışı olmuşdur.**



*Gövhər BAXŞƏLİYEVA,*
*AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun direktoru, akademik*

Dövlət başçısının humanitar və ictimai elmlər sahəsində fəaliyyət göstərən tədqiqatçılar qarşısında qoyduğu mühüm elmi vəzifələr yeni hədəflər müəyyən etmişdir. Bu vəzifələr milli dövlətçilik maraqlarının elmi əsaslarla qorunmasını, tarixi həqiqətlərin obyektiv, sistemli və beynəlxalq metodoloji meyarlar çərçivəsində araşdırılmasını, elmin ideoloji təsirlərdən kənar, milli maraqlara xidmət edən prinsiplər üzərində inkişaf etdirilməsini nəzərdə tutur.

Ötən bölmənin elmi-tədqiqat müəssisələrinin fəaliyyəti, əsasən, Azərbaycan Respublikası Prezidentinin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi, Rəqəmsal İnkişaf Konsepsiyasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyasının təsdiq edilməsi, Üzeyir Hacıbəylinin 140 illik, "Bəxtiyar Vahabzadənin 100 illik, Seyid Əzim Şirvaninin 190 illik, Azərbaycan milli mətbuatının 150 illik, Akademik Yusif Məmmədəliyevin 120 illik, Fətəli xan Xoyskinin 150 illik, Birinci Türkoloji Qurultayın 100 illik yubileylərinin keçirilməsi haqqında və 8 noyabr Zəfər Gününün beşinci ildönümü" ilə əlaqədar sərəncamlarının icrasına istiqamətlənmişdir.

Eləcə də dövlət başçısının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının təsdiq edilməsi haqqında sərəncamı, Qərbi Azərbaycan və Qafqaz Albaniyası ilə bağlı tapşırıq və tövsiyələrinə uyğun istiqamətlərdə işlər aparılmışdır.

"Azərbaycan Respublikasında 2025-ci ilin Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Sərəncamın icrası ilə bağlı 4 beynəlxalq, 3 respublika elmi konfransı, 4 elmi seminar, 1 elmi sessiya, 2 dəyirmi masa təşkil olunmuş, 1 tədbir, 1 beynəlxalq konfransın materialları çap olunmuş, 1 şöbə yaradılmışdır. Bu istiqamətdə Fəlsəfə və Sosiologiya İnstitutu tərəfindən 4 beynəlxalq konfrans keçirilmişdir. AMEA Rəyasət Heyətinin sərəncamının icrasını əsas tutaraq İnstitutda "Fəlsəfi-hüquqi təlimlər və suverenlik" şöbəsi fəaliyyətə başlamış, bölmənin əməkdaşları 60-dan çox respublika və beynəlxalq səviyyəli konfranslarda məruzə ilə çıxış etmişlər.

Tarix və Etnologiya İnstitutunun və Bakı Biznes Universitetinin Humanitar elmlər kafedrası, Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş "Azərbaycanın elm məbədi" mövzusunda elmi seminarı Arxeologiya və Antropologiya İnstitutunda "Azərbaycanda arxeoloji və antropoloji tədqiqatlar: nəticələr və perspektivlər" mövzusunda elmi sessiya, Şərqşünaslıq İnstitutunda "Azərbaycan elminin bayraqdarı" mövzusunda respublika konfransı, "Milli kimliyin formalaşmasında elmi tərəqqinin rolu" adlı tədbir keçirilmişdir.

Rəyasət Heyətinin iclasında Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru Kərim Şükürov ötən müddət ərzində Azərbaycan tarixinin tədqiqi ilə bağlı aparılan işlər barədə geniş məlumat vermişdir. Bundan başqa, hazırda institutda bu istiqamətdə Vətən müharibəsinə dair tədqiqatlar aparılır, xalqımızın tarixi torpaqlarından deportasiyaya dair kitablar, eyni zamanda, Tarix və Etnologiya İnstitutunda ETSN-in Geodeziya və Kartoqrafiya Agentliyi ilə birgə "Azərbaycan Tarixi Atlası"nın 15 cildlik "Azərbaycan tarixi" çapa hazırlanır.

Ölkə Prezidentinin Azərbaycan elmi qarşısında qoyduğu vəzifələrdən irəli gələrək Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru İlham Məmmədzadə, Tarix və Etnologiya İnstitutun direktoru Kərim Şükürov, Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri Füzuli Qurbanov, fəlsəfə doktoru Şölət Zeynalov məqalələr yazmış, televiziya kanallarında çoxsaylı çıxışlar etmişlər.

"Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" sərəncamın icrasına uyğun olaraq Bölmənin elmi-tədqiqat müəssisələrində bir sıra işlər görülmüşdür. Bütün institutlarda əməkdaşların elektron portalının hazırlanması üzərində iş gedir. 13 noyabr tarixində Şərqşünaslıq İnstitutunda "İnformasiya təhlükəsizliyi və Şərq siyasəti" mövzusunda dəyirmi masa təşkil olunmuşdur. Bundan əlavə, bölməyə daxil olan institutlarda daxili imkanlar hesabına yeni şöbələr yaradılmışdır.

"Üzeyir Hacıbəylinin 140 illik yubileyi ilə bağlı sərəncamın icrasına uyğun olaraq Tarix və Etnologiya İnstitutunda "Üzeyir Hacıbəylinin irsi üç epoxanın prizmasından", Fəlsəfə və Sosiologiya İnstitutunda "Muğamın fəlsəfəsi: Üzeyir Hacıbəyli, Asif Əfəndiyev, Bəxtiyar Vahabzadə" mövzusunda dəyirmi masa, Şərqşünaslıq İnstitutunda Üzeyir Hacıbəylinin yaradıcılığı və maarifçilik fəaliyyəti" mövzusunda elmi sessiya keçirilmişdir. Oktyabrın 24-də və 30-da Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Solmaz Rüstəmova-Tohidi yeni arxiv materialları əsasında Üzeyir Hacıbəyli haqqında iki mühazirə oxumuşdur.

Fəlsəfə və Sosiologiya İnstitutunda "Üzeyir Hacıbəylinin yaradıcılığında azərbaycançılıq və türkçülük ideyaları", "Üzeyir Hacıbəylinin dünyagörüşünün milli-fəlsəfi aspektləri" mövzusunda elmi seminarlar keçirilmişdir. 17 sentyabr tarixində AMEA Rəyasət Heyəti, Humanitar və İctimai Elmlər bölmələrinin birgə təşkilatçılığı ilə "Üzeyir Hacıbəyli: ədəbi-mədəni dəyərlər və mənəvi-estetik zənginlik" mövzusunda elmi konfrans olmuşdur.

"Bəxtiyar Vahabzadənin 100 illik yubileyi münasibətilə Tarix və Etnologiya İnstitutu ilə Bakı Qızlar Universitetinin tələbələrinin iştirakı ilə "Azərbaycanın istiqlal şairi Bəxtiyar Vahabzadə-100 il", Şərqşünaslıq İnstitutunda "Bəxtiyar Vahabzadə və Türk dünyası" adlı elmi sessiya, Fəlsəfə və Sosiologiya İnstitutunda "Bəxtiyar Vahabzadə və Azərbaycanda milli istiqlal təfəkkürün formalaşması" dəyirmi masa təşkil etmişdir. "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyasının təsdiq edilməsi haqqında" sərəncamın icrasının təmin olunması məqsədilə Fəlsəfə və Sosiologiya İnstitutu Buxarest Universitetinin Fəlsəfə fakültəsi ilə birgə "Azərbaycan süni intellekt fəlsəfəsi və gələcək" mövzusunda beynəlxalq dəyirmi masa keçirilmişdir.

Seyid Əzim Şirvaninin 190 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamla bağlı Tarix və Etnologiya İnstitutunda "Seyid Əzim Şirvaninin Azərbaycan maarifçiliyində rolu" mövzusunda dəyirmi masa, Şərqşünaslıq İnstitutunda "Seyid Əzim Şirvaninin maarifçilik görüşləri" mövzusunda elmi seminar olmuşdur.

Azərbaycan milli mətbuatının 150 illik yubileyinin qeyd olunması haqqında sərəncamın icrası ilə əlaqədar Tarix və Etnologiya İnstitutu "Azərbaycan milli mətbuatı-150" mövzusunda dəyirmi masa təşkil etmişdir.

"Akademik Yusif Məmmədəliyevin 120 illiyi ilə bağlı Tarix və Etnologiya İnstitutunda "Akademik Yusif Məmmədəliyev-120" mövzusunda dəyirmi masa, Fəlsəfə və Sosiologiya İnstitutunda "Azərbaycan alimlərinin II Dünya müharibəsində iştirakı və rolu: akademik Yusif Məmmədəliyev" mövzusunda elmi seminar, Şərqşünaslıq İnstitutunda "Milli iftixarımız akademik Yusif Məmmədəliyev - 120" mövzusunda elmi sessiya keçirilmişdir.

"Fətəli xan Xoyskinin 150 illiyi münasibətilə sərəncamın icrasının təmin olunması məqsədilə Tarix və Etnologiya İnstitutu tərəfindən "Azərbaycanın dövlətçilik tarixində Fətəli xan Xoyskinin yeri və rolu" mövzusunda elmi konfrans keçirilmişdir. AMEA Rəyasət Heyəti və Tarix və Etnologiya İnstitutunun birgə təşkilatçılığı ilə "Fətəli xan Xoyski 150" mövzusunda respublika elmi konfrans, Şərqşünaslıq İnstitutunda "Azərbaycanın istiqlal mücahidi" mövzusunda elmi sessiya, Fəlsəfə və Sosiologiya İnstitutunda "Fətəli xan Xoyski Azərbaycanın görkəmli dövlət xadimi kimi" mövzusunda dəyirmi masa, "Fətəli xan Xoyskinin həyatı və ictimai-siyasi fəaliyyəti" mövzusunda elmi seminar keçirilmişdir.



"Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu" haqqında Sərəncamın icrasına uyğun olaraq, arxeoloq alimlər tərəfindən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən qeydə alınmış arxeoloji abidələrin pasportlaşdırılması, yeni aşkar edilmiş abidələrin isə qeydə alınması istiqamətində fəaliyyət davam etdirilmişdir.

Ölkə Prezidentinin tapşırıq və tövsiyələrinə əsasən bölmənin institutlarında bir sıra işlər görülmüş, kitablar çap olunmuş, 30-a yaxın elmi tədqiqat işləri aparılmış, işğaldan azad olunmuş ərazilərdə beynəlxalq ekspedisiyalar fəaliyyət göstərmişdir.

Tarix və Etnologiya İnstitutunun "Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı" şöbəsinin təşkilatçılığı ilə "Birinci Qarabağ müharibəsinə baxış: elmi-nəzəri təhlil", Fəlsəfə və Sosiologiya İnstitutunda "İlham Əliyev: qurucu liderlik kursu" mövzusunda elmi seminar keçirilmişdir.

Bölmənin elmi-tədqiqat müəssisələrinin əməkdaşları işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının və bununla bağlı AMEA Rəyasət Heyətinin qərarının icrası istiqamətində uğurlu işlər reallaşdırılmışdır. Eləcə də Prezidentin Qərbi Azərbaycan İcması ilə görüşü zamanı verdiyi tapşırıq və tövsiyələr əsasında Qərbi Azərbaycanla bağlı əhəmiyyətli işlər aparılmış və bu barədə əhatəli hesabat Prezident Administrasiyasına təqdim edilmişdir.

Şərqşünaslıq İnstitutunda bir sıra elmi tədqiqat işi aparılmışdır. İnstitutun Din və ictimai fikir tarixi şöbəsinin müdiri Elnur Mustafayevin İraq-türkman dilinin qrammatikası (Azərbaycan dili əsasında). (Azərbaycan və ərəb dillərində Bakı və Bağdad şəhərlərində) nəşr edilmişdir.

Bölmənin bütün elmi-tədqiqat müəssisələrinin əməkdaşları tərəfindən silsilə məqalələr bir sıra informasiya portallarında, qəzetlərdə, jurnallarda, televiziya və radio kanallarında yerləşdirilmişdir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in 3 bəndi üzrə işlər aparılmış, Fəlsəfə və Sosiologiya İnstitutunda bu istiqamətdə kitablar nəşr olunmuş, təlimlər, tədbirlər keçirilmişdir.

Fəaliyyət proqramının "Mədəni və yaradıcı cəmiyyətin inkişafının təşviqi" 1 yarımbəndi üzrə 1 monoqrafiya, 2 respublika konfrans olmuşdur. 25 aprel tarixində "Milli varlığa və mənəviyyata həsr edilən ömür - Cavad Heyət fenomeni", 28 aprel tarixində "İlkin qaynaqlar tarixin güzgüsüdür", 2 dəyirmi masa, 3 seminar, 1 kitab təqdimatı olmuşdur.

"Azərbaycan Milli Elmlər Akademiyasının 2020-2025-ci illər üçün inkişaf proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrasına uyğun olaraq, bölmənin bütün elmi-tədqiqat müəssisələrinin elmi tədqiqatlarının prioritet istiqamətləri müəyyən edilmiş, çap olunmuş nəşrlər müvafiq kitabxanalara göndərilmiş, Dövlət proqramları icra olunmuş, 30 dərs vəsaiti və dərslik çap edilmişdir.

Hesabat ilində bölmənin elmi-tədqiqat müəssisələrində bir sıra struktur dəyişiklikləri aparılmış, daxili imkanlar hesabına dövrün tələblərinə cavab verən yeni şöbələr yaradılmışdır. Bölmənin bütün elmi-tədqiqat müəssisələrində elektron xidmət şöbələri fəaliyyətlərini genişləndirmişdir.

AMEA Rəyasət Heyətinin qərarı ilə Qafqazşünaslıq İnstitutunun fəaliyyətinə xitam verilmişdir.

AMEA-nın İctimai Elmlər Bölməsinin ayrı-ayrı iclaslarında Azərbaycan elminin müxtəlif problemlərinə həsr edilmiş məruzələr dinlənilmişdir.

Ötən ildə bölmə üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təhsil müəssisələrinin alimləri cəlb olunmaqla 3 elmi seminar keçirilmiş, aktual mövzulara həsr olunmuş məruzələr ətrafında müzakirələr aparılmışdır.

Hesabat ilində bölmənin elmi-tədqiqat müəssisələrində 32 problem, 87 mövzu, 491 iş üzərində elmi-tədqiqat aparılmışdır. Bunlardan il ərzində 72 mövzu, 425 iş tamamlanmışdır. Arxeoloq alimlər Azərbaycanın müxtəlif bölgələrində, eləcə də işğaldan azad olunmuş ərazilərimizdə çöl tədqiqat işləri aparmışlar.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli ötən il Qarabağda aparılan qazıntı işlərinə, Astarada yerləşən Alaşa qalasında aparılan arxeoloji ekspedisiyaların işinə baxış keçirmişdir. Arxeoloqlar, həmçinin Ağdamın Şahbulaq, Füzuli, Xocalı, Zəngilan və başqa ərazilərdə qazıntı işləri aparmışlar. İnstitutun əməkdaşları Məhkəmə ekspedisiyası ilə birgə Kəlbəcər rayonu, Zar kəndi ərazisində olmuşlar. Bununla bərabər, hesabat ilində antropoloji ekspedisiyalar təşkil olunmuşdur.

AMEA-nın İctimai Elmlər Bölməsinin elmi-tədqiqat müəssisələrində 870 əməkdaş çalışır. Bunlardan 78-i elmlər doktoru, 267 nəfəri fəlsəfə doktorudur.

İctimai Elmlər Bölməsinin elmi-tədqiqat müəssisələrində təhsil alan elmlər doktoru hazırlığı üzrə doktorant və dissertantlardan 8 nəfər, fəlsəfə doktorluğu hazırlığı üzrə doktorant və dissertantlardan isə 13 nəfər müdafiə etmişdir. Hesabat ilində 16 nəfər fəlsəfə doktorluğu, 3 nəfər elmlər doktorluğu üzrə müdafiəyə hazırlanmışdır.

30-dan çox beynəlxalq təşkilat və elmi qurumlarla əməkdaşlıq edilmişdir. Bölmənin elmi-tədqiqat müəssisələri ilə birgə əməkdaşlığa dair beynəlxalq müqavilələr imzalanmışdır. 30-a yaxın ölkədən 35-dən çox alim mütəxəssislərlə görüş keçirilmişdir.

2025-ci ildə institutların 20-dən çox əməkdaşı elmi-tədqiqatlar aparmaq məqsədilə dünyanın müxtəlif ölkələrində (Gürcüstan, Türkiyə, Misir, Vatikan, Londan, Rusiya çoxluq təşkil edir) elmi ezamiyyətdə olmuşlar.

Ötən ildə bölmənin bütün elmi-tədqiqat müəssisələrində beynəlxalq elektron resurslara çıxış genişləndirilmiş, internet səhifələrinin fəaliyyətinin KİV-də işıqlandırılması və müvafiq məlumatların ictimaiyyətə çatdırılması istiqamətində fəaliyyət gücləndirilmişdir.

Bölmənin bütün elmi-tədqiqat müəssisələrində ənənəvi olaraq, Elm gününə, Milli Qurtuluş Gününə, Xocalı faciəsinə, 20 Yanvar Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbirlər keçirilmişdir.

Bu istiqamətdə bölmənin institutlarında türkdilli xalqların tarixini, mədəniyyətini araşdıran şöbələr fəaliyyət göstərir. 2025-ci ildə Fəlsəfə və Sosiologiya İnstitutunda Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsi yaradılmışdır. 1 mövzu 5 elmi tədqiqat üzərində iş aparılır. Şərqşünas – alimlər "Türkiyənin siyasi və iqtisadi tarixi və Türkiyə-Azərbaycan siyasi-iqtisadi münasibətlərinin öyrənilməsi" mövzusu üzrə 7 elmi-tədqiqat üzrə iş aparırlar.

Tarix və Etnologiya İnstitutunda Türk xalqlarının tarixi və etnologiyası şöbəsi tərəfindən "Azərbaycanda yaşayan digər türk xalqlarının tarixinin və etnologiyasının müqayisəli öyrənilməsi (keçmişdə və indi)" adlı baş plana əsasən 1 mövzu üzrə 3 iş yerinə yetirilmişdir.

6 beynəlxalq səviyyəli tədbir keçirilmişdir. Fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərli mətbuatda fəlsəfi düşüncə tarixində türkçülüyün təbliğinə yönəlmiş çıxışlar etmişdir.

Hesabat ilində bölmənin həqiqi və müxbir üzvlərinin, eləcə də digər alimlərin elmi fəaliyyəti dövlət və digər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir.

---

*Aktual müsahibə*

# Folklor Azərbaycan ədəbi dilinin qaynar çeşməsidir

**Azərbaycan dilinin saflığının qorunması təkcə dilçilik və yaxud mədəniyyət sahəsinin problemi deyil, birbaşa milli kimlik, dövlətçilik və tarixi yaddaş məsələsidir. Prezident İlham Əliyevin həm AMEA-nın 80 illik yubileyindəki proqram xarakterli çıxışında, həm də bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirlər, əslində, müasir Azərbaycan humanitar elmləri üçün strateji yol xəritəsidir. Dövlət başçısı çox aydın şəkildə vurğulayıb ki, dil milləti millət edən əsas amildir və Azərbaycan dilinin qorunması hər bir vətəndaşın borcudur. Bu mövqe dilçi alimlər, jurnalistlər və müəllimlər üçün əsas istinad nöqtəsidir.**

**AMEA-nın Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hikmət Quliyevlə** söhbətimiz ana dilinin saflığının qorunmasında folklor örnəklərinin rolu barədədir. O, əvvəlcə ötən həftə Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransı xatırlatdı:

– Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin yerləşdiyi tarixi binada, eyni salonda düzənlənən mötəbər beynəlxalq konfransda həmin ali məclisin Türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul etdiyi xatırlandı, xüsusi vurğulandı ki, Birinci Türkoloji Qurultay XX əsrdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşüb. Bu gün də aktual olan məsələlərə diqqət yetirilib və türkoloji sahədə yeni istiqamətləri müzakirə edildi. Təbii ki, ortaq dilin təşəkkülünə təsir edən ortaq folklor mənbələri də sərf-nəzər olundu.

***– Hikmət müəllim, dilin lüğət tərkibinin genişlənməsində, onun saflığının qorunmasında xalq yaradıcılığının və folklorşünaslığın önəmi nədən ibarətdir?***

– Azərbaycan dili sadəcə ünsiyyət vasitəsi deyil, xalqın kollektiv yaddaşının, dünyagörüşünün, mədəni davranış kodlarının daşıyıcısıdır. Sübuta ehtiyac yoxdur ki, nağıl, dastan, və bayatılar, atalar sözləri, mərasim mətnləri Azərbaycan dilinin ən saf, ən təbii nümunələridir. Bu mənada folklor dilin "canlı sistemi"dir, – demək, məncə, yanlış olmaz. Xalq əsrlər boyu müstəmləkəçilik şəraitində yaşasa da, məhz folklor vasitəsilə öz dilini, düşüncə tərzini və milli özünüdərkini qoruyub saxlayıb. Cənab Prezidentin də vurğuladığı kimi, bu, xalqımızın böyüklüyünün və mədəni müqavimət gücünün bariz göstəricisidir.

Bu gün qloballaşma, internet və sosial şəbəkələr vasitəsilə yad sözlərin dilə daxil olması isə reallıqdır. Lakin burada əsas məsələ prosesin kortəbii şəkildə deyil, milli mədəni şüur əsasında idarə olunmasıdır. Cənab Prezidentin də vurğuladığı kimi, xarici sözlər dilimizi zənginləşdirmir, əksinə, damcı-damcı milli kimliyi sarsıdır. Düşünürük ki, folklor təfəkkürü bu baxımdan mühüm bir filtr rolunu oynaya bilər. Çünki folklor dili normativ qaydalarla formalaşmış süni dil deyil, xalqın əsrlər boyu yaşantısı, dünyagörüşü və kollektiv yaddaşı əsasında təşəkkül tapmış milli emosional-ekspress dildir. Folklorun leksikası, sintaksisi, obrazlılığı və semantik strukturu Azərbaycan dilinin daxili imkanlarının nə qədər geniş, çevik və ifadəli olduğunu nümayiş etdirir. Məhz bu təbii dil təcrübəsi milli dil şüurunun qorunmasında, yad təsirlərin ayırd edilməsində etibarlı mədəni mexanizm kimi çıxış edə bilər. Odur ki, ədəbi dilin, eləcə də gündəlik ünsiyyət dilinin zənginləşməsində xalqın milli kimliyinin dərin qatlarını özündə ehtiva edən folklor mətnlərinin böyük potensialı var.

Folklor yalnız mətn yox, intonasiya, ritm, metafor və kollektiv emosiyadır – bunlar isə yad dil strukturlarına ən çox həssas olan elementlərdir. Yəni istər ölkə daxilində, istərsə də xaricdə yaşayan azərbaycanlılar üçün yad dil və yad mədəni təsirdən qaçmağın mühüm şərtlərindən biri təbii ünsiyyət, milli intonasiya və ritm, kollektiv kimlik və başqa milli stereotiplərin şüuri və qeyri-şüuri şəkildə yaşadığı folklor mənbələrinin potensialından istifadənin genişləndirilməsidir.

Folklor mətnlərindəki təbiilik təkcə milli dillə bağlı deyildir. Burada dil mətnin üst qatıdır. Mətnin alt qatı vasitəsilə ötürülən informasiyada isə milli kimlik, cənab Prezidentin vurğuladığı kimi, "milləti millət edən" dəyərlər sistemi mövcuddur. Odur ki, hazırki qloballaşma və virtuallaşma çağında milli



dilin və milli kimliyin təhlükəsizliyinin təmin olunmasında milli folklor təfəkkürü, xalq düşüncə sistemi böyük potensiala malikdir.

***– Bəs, dilin qorunması ilə bağlı praktiki fəaliyyət nədən ibarət olmalıdır?***

– Bu fəaliyyət 2 mərhələ təşkil edə bilər: 1-cisi yad dil və yad mədəni təsirin aşkarlanması, 2-cisi yad dil və yad mədəni təsirə qarşı milli, daxili immunitet sisteminin formalaşdırılması. Biz "folklor təfəkkürü "filtr" rolunu oynaya bilər" fikrini deyərkən, folkloru yad təsirlərin seçilməsi və ayırd edilməsində etibarlı mədəni mexanizm kimi irəli sürürük. Eyni zamanda, hesab edirik ki, dil, davranış, düşüncə və sair səviyyələrdə yad mədəni təsirdən qorunmağın mühüm amillərindən biri olan folklor təfəkkürü dilin daxili immunitetini üzə çıxarır. Necə ki, immunitet sistemi orqanizm üçün yad və təhlükəli elementləri tanıyır və onlara qarşı müqavimət formalaşdırır, folklor təfəkkürü də dil üçün milli düşüncə sisteminə yad olan təsirləri sezərək onları ayırd etməyə imkan verir.

Nəticə etibarilə demək olar ki, folklor təfəkkürü Azərbaycan dilinin tarixi yaddaşda sınaqdan çıxmış təbii formalarına söykənərək, qloballaşma şəraitində dilin milli kimliyini qorumağa xidmət edən təbii-mədəni süzgəc funksiyasını yerinə yetirir. Burada söhbət inzibati nəzarətdən və ya normativ məhdudiyyətlərdən deyil, xalqın əsrlər boyu formalaşmış düşüncə və ifadə vərdişlərinə əsaslanan daxili seçmə mexanizmindən gedir.

***– Şübhəsiz ki, dilin saflığının qorunması yalnız qadağalarla və ya inzibati mexanizmlərlə deyil, milli dil şüurunun güclənməsi ilə mümkündür.***

– Elədir ki, var. Bu istiqamətdə də folklorun potensialından istifadə aktualdır. Xüsusilə gənc nəsil üçün folklor nümunələrinin müasir formatlarda – rəqəmsal platformalarda, vizual və interaktiv vasitələrlə təqdim edilməsi Azərbaycan dilinə marağı artırmaqla yanaşı, onu gündəlik ünsiyyətdə yaşadan amilə çevirə bilər.

Ümumilikdə, demək istərdim ki, Azərbaycan dilinin saflığının qorunması təkcə dilçi alimlərin işi deyil. Bu, yazıçıların, jurnalistlərin, folklorşünasların, ümumilikdə ziyalıların və cəmiyyətin bütün təbəqələrinin ortaq məsuliyyətidir. Cənab Prezidentin dediyi kimi, əgər biz əsrlər boyu müstəmləkəçilik şəraitində dilimizi qoruya bilmişiksə, bugünkü müstəqil dövlət şəraitində onu daha yaxşı qorumaq daha müqəddəs borcumuzdur. Folklor isə bu missiyanın həm tarixi dayağı, həm də gələcəyə yönəlmiş ən etibarlı mədəni yaddaş mexanizmidir.

***– Bir qədər də institutunuzun bu günlərdə BDU-nun filologiya fakültəsi ilə keçirdiyi birgə elmi sessiya barədə danışmağı xahiş edirəm.***

– Həmin sessiya 21 Fevral Beynəlxalq Ana Dili Gününə həsr olunmuşdu və "Ana dilinin saflığının qorunması: qloballaşma dövründə milli kimlik və dil" mövzusunu əhatə edirdi. Məclisə elmi ictimaiyyət nümayəndələri, alimlər və tələbələr qatılmışdı. Əvvəlcə Folklor Studiyasının hazırladığı "Ana dilimiz milli varlığımızdır" adlı videoçarx nümayiş olundu. Sonra BDU-nun fakültə dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin Məmmədov çıxışında qeyd etdi ki, ana dilinin qorunması istiqamətində dövlət səviyyəsində mühüm yanaşmalar formalaşdırılıb və bu kontekstdə Akademiyanın 80 illik yubileyində dövlət başçısının dilin saflığı ilə bağlı səsləndirdiyi fikirlər xüsusi əhəmiyyət daşıyıb. Dekan dilin yad təsirlərdən qorunması, saflığının təmin edilməsi məsələsinin strateji vəzifə kimi dəyərləndirildiyini vurğuladı. Problemlərin daha çox təhsil prosesində və media mühitində özünü göstərdiyini, məktəblərdə dilin düzgün tədrisi və mediada ədəbi dil normalarına riayət olunması istiqamətində sistemli və məqsədyönlü tədbirlərin həyata keçirilməsi zərurətini diqqətə çatdırdı.

Mən öz çıxışımda qeyd etdim ki, Prezidentin çağırışı bütün aidiyyəti qurumların qarşısında mühüm vəzifələr qoyub. Dil, ədəbiyyat və mədəniyyət tarixən dövlətçiliyin əsas atributları kimi çıxış edib, dövlət isə dilin qarantı və himayəçisi funksiyasını yerinə yetirib. Bu, öz-özünü təşkil edən təbii sistem olsa da, müasir dövrdə ona müxtəlif formalarda müdaxilələr müşahidə olunur və bu proseslər elmi yanaşma tələb edir. Həmçinin ana dilinin saflığının qorunmasının institusional aspektlərinə toxunaraq, təhsil prosesində dilin düzgün mənimsədilməsinin, dərslik və dərs vəsaitlərinin keyfiyyətinin yüksəldilməsinin, eləcə də uşaq sənayesinin – cizgi filmləri, uşaq ədəbiyyatı, uşaq folkloru və dərgilərin yüksək səviyyədə təşkilinin vacibliyini bildirdim.

Elmi sessiyada bizim institutun əməkdaşları da məruzələrlə çıxış etdilər. Şöbə müdirimiz – filologiya elmləri doktoru, dosent Ağaverdi Xəlil "Qloballaşma şəraitində ədəbi dil və akademik yazı", aparıcı elmi işçimiz – filologiya üzrə fəlsəfə doktoru Əpoş Vəliyev "Sosial şəbəkələrin Azərbaycan ədəbi dilinə təsirləri: dilin saflığının qorunması yolları", böyük elmi işçimiz Zəfər Fərhadov isə "Folklor Azərbaycan ədəbi dilinin potensial qaynağı kimi" mövzusunda çıxışlar etdilər. Digər amillərlə yanaşı, milli-mənəvi yaddaşın daşıyıcısı olan folklorun müasir ədəbi dil üçün çox zəngin və tükənməz mənbə rolunu oynadığı da ətraflı şəkildə əsaslandırıldı.

Bir daha vurğulayım ki, dilin saflığı məsələsi yalnız normativ qaydalara riayət çərçivəsində məhdudlaşmır, bu, eyni zamanda, milli kimlik məsələsidir və milli məzmunun qorunması ilə birbaşa bağlıdır. Bu kontekstdə folklor həm ölkə daxilində, həm də diaspor mühitində yaşayan azərbaycanlıların milli-mənəvi dəyərlər əsasında formalaşmasında müstəsna rol oynayır. Biz də bu istiqamətdə daha ardıcıl və səmərəli işlər həyata keçirməyi nəzərdə tuturuq.

*Müsahibəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

# AMEA: milli zəka mərkəzi



## I MƏQALƏ

### Elmin gündəmi

Sosio-humanitar elmin bəşəriyyət üçün gündəmi insan amili ilə bağlıdır. İnsanın fərd olaraq azadlığı, rifahı, mədəni, sosial, mənəvi-əxlaqi, maliyyə və iş təminatı kimi məsələlər olduqca aktual problemlər hesab olunur.

Müasir qloballaşma elə vəziyyət yaratmışdır ki, elmin gündəmində insanların birgəyaşam forması olan cəmiyyətin tədqiqi də insanın rifahı naminə çox əhəmiyyətli və aktual problem kimi qəbul edilir.

Burada maraqlı olan məqamlardan biri ondan ibarətdir ki, dünyanın elmi baxımdan ən çox inkişaf etmiş ölkələrində belə birdəfəlik elmdən, təhsildən, alimlərdən razılıq yoxdur. Elm və alimlər daim tənqid edilir, onlara çox müxtəlif iradlar tutulur.

Görünür, burada elmin özünün insan həyatına gətirdiyi rasional tənqidi düşüncə tərzi "bumeranq" kimi geri qayıdır. Hər bir halda, elm tənqid edir və tənqid olunur və bu dinamikanın fonunda bəşər övladı yeni-yeni kəşflərə imza atır.

Elmin tənqidi Barak Obamanın 2009-cu ildəki Amerika Milli Elmlər Akademiyasının illik yığıncağında söylədiyi tarixi nitqində, hazırda D.Trampın müxtəlif kontekstlərdə ifadə etdiyi təhsilin tənqidində, Avropa Elm Cəmiyyətinin uzun müddət başçısı olmuş alimin Aİ-də elm və təhsilin digər aparıcı ölkələrdən geridə qaldığı haqqında tənqidi məqaləsində və digər çoxlu sayda yanaşmalarda özünü göstərir. Bir zamanlar Edmund Husserl də Avropa elmində "böhran"dan yazırdı və onu həyati əhəmiyyətli ekzistensial məsələlərə diqqət yetirməməkdə tənqid edirdi.

Başqa nümunələr də kifayət qədərdir. Ancaq bütün bu kimi tənqidlərdə əsas məqsədin elmi yeni səviyyəyə yüksəltməyin yollarını axtarmağa stimullaşdırmaq olduğundan, tənqidçilər qeyri-ciddi davranmır və alimləri yaradıcılığa aidiyyəti olmayan ucuz məsələlərə görə ittiham etmirdilər.

Alimliyi aşağılamağın paparassi üsulu qətiyyən qəbuledilməz bir haldır. Bu, bütövlükdə cəmiyyətin yaradıcı potensialını baltalamaq və onu cahillik bataqlığına sürükləmək cəhdidir. Bunu məhz Amerika və Avropada çox gözəl anlayırlar.

Başqa bir məqam daha önəmlidir. Qərbin inkişaf etmiş ölkələrində elm və təhsili cəmiyyətə daha səmərəli xidmət kontekstində "xeyirxah tənqid" edirlər. Onlar anlayırlar ki, elm mahiyyətcə fəzilətlidir və ona qarşı münasibət də həmin fəzilətlilik çərçivəsində olmalıdır. Alim bütün hallarda cəmiyyətin seçkin, nüfuzlu və dərin sayğıya layiq kəsimi olaraq qəbul edilməlidir.

Burada ulu öndər Heydər Əliyevin Azərbaycan elmi və alimləri haqqında ifadə etdiyi çoxlu sayda müdrik kəlamlarını xatırlaya bilərik. Onlar haqqında elmi ədəbiyyatlarda və KİV-də kifayət qədər informasiya vardır. Heydər Əliyev daim AMEA-ya yüksək elmi qiymət vermiş və ona inamını ifadə etmişdir. Prezident İlham Əliyev bu xətti inkişaf etdirir və AMEA-nı Azərbaycan elminə daha səmərəli töhfə verməsinə səsləyir. AMEA-nın 80 illik yubileyində söylədiyi dərin məzmunlu nitqində verdiyi tövsiyələr bunu sübut edir. Yəni Azərbaycan dövlət başçısı yüksək fəzilət çərçivəsində Azərbaycan alimlərini ölkənin və cəmiyyətin faydası naminə daha fəal çalışmağa, azərbaycançı olmağa dəvət edir.

### Alimliyin və elmiliyin saxta tənqidi

AMEA da daxil olmaqla, indi Azərbaycanda müəyyən dairələrin alimlərə və elmiliyə münasibətində bir xüsusiyyət hiss olunur. Onlar Azərbaycan alimlərinin yaradıcılığı ilə minimum səviyyədə tanış olmaq fonunda onu maksimal səviyyədə nələrdəsə ittiham etməyə cəhdlər edirlər. Bu zaman Azərbaycanın artıq həyatda olmayan və bu baxımdan kimsəyə rəqib ola bilməyəcək ziyalılarımızın yaradıcılığını nümunə kimi göstərməyə çalışırlar. Onlar Xudu Məmmədovun, Azad Mirzəcanzadənin, Yusif Məmmədəliyevin və digər tanınmış Azərbaycan alimlərinin adlarını çəkirlər (onlardan AMEA həmişə öyrənmiş və bununla qürur duymuşdur).

Ancaq indi tənqidlə kükrəyənlər sırasında olanlardan elə bir nümunəyə rast gəlinmir ki, böyük alimliklərindən danışdıqları ziyalılarımızın yaradıcılığı haqqında tutarlı təhlil aparsınlar. Bu olmasa, alimliyin böyüklüyü və ya kiçikliyi haqqında keçərli fikir bildirmək mümkün deyildir.

Bəs niyə bu əlamət yoxdur? Çünki Azərbaycan alimlərini oxumurlar və kütləvi bilməməzliyin fonunda hay-küy salırlar. Nəticədə, alimlər üçün çox vacib olan obyektiv tənqid kasadlığı yaranır. Bu tendensiya inkişaf etdikcə və şəxsi qərəzlik motivi yeni səviyyəyə qalxıb, daha kütləvi olduqca nəinki elm və təhsil, hətta bütövlükdə cəmiyyət itirməyə başlayır. Cəmiyyət öz-özünü nüfuzdan salmaq kimi təhlükəli psixoloji deqradasiyaya uğrayır. Çünki hər bir cəmiyyəti yaşadan və inkişaf etdirən dəyərlər sistemi ciddi zərər görür.

### Sosial, etik və intellektual dəyərlər

Dəyərlər, ümumiyyətlə, hər bir cəmiyyət üçün çox aktual mövzudur. O cümlədən müasir cəmiyyət üçün sosial, etik və intellektual dəyərlərin bir-birini tamamlaması, dəstək verməsi və birgə inkişaf etməsi həyati əhəmiyyətli məsələdir. Problemin özəlliyi onunla əlaqəlidir ki, müasir dövrdə intellektual dəyərlərini qiymətləndirə bilməyən toplumsal dayanıqlı və müsbət funksiyalı sosial və etik dəyərlər oturuşa bilmir.

Yəni intellektin milli sərvətə çevrilməsi üçün yalnız rəsmi münasibət kifayət etmir, cəmiyyətin bunu özlüyündə dərk etməsi çox vacibdir. Cəmiyyət intellekti özünün inkişaf mənbəyi kimi görə bilirsə, intellektual dəyələr avtomatik olaraq sosial və etik dəyərlərin aparıcı meminə çevrilir. Bu baş verənə "intellekt incimir", əksinə, bütövlükdə cəmiyyət üçün nümunə olmağa can atır. İntellekt bununla özünə dəyər verir, özünütəsdiq baş tutur. Buna görə də toplumun intellektə münasibəti səthi və keçici hal deyildir – o daim çox dərin sosial-psixoloji qatlarda cəmiyyəti stimullaşdırır.

Nümunələrə baxaq. Əgər hər hansı cəmiyyətdə alimliyi və alimləri şəxsi münasibətlər fonunda "qiymətləndirmə" tendensiyası davamlı olursa, bu, gec və ya tez şəxsi təhqir müstəvisinə keçir. Təhqir obyektinə çevrilmiş alimlik və elmilik heç bir ölkədə inkişaf edib milli sərvətə çevrilə bilməz. Bu, sosial dəyərlər kontekstidir.

Əgər biri alimə edilmiş fəzilətli etik davranışı yaltaqlıq və ya alimin tələbi kimi təqdim edirsə, həm Azərbaycan milli ənənəsinə, həm də ümumiyyətlə, müsbət davranış qaydalarına zərər verir. Xüsusilə, Azərbaycanda özündən böyükləri tənqid etmək qadağan deyildir, lakin həm də onlara hörmət ciddi tələbdir!

Açıq danışaq: hansı ailədə müəllimə, alimə, özündən yaşlı olana hörmətlə yanaşmağın pis olduğu deyilir? Çox nadir hallarda belə hal ola bilər. Lakin orta azərbaycanlı ailəsində dəqiq fəzilət təsəvvürü vardır: özündən böyüyə hörmət et!

Belə isə bir gənc əməkdaşın özündən böyük alimə hörmət əlaməti olaraq hansısa davranışını mənfi anlamda kütləvi tirajlamağın adı nədir? Və ya AMEA-nın illik yığıncağında deyilən fikirləri zərrə qədər də təhlil etmədən (və ya buna intellektual gücü çatmayan) kiminsə alimin oturuşu, duruşu, baxışı üzərində antidəyər ruhunda spekulyasiyalar etməyi necə qiymətləndirmək olar? Bəziləri hətta təbdir zalındakı "tozların ruhuna müdrikcəsinə baş vurur" və belə qənaətə gəlirlər ki, iclas maraqsız keçmişdir!

İnciməyin, lakin insafən deyin: AMEA-da işləyən hansı akademikin yaradıcılığı ilə əməlli-başlı tanışsınız? Ünvan da göstərə bilərik: Nizami Cəfərovun azərbaycanşünaslıq haqqında yazdıqlarını sistemli oxuyursunuzmu? Ümumiyyətlə, bir Azərbaycan vətəndaşı kimi azərbaycançılıq və azərbaycanşünaslıqla bağlı ciddi elmi təsəvvürə maliksinizmi? Və ya İsa Həbibbəylinin bədii təfəkkürün dövrüləşdirilməsi konsepsiyası ilə tanışlığınız varmı? Akademik İ.Həbibbəylinin azərbaycançılıq və azərbaycanşünaslıq haqqında fikirləri ilə elmi səviyyədə tanışlığınız varmı?

Bəlkə, keçmişə baxaq? Xudu Məmmədovun naxışlarıla bağlı dərin elmi mənası olan nəzəriyyəsi haqqında nələri bilirsiniz? X.Məmmədov hər bir cəmiyyət üçün qürur mənbəyi olan alimlərdən idi! Onun qiymətini ümumi məclis tostları və səthi jurnalist təsəvvürlərindən o tərəfə verə bilənlərin sayı, görəsən nə qədərdir?

Bəlkə, Azad Mirzəcanzadənin ciddi elmi səviyyədə yaradıcılığı ilə tanış olanlarımız çoxdur? Bu böyük Azərbaycan alimi haqqında kimsənin ordan-burdan söhbət səviyyəsində eşitdikləri əsasında digərləri ilə müqayisəli şəkildə fikir bildirməsi etikanın və məsuliyyətin hansı tərəfindədir?

Akademik Rasim Əliquliyevin apardığı tədqiqatlardan xəbəri olan "tənqidçi" varmı? Hələ keçən əsrin 90-cı illərində R.Əliquliyevin həmkarı ilə Azərbaycan müdafiə sənayesi üçün böyük əhəmiyyəti olan ixtirasının qarşısının xarici dövlətlərdən biri tərəfindən necə alındığını araşdıran mövcuddurmu?

### Çətin dönüş

Bəli, indi Azərbaycanda faydalı tədqiqatla məşğul olmaq və mənsub olduğun qövmə xidmət etmək asan məsələ deyildir. Xüsusilə bunu bir təşkilat kimi həyata keçirmək yalnız savad və çalışqanlıq deyil, həm də iradə və azərbaycanlılığa dərin inam tələb edir. Azərbaycan rəhbərliyi bu mənada yüksək nümunədir.

Dövlətin başçısı müxtəlif istiqamətlərdən atılan şər-böhtana, sayğısız deyimlərə, səviyyəsiz hay-küylərə böyük qətiyyət və iradə ilə təmkinli yanaşır və həm də seçdiyi kursu inamla davam etdirir! Prezident İlham Əliyevin tarixi xidmətlərini bu millət və cəmiyyət heç zaman unutmayacaq. İşğal altında olan torpaqları kişi kimi və siyasi-hərbi müdrikliklə azad edən liderə qarşı belə davranışı heç zaman qəbul etməyəcəyik!

Azərbaycan Prezidenti alimlər üçün elə bir nümunədir ki, ən yüksək elmi məqsədlərə belə çatmağa yetər! O cümlədən AMEA seçdiyi yeniləşmə yoluna mütləq davam etməlidir! Qarşıda azərbaycançılıq və azərbaycanşünaslıqla, dünya elminə daha dərindən və geniş inteqrasiya ilə, Türk dövlətlərinin elmi mərkəzləri ilə, gənclərin daha fəal surətdə elmi yaradıcılığa cəlb edilmələri ilə, ən yeni informasiya texnologiyaları rəqəmsallaşma, kibertəhlükəsizliklə mübarizəylə bağlı görülməli çox işlər vardır! Alimlər ucuz şər-böhtana görə bu yoldan dönməzlər!

Ancaq bunların həyata keçirilməsinin nə qədər çətin olduğunu da anlayırıq. Çünki əsrlərlə Azərbaycan elmini və alimlərini başqa istiqamətə yönəltməyə çalışmışlar. Cəmiyyətə görünməyən o qədər saxta dəyərlər, memlər, maneələr yeritmişlər ki, onlardan təmizlənmək asan deyildir. Bir sıra sosial kəsimlərdə milli məsələlərə laqeydlik yaranmışdır. Bəziləri hansısa "kalonçu" olmuşdur. Bir başqaları şəxsi maraq əsasında intriqalar izindədirlər. Buna görə də fərdi təşkilati təşəbbüslərə qısqanclıq, hirs, gözü götürməzlik və müxtəlif üsullarla onların qarsısını almaq kimi cəhdlərə rast gəlinir. Onu hətta "Qarabağ" futbol klubuna bəzilərinin münasibətində gördük.

Nə etməli, bu, bizim taleyimizdir! Hətta qardaşların atdığı daşları "öpüb göz üstünə qoymağa" məhkumuq! Nəyin naminə? Vətən, müstəqillik, dövlətçilik, inkişaf naminə! Alimlər və elmi təşkilatlar üçün bu fəzilətliliyə "elm naminə" ifadəsini əlavə edə bilərik!

Bunların yeniləşmə kursunu müəyyən etmiş AMEA-ya, onun 25 fevral iclasına və bütövlükdə alimliyə birbaşa aidiyyəti vardır. Bunu həmin iclasda haqqında danışılan elmi məsələlərin məzmun və məqsədinə bir daha aydınlıq gətirməklə sübut etmək çətin deyildir. Bura azərbaycançılıq, azərbaycanşünaslıq, rəqəmsallıq, yeni informasiya texnologiyaları, kibertəhlükəsizliklə mübarizə, Azərbaycan tibb və biologiya elmlərinin nailiyyətləri, AMEA-nın tədqiqat institutlarını fəaliyyətlərinin elmmetrik təhlili kimi aktual və maraqlı mövzular daxildir! Əgər KİV konkret bu məsələlərdən yazsaydı, şübhəsiz, oxucu nəticə çıxarardı: yola davam, AMEA!

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azadlığın məhdudiyyətsiz təsəvvürü

**Azadlıq anlayışının ən geniş yayılmış təhriflərindən biri onun məhdudiyyətsizlik kimi başa düşülməsidir. Bu yanaşmada azadlıq hər cür sərhədin, qaydanın və normanın inkarı kimi təqdim olunur. Məhdudiyyət anlayışı azadlığın daxili şərti kimi deyil, ona qarşı yönəlmiş xarici təzyiq kimi qavranılır. Halbuki azadlıq heç vaxt boş məkanda mövcud olmur; o, həmişə digərlərinin eyni və ya başqa azadlıqları ilə yanaşı mövcuddur.**



Cəmiyyət fərqli maraqların, fərqli dünya görüşlərinin, fərqli həyat tərzlərinin eyni sosial məkanda toqquşmadan birgə mövcud ola bilməsinə əsaslanır. Bu reallıqda heç bir azadlıq mütləq ola bilməz. Bir fərdin azadlığı digərinin hüquqi mövqeyinə daxil olduğu anda azadlıq ləğv olunmur, lakin tənzimləmə tələb edən münasibətə çevrilir. Tənzimləmə olmadıqda isə azadlıq bərabər imkan olmaqdan çıxaraq faktiki üstünlüyə çevrilə bilər.

Məhz bu baxımdan "Mənim azadlığım sənin azadlığının başladığı yerdə bitir" ifadəsi təsadüfi şüar deyil; o, birgəyaşayışın elementar məntiqidir.

Azadlığın məhdudiyyətsiz təsəvvürünün hüquqi təcrübəyə yad olması təsadüfi deyil. Hələ 1789-cu il Fransız İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində azadlıq "başqasına zərər verməyən hər şeyi etmək imkanı" kimi müəyyən edilirdi. Bu formul təsdiq edir ki, sərhəd sonradan əlavə edilən inzibati mexanizm deyil; azadlıq anlayışının özündə mövcuddur.

Deməli, azadlıq başlanğıcdan etibarən münasibət kateqoriyasıdır. O, tək subyektin sərbəstliyi deyil, müxtəlif iradələrin birgə mövcudluq şərtidir. Bu şərt nəzərə alınmadıqda azadlıq ümumi hüquq olmaqdan çıxaraq fərdi üstünlüyə çevrilir. Hüquq məhz burada meydana çıxaraq fərqli azadlıqları bir-birinə qarşı deyil, bir-biri ilə yanaşı mövcud ola bilməsini şərtləndirir.

Klassik hüquq fəlsəfəsində azadlıq heç vaxt məhdudiyyətsiz iradə kimi başa düşülməmişdir. Kant hüququ azadlığın qarşısına qoyulan maneə deyil, onun ümumi və bərabər ölçüsü kimi təsəvvür edirdi. Onun yanaşmasında hüquq fərdin istədiyini etməsi deyil, azadlığın hər kəs üçün eyni miqyasda mümkün olmasıdır. Başqa sözlə, hüquq azadlığı azaldan deyil, onu bərabər paylayan normativ çərçivədir. Burada qayda azadlığın xarici düşməni deyil, onun ictimai məkanda mümkün olmasının şərtidir. Çünki fərqli fərdlərin iradələri eyni sosial mühitdə toqquşmadan mövcud ola bilməz; azadlıq yalnız qarşılıqlı uzlaşdırma şəraitində davamlı məna qazanır.

Məhdudiyyətsiz azadlıq təsəvvürünün daxili ziddiyyəti müasir siyasi fəlsəfədə paradoks formasında ifadə olunmuşdur. Karl Popper "dözümlülük paradoksu"nu izah edərkən göstərirdi ki, əgər dözümlülük sərhədsizdirsə, o zaman dözümsüz qüvvələr ondan istifadə edərək dözümlülüyün özünü məhv edəcək. Eyni məntiq azadlıq anlayışına da tətbiq edilə bilər. Əgər azadlıq məhdudiyyətsizdirsə, o zaman güclü, təşkilatlanmış və resurslara malik subyektlər bu "məhdudiyyətsizliyi" zəiflərin əleyhinə istifadə edəcək və nəticədə ümumi azadlıq daralacaq.

Beləliklə, azadlığın sərhədləri onun zəiflədilməsi deyil, onun özünü məhv etməsinin qarşısını alan mexanizmdir. Məhdudiyyətsizlik azadlığın genişlənməsi deyil, onun strukturunun dağılması riskini daşıyır. Paradoks ondan ibarətdir ki, azadlığı qorumaq üçün müəyyən hədlər zəruridir; əks halda, azadlıq öz əksinə çevrilə bilər.

Müasir hüquq nəzəriyyəsi də bu klassik mövqeni funksional müstəvidə təsdiqləyir. Lon Fuller hüququ məcburiyyət mexanizmi kimi deyil, insan davranışını mümkün edən və sosial münasibətləri koordinasiya edən normativ struktur kimi şərh edir. Bu baxımdan qanun azadlığı boğan xarici güc deyil, azadlığın real həyatda ardıcıl və proqnozlaşdırıla bilən şəkildə həyata keçirilməsini təmin edən institusional çərçivədir.

Azadlığın məhdudiyyətsiz təsəvvürü isə bu uzlaşdırma mexanizmini nəzərə almır. Azadlıq münasibət kimi deyil, tək subyektin iddiası kimi təqdim olunur. Bu zaman hüquqi çərçivə aradan qalxır və fərqli maraqların balansı əvəzinə toqquşma meydana çıxır. Qayda olmadıqda azadlıq bərabər bölüşdürülmür; onu daha güclü, daha təşkilatlanmış və ya daha aqressiv tərəf mənimsəyir.

XX əsrin sonlarında postsovet məkanında yaşanan proseslər bunu aydın göstərdi. Mərkəzi sistem dağıldı, amma yeni hüquqi mexanizmlər hələ formalaşmamışdı. Məhdudiyyətlər aradan qalxdı, lakin qaydalar bərqərar olmadı. Formal azadlıq genişləndi, lakin faktiki təhlükəsizlik zəiflədi. Nəticədə, azadlıq fərqli maraqların harmoniyası deyil, müxtəlif güc qruplarının qarşıdurması şəklini aldı.

Azərbaycanın 1990-cı illərin əvvəllərində yaşadığı mərhələ də bu mənzərəni təsdiqləyir. Azadlıq imperiyadan ayrılma şüarı ilə təqdim olunurdu. Lakin ictimai və hüquqi institutlar zəif, siyasi təcrübə məhdud, təhlükəsizlik sistemi qeyri-sabit idi. Azadlıq anlayışı hüquqi münasibət kimi deyil, emosional çağırış kimi səslənirdi. Məhdudiyyətsiz azadlıq təsəvvürü nəticədə nizamsızlıq, iqtisadi dağınıqlılıq və ictimai qarşıdurmalarla müşayiət olundu.

Sonrakı mərhələdə məhz ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində ictimai münasibətlərin hüquqi çərçivəyə salınması, sabitliyin bərpası və institutların möhkəmləndirilməsi azadlığın real məzmun qazanmasına şərait yaratdı. Bu proses göstərdi ki, azadlıq təkcə qadağaların aradan qaldırılması deyil; o, fərqli maraqların hüquqi şəkildə uzlaşdırılmasıdır. Qayda olmadan azadlıq davamlı olmur.

Azərbaycanın son onilliklərdəki inkişaf trayektoriyası da göstərir ki, azadlıq məhdudiyyətsiz davranış deyil, qayda daxilində təmin olunan imkan deməkdir. Prezident İlham Əliyevin rəhbərliyi dövründə hüquqi sistemin təkmilləşdirilməsi, ictimai təhlükəsizlik mexanizmlərinin gücləndirilməsi və inzibati idarəetmənin modernləşdirilməsi azadlığın spontan və nizamsız hərəkət sahəsi kimi deyil, proqnozlaşdırılan və qorunan hüquqi status kimi möhkəmlənməsinə xidmət etdi. Bu yanaşma azadlığı "hər kəsin istədiyini edə bilməsi" kimi deyil, fərqli maraqların birgəyaşayış qaydaları çərçivəsində uzlaşdırılması kimi təqdim edir. Qanun-qayda burada qadağa deyil, sosial harmoniyanın şərtidir.

Beləliklə, azadlığın məhdudiyyətsiz təsəvvürü azadlığı genişləndirmir. Əksinə, onu münasibət kateqoriyasından çıxararaq fərdi iddiaya çevirir. Cəmiyyət daxilində azadlıq yalnız hüquq vasitəsilə bərabər və davamlı şəkildə mövcud ola bilər. Məhdudiyyətsizlik isə çox vaxt azadlığın yox, qarşıdurmanın başqa adıdır.

*(ardı var)*

***Mehdi ABDULLAYEV,***
***hüquq elmləri doktoru,***
***Dövlət İdarəçilik Akademiyası dövlət idarəçiliyinin hüquqi təminatı kafedrasının müdiri***

# “Neft bumu hamıya gülümsəyir” tamaşasının təqdimatı





**Milli Gənc Tamaşaçılar Teatrında Xalq yazıçısı Maqsud İbrahimbəyovun “Neft bumu hamıya gülümsəyir” pyesi əsasında hazırlanan eyniadlı tamaşa nümayiş olunub.**

Yazıçının yaradıcılıq irsinə həsr olunmuş, 2025-ci ilin noyabrından 2026-cı ilin fevralınadək davam edən və Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən “Neft bumu hamıya gülümsəyir” festivalı çərçivəsində təqdim olunan tamaşanın nümayişində Leyla Əliyeva da iştirak edib.



Səhnə əsərinin quruluşçu rejissoru Konstantin Soldatov, quruluşçu rəssamı Çingiz Babayev, xoreoqrafı Nigar İbrahimbəyli, səs dizaynı isə Konstantin Soldatov və Platon Soldatovdır.

Tamaşada Əməkdar artistlər Şövqi Hüseynov, Elnur Hüseynov, Rasim Cəfər, aktyorlar Bəhram Həsənov, Asya Atakişiyeva, Kərəm Hadızadə, Səbinə Məmmədzadə, Nurlan Süleymanlı, Manaf Dadaşov, Şəbnəm Hüseynova, Rəşad Səfərov, Ceyhun Məmmədov, Natiq Fərzəliyev, Ümman Budaqov, Mirzəağa Mirzəyev, Ramiq Nəsirov, Ədalət Əbdülsəməd, Hüseyn Bayramov və Mehriban Hüseynova çıxış ediblər.

Sonda Leyla Əliyeva tamaşanın yaradıcı heyəti ilə görüşüb.

Qeyd edək ki, “Neft bumu hamıya gülümsəyir” festivalı Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin layihəsidir.

***XQ***

# Ombudsman Aparatında “Susmayan həqiqətlər” sərgisi



**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) təşəbbüsü ilə Ombudsman Aparatında 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş “Susmayan həqiqətlər” mövzusunda sərginin açılış mərasimi keçirilib.**



Sərgidə nümayiş olunan arxiv sənədləri, fotoşəkillər və digər materiallar azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı və deportasiya siyasətinin miqyasını və ağır nəticələrini əyani şəkildə əks etdirir. Materialların tarixi yaddaşın qorunmasına, insan hüquqları sahəsində ictimai məlumatlılığın artırılmasına və beynəlxalq ictimaiyyətin obyektiv məlumatlandırılmasına xidmət etdiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, azərbaycanlılara qarşı törədilmiş insanlıq əleyhinə cinayətlərin ombudsman tərəfindən sənədləşdirilməsi, beynəlxalq təşkilatlara müvafiq hesabat və müraciətlərin təqdim olunması istiqamətində fəaliyyət ardıcıl şəkildə davam etdirilir. “Susmayan həqiqətlər” sərgisi də bu fəaliyyətin tərkib hissəsi olaraq tarixi ədalətin bərpasına və insan hüquqlarının müdafiəsinə töhfə verməyi hədəfləyir. Sərgi martın 31-dək ziyarətçilər üçün açıq olacaq.

***XQ***

*I Türkoloji Qurultay – 100*

# Bakı məclisinin yubileyinə Türk qardaşlığı töhfəsi

**Xəbər verdiyimiz kimi, fevralın 27-də AMEA Rəyasət Heyətində fəaliyyətə başlamış I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik” mövzusunda beynəlxalq elmi konfransın ikinci günü panel iclasları ilə davam etdirilib.**



İclaslarda Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Rusiya, Macarıstan, Almaniya, Polşa və Gürcüstanı təmsil edən dilçilər, tarixçilər, etnoqraflar, ədəbiyyatşünaslar və mədəniyyət tədqiqatçıları türkologiya elminin aktual problemlərini müxtəlif elmi məktəblərin baxış bucağından təqdim ediblər.



Türk Dil Qurumunun rəhbəri, professor Osman Mert və Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri, dosent Telman Nüsrətoğlunun moderatorluğu ilə keçirilən “Əli Bəy Hüseynzadə” panelində “Bakı Türkoloji Qurultayının 100 illiyinə ərməğan: Türk Dünyası Rəqəmsal Kitabxanası - Turcology.com”, “Göktürk xaqanlığının quruluş mərhələləri və müasir Türk dünyasına təsirləri”, “Türkoloji Qurultayın iki vacib amili: Rus bolşevizmin “dünya proletar inqilabı” və Şərqdə “mədəni inqilab” xəyalı”, “Türkiyədə Atilla və Avropa hunları ilə bağlı aparılan tədqiqatların qiymətləndirilməsi”, “Divanü lüğat-it-türkə əsasən Argular və Arguca haqqında qiymətləndirmələr” və “Çarlıq və Sovet rejimlərində Rusiyanın Türk xalqlarına qarşı müstəmləkəçi dil siyasəti” adlı məruzələr dinlənilib.

Türkiyənin Marmara Universitetinin professoru Okan Yeşilotun və Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədlinin moderator olduğu “Mahmud Qaşqarlı” adlı panel iclasında isə “Rusiyada türk xalqlarının mətbuatında ortaq ədəbi dilin istifadəsi (1883-1930-cu illər arasında)”, “Birinci Türkoloji Qurultay arxiv sənədlərində”, “Qurultaydan günümüzə qədər: Türk etimologiyası tədqiqatları”, “Türkoloji Qurultayın mədəniyyət müharibəsində yeri”, “Avrasiyanın tarixi coğrafiyasında toponimiya tədqiqatına təklif: Tabula (TIR və TIB) nümunəsi” və “1926-cı il Bakı Türkologiya Konqresi: Türkologiyanın əhatə dairəsi və fənlərarası sərhədləri” adlı məruzələr təqdim olunub.

Məruzələrdə Birinci Türkoloji Qurultayın elmi irsi sistemli şəkildə yenidən dəyərləndirilib, müasir türkoloji tədqiqatlar üçün yeni metodoloji yanaşmalar irəli sürülüb.

***Konfransın ilk günündə xüsusi təltifetmə mərasimi də keçirilib. Azərbaycan mətbuatının Türkiyədə tanınmış tədqiqatçıları – Egey Universitetinin professoru Yavuz Akpınar və həmin universitetin Türk ləhcələri və ədəbiyyatları kafedrasının müdiri Yılmaz Özkayaya “Azərbaycan milli mətbuatının 150 illiyi” yubiley medalı təqdim olunub.***

Türkiyənin İzmir şəhərində nəşr olunan “Yeni gün” qəzeti isə I Türkoloji Qurultayın 100 illiyinə və Türk dünyasını birləşdirən yeni layihələrə həsr olunmuş məqalələr silsiləsinə görə Azərbaycan Mətbuat Şurasının Fəxri diplomu ilə mükafatlandırılıb.

Təltifləri Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid təqdim edib.

Qeyd edək ki, İzmirdə nəşr edilən “Yeni gün” qəzeti 2005-ci ildən nəşr edilir və regional mətbuatın formalaşmasında mühüm yer tutur. Nəşr fəaliyyəti ilə regional mətbuatın inkişafına və cəmiyyətin dezinformasiyadan uzaq, etibarlı informasiya ilə təmin olunmasına xidmət edən mühüm media platformasıdır. Qardaş ölkənin bu populyar gündəlik nəşri Türk dünyasına həsr olunmuş silsilə yazıları ilə də seçilir, xüsusilə Azərbaycanın Türk dünyasına verdiyi elmi, mədəni və ictimai töhfələrin təbliğinə xüsusi yer ayırır. Qəzetin imtiyaz sahibi İzmirin tanınmış iş adamı Məsud Şimşəkdir.

***Fevralın 28-də beynəlxalq konfransın 7 panel iclasına Xəzər Universiteti ev sahibliyi edib.***

Ali məktəbin Mərmər salonunda keçirilən ümumi toplantıda qardaş və dost ölkələrdən gəlmiş məşhur, nüfuzlu türkoloqları və ölkə alimlərini salamlayan universitetin Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı belə bir tarixi məclisin Xəzər Universitetində keçirilməsinin olduqca məsuliyyətli və öyünclü hadisə olduğunu söyləyib..

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli isə Azərbaycan paytaxtında keçirilən beynəlxalq elmi konfransın I Türkoloji Qurultayın zəngin irsinə, bu gün də önəmli olan ideyalarına sevgi-sayğı və sədaqət əlaməti altında keçdiyini söylədi, panel iclaslarının işinə uğurlar arzuladı.

Günün birinci və ikinci yarısında keçirilən “İsmayıl bəy Qaspralı”, “Abay Kunanbayoğlu”, “Mağcam Cumbay”, “Yusif Akçura”, “Əhməd Cəfəroğlu”, “Nəsib bəy Yusifoğlu” və “Ayaz İshaki” panellərində I Türkoloji Qurultayın tarixinə, hədəflərinə, Türk dünyasının mədəni birliyinin müxtəlif məsələlərinə həsr edilmiş onlarla məruzə dinlənilib və geniş müzakirə edilib.

Məruzələrdə bildirilib ki, 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni inteqrasiyası, ortaq milli-mənəvi dəyərlərin formalaşdırılması və türkologiyanın müstəqil elmi istiqamət kimi inkişafı baxımından dönüş nöqtəsi kimi tarixə yazıldı. Qurultay XX əsrin əvvəllərində Türk dünyasında aktual olan dil, ədəbiyyat, tarix, mədəniyyət və təhsil problemlərini sistemli şəkildə gündəmə gətirməklə yanaşı, ortaq elmi düşüncə mühitinin yaradılmasına xidmət etmişdir. Təqdim olunan məruzələr humanitar və sosial elmlərin müxtəlif sahələrini əhatə etmiş, türkologiyanın gələcək inkişaf istiqamətləri üzrə konkret elmi yanaşmalar və təkliflər irəli sürülmüşdür.

Konfransın davamı olaraq Xəzər Universitetində keçirilən iclaslar, eləcə də beynəlxalq iştirakçılarla aparılan elmi müzakirələr göstərdi ki, bugünkü konfrans türk xalqlarının möhkəm elmi və mədəni əsaslar üzərində qurulmuş birliyinin daha da dərinləşdirilməsinə real töhfə verməklə, Türk dünyasının elmi tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bütün bunları beynəlxalq konfransın iştirakçılarının XQ-yə açıqlamaları da təsdiqləyir.

**Sərdar ÇAM, Türkiyə Respublikası mədəniyyət və turizm nazirinin müavini:**




– Bakıda keçirilən indiki beynəlxalq türkoloji elmi toplantı göstərir ki, şəhər bu gün də Türk dünyasının intellektual və elmi həyatında aparıcı mövqeyini qoruyub saxlayır. Bir əsr əvvəl I Türkoloji Qurultaya ev sahibliyi etmiş Bakıda yenidən eyni məkanda alimlərin bir araya gəlməsi təsadüfi deyil. Bu, keçmişin ideyaları ilə bu günün elmi gündəmi arasında canlı və davamlı bir körpü yaradır. Tarixi qurultayda formalaşmış elmi düşüncə, ortaq dil və mədəniyyət axtarışları bu gün artıq Türk dövlətlərinin geniş coğrafiyasında real əməkdaşlıq layihələri, birgə tədqiqatlar və akademik şəbəkələr şəklində öz bəhrəsini verir.

İlk Türkoloji Qurultayın iştirakçıları yalnız dövrünün problemlərini müzakirə etməmiş, eyni zamanda, gələcək nəsillər üçün ümumi elmi istiqamət və strateji baxış formalaşdırmışdır. Bu gün Türk dünyasında dil, tarix, mədəni irs, terminologiya və təhsil sahələrində aparılan inteqrasiya proseslərinin ideya kökləri məhz həmin tarixi toplantıya gedib çıxır.

Ona görə də bugünkü beynəlxalq konfransın yenidən Bakıda və tarixi məkanda təşkili türk xalqlarının elmi yaddaşına və ortaq irsinə verilən dəyərin bariz nümunəsidir. Belə toplantılar təkcə elmi nəticələrlə məhdudlaşmır, eyni zamanda, Türk dövlətləri arasında qarşılıqlı etimadın, mədəni yaxınlığın və gələcək strateji əməkdaşlığın möhkəmləndirilməsinə böyük əminlik yaradır. Qurultay iştirakçılarının ideya və fəaliyyəti bu gün türk dövlətlərinin geniş məkanında öz real əksini tapır. Bakı isə Türk dünyasının elmi mərkəzi kimi tarixi missiyasını yenidən yerinə yetirir.

**Kurşat ZORLU, Türkiyənin millət vəkili:**

– Türkdilli ölkələr arasında ünsiyyətin daha da möhkəmlənməsi üçün ortaq əlifbanın tətbiqi istiqamətində atılmalı olan addımlar elmi konfransın əsas məsələlərindən biridir. Heç bir vasitəçi olmadan anlaşan türkdilli dövlətlər eyni ailəyə mənsubdur və bu, bir-birimizlə əməkdaşlıq etmək üçün geniş perspektivlər yaradır. Gücümüz birliyimizdədir. Bu baxımdan elmi konfransdan gözləntilərimiz böyükdür.

Konfransda bu qədər iştirakçının, qonaqların olması məni çox sevindirdi. Birinci qurultayda cəmi 131 nəfər iştirak edirdisə, 100 illik yubiley münasibətilə keçirilən konfransda bütün Türk dövlətlərindən olan elm adamları, o cümlədən tarixçilər, dilçilər arxeoloqların iştirakı bayram əhvalı yaradır. 100 illik yubiley elmi konfransı türkologiyanın aktual məsələlərinin müzakirəsi üçün çox faydalı olacaq.

**Yunus KOÇ, Hacettepe Universiteti Türkoloji Araşdırmalar İnstitutunun direktoru, professor:**

– I Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri olmuşdur. XX əsrin əvvəllərində Bakı iqtisadi, ticari və mədəni baxımdan regionun aparıcı mərkəzlərindən biri kimi tanınmağa başlamışdı və bu amil qurultayın burada keçirilməsini şərtləndirən əsas səbəblərdən olmuşdur.



1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Türk dünyasının tanınmış alimləri, dilçiləri, tarixçiləri, şairləri, yazıçıları və digər görkəmli mütəfəkkirləri ilk dəfə bu miqyasda bir araya gələrək SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcəyə hesablanmış mühüm qərarlar qəbul etmişdir.

Məhz Birinci Türkoloji Qurultayın qərarları əsasında keçmiş Sovetlər Birliyinə daxil olan türk respublikalarında latın qrafikalı əlifbaya keçid prosesinə başlanılıb. Eyni zamanda, bu qurultayda ilk dəfə olaraq türk xalqlarının öz tarixi və mədəni irsi ilə bağlı elmi-tədqiqatların istiqamətləndirilməsinə dair sistemli yanaşma formalaşdırılıb.

Türkiyəli professor bildirib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinin yüksək səviyyədə qeyd olunması gələcək elmi araşdırmalar üçün də mühüm zəmin yaradır. Bu yubiley yalnız tarixi xatırlamaq deyil, həm də ideya varisliyini nümayiş etdirmək baxımından əhəmiyyətlidir.

1926-cı ildə qurultay iştirakçılarına “yoldaşlar” deyə müraciət olunurdu. Bu gün isə “qardaşlar” deyə müraciət edirik. Bu dəyişiklik Türk dünyasında ideoloji çərçivədən mənəvi və milli həmrəyliyə keçidin rəmzidir”.

**Ömər YILDIZ, Yunus Əmrə İnstitutu rəhbərinin müavini:**



– I Türkoloji Qurultayın 100 illiyi münasibətilə buradayıq. Türk dünyasının dörd bir yanından gələn fikir insanları ilə bir arada türk dilinin, sənətinin, elminin, mədəniyyətinin gələcəyini daha da irəliyə aparmaq, inkişaf etdirmək, ortaq dil, fikir, düşüncə üçün bir araya gəldik.

AMEA-nın binasında 100 il öncə toplanan alimlərimizlə eyni ruh, eyni qərarlılıq və eyni baxış Türk dünyasının gələcəyini şəkilləndirməyi hədəfləyirik. Bu yolda bizə dəstəyini əsirgəməyən hər kəsə təşəkkür edirik. AMEA-nın binasında toplanan alimlərimizlə Türk dünyasının gələcəyini şəkilləndirməyi hədəfləyirik.

***Tahir AYDINOĞLU,***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Musiqi arxivlərinin əmanətləri

## *Unudulmuş mahnılar yeni həyat qazanır*

**Bəzən bir misra kifayət edir ki, insanın yaddaşında iz qoysun. Sözləri tam xatırlanmayan, müəllifi və ifaçısı bilinməyən, amma melodiyası və ya bircə sətri illər sonra belə insanı keçmişə aparan mahnılar var. İllər əvvəl yaranmış bu mahnılar zaman keçdikcə, informasiya bolluğu, musiqi bazarının tələbləri və zövqlərin sürətlə dəyişməsi axarında kənarda qalıb. Müasir dinləyici üçün, sanki, yadlaşmış bu musiqilər işığa çıxarılmağa, yeni həyat qazanmağa möhtacdır.**

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti – 2040" konsepsiyasında əksini tapmış bu zərurət 2026–2030-cu illəri əhatə edən dövrdə qədim, klassik və müasir Azərbaycan musiqisinin, o cümlədən unudulmuş və ya heç vaxt ifa olunmamış əsərlərin sistemli şəkildə araşdırılmasını aktuallaşdıraraq gündəmə gətirib. Konsepsiya Azərbaycan mədəniyyətinin uzunmüddətli inkişaf strategiyasını müəyyənləşdirərək milli-mədəni irsin qorunmasını və müasir dövrün tələblərinə uyğun şəkildə təbliğini əsas hədəflərdən biri kimi irəli sürür. Bu yanaşma folklor nümunələrinin orijinal formada, yaxud müasir yanaşma ilə yenidən işlənərək audio və videoyazılar şəklində təqdim olunması, bu irsin yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından həlledici əhəmiyyət daşıyır.



Sənəddə vurğulanır ki, folklor musiqisi yalnız keçmişin mirası deyil, həm də canlı mədəni prosesdir. Bu baxımdan, qədim musiqi nümunələrinin müasir texnologiyalar vasitəsilə yenidən təqdim edilməsi, beynəlxalq platformalarda tanıdılması və mədəni irsin tərkib hissəsi kimi cəmiyyətə inteqrasiyası vacibdir.

Eyni zamanda, gənc ifaçı və tədqiqatçıların bu sahəyə cəlb olunması da ön plana çəkilir. Unudulmuş və ya az tanınan əsərlərin yenidən səsləndirilməsi, onların tarixçəsinin araşdırılması və geniş ictimaiyyətə təqdim olunması musiqi yaddaşımızın boşluqlarını doldura bilər. Bu isə Azərbaycan musiqisinin yalnız qorunmasını deyil, həm də davamlı inkişafını təmin edən mühüm amildir.

Unudulmanın səbəblərindən biri isə müəllif və ifaçı haqqında məlumatların sistemli şəkildə qorunmamasıdır. Bir çox mahnılar arxivlərdə qalıb, radio lentlərində itib-batıb və ya yalnız yaşlı nəslin xatirələrində yaşayır. Gənc nəsil isə bu musiqilərlə təsadüfi şəkildə – bəzən sosial şəbəkədə bir videoda, bəzən də ailə məclisində eşidilən bir misra vasitəsilə tanış olur.

Digər tərəfdən, ifaçıların seçimində də texniki və estetik faktorlar rol oynayır. Çətin notlar, geniş nəfəs tələb edən uzun frazalar, emosional yükü ağır olan mətnlər mahnı seçimində mühüm əhəmiyyət daşıyır. Müasir musiqi sənayesində isə daha çox asan qavranılan, tez yayılan və kommersiya baxımından uğur gətirən mahnılara üstünlük verilir. Bu isə dərin məna daşıyan, lakin ifası çətin olan əsərlərin kənarda qalmasına səbəb olur. Halbuki bu mahnılar dövrün ruhunu, insanların hisslərini, sosial və mədəni düşüncə tərzini əks etdirən sənədlərdir. Onların yenidən üzə çıxarılması, arxivlərin araşdırılması, gənc ifaçılar tərəfindən yeni interpretasiyada təqdim olunması milli musiqi irsimizin davamlılığını təmin edə bilər.

Bu sırada ilk olaraq XVIII əsrdə yaranmış Dərbəndli Fətəli Xanın mahnısı xüsusi yer tutur. Bu əsər Azərbaycan xalq musiqiləri içində ən erkən, 1817-ci ildə nota alınmışdır. Günümüzdə bu musiqinin heç eşidilməməsi tarixi yaddaş baxımından ciddi itkidir. Xalq artisti Yalçın Rzazadənin repertuarında yer alan "Girdim yarın bağçasına" mahnısı bu gün nə radio və televiziyada, nə də konsert proqramlarında səslənir.

Azərbaycan musiqisində xüsusi mərhələ sayılan caz-muğam istiqamətində isə Vaqif Mustafazadənin fəaliyyəti mühüm yer tutur. O, 1971-ci ildə adı Cəfər Cabbarlının eyniadlı əsərindən götürülən "Sevil qrupu"nu yaradıb. Bu kollektivin repertuarında yer alan və bu gün demək olar ki, səslənməyən "Qara qaşın vəsməsi" də unudulmuş nümunələr sırasındadır. Eyni taleyi Xalq artisti Elmira Rəhimovanın ifasında tanınmış "Sənsiz bu axşam" da yaşayır.

Folklor və aşıq sənəti sahəsində isə Aşıq Pənahın 1960-cı illərdə ifa etdiyi "Məndədir" xüsusi qeyd olunmalıdır. Mahnı həm söz, həm də melodik baxımdan klassik aşıq üslubunun parlaq nümunəsidir.

Azərbaycan SSR Xalq artisti Gülağa Məmmədovun repertuarındakı "Bizim Lənkəran" da regional musiqi ənənələrinin canlı nümunəsidir. 1960-cı illərdə ifa olunan mahnı həm yerli koloriti, həm də milli musiqi dilini əks etdirsə də, bu gün demək olar ki, unudulub. Eyni zamanda, "Yaylıq" kimi duet şəklində oxunan, məhəbbət mövzusuna həsr edilən Xalq mahnıları da yaddan çıxmaq üzrədir.

Sadalanan mahnıların demək olar ki, hər biri unudulmuş musiqi nümunələridir. Lakin bu, onların yenidən dirçəldilməsinin mümkünsüz olduğu anlamına gəlmir. Əksinə, sistemli şəkildə toplanması, arxiv materiallarının üzə çıxarılması, notlaşdırılması və yeni ifaçılar tərəfindən səsləndirilməsi Azərbaycan musiqi irsinə ikinci həyat verə bilər.

**Mövzu ilə bağlı Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının İxtisas musiqi məktəb-studiyasının elmi-metodiki işlər üzrə direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aytən Baxşiyeva dedi:**

– Mənə elə gəlir ki, "unudulmuş mahnı" anlayışı təkcə bir mahnının səslənməməsi deyil, onun ümumi kollektiv yaddaşdan silinməsi ilə bağlıdır. Təbii ki, bu xoşagəlinməyən mənfi haldır. Mahnı notda, arxivdə, hətta "YouTube" kanalında qala bilər, amma onu heç kim xatırlamır, oxumur, paylaşmırsa, artıq "unudulmuş"dur.

Musiqişünaslıq baxımından isə məsələ daha mürəkkəbdir və bu, artıq bir problemə çevrilir. Məsələn, Azərbaycan Dövlət Televiziyası və Azərbaycan Radiosu arxivlərində yüzlərlə mahnı qorunur. Onlar mövcuddur, amma efirdə dövriyyədə deyillər. Deməli, "unudulmaq" bəzən fiziki yox, kommunikativ prosesdir – mahnı mədəni dövriyyədən çıxır.

Mən illər öncə Arif Məlikovun əsərlərindən ibarət disklər toplusuna giriş sözü yazırdım. Disklər arasında həm balet, həm simfonik, həm fortepiano və vokal əsərləri yer almışdı. Lakin topludakı mahnı janrına aid musiqi nümunələrindən ibarət bir disk mənim diqqətimi xüsusilə cəlb etdi. Etiraf edək ki, həmin mahnıların bir çoxunun mövcudluğundan o vaxta qədər xəbərim yox idi. Daha çox simfonist və balet musiqisi müəllifi kimi tanınan Arif Məlikovun Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Flora Kərimova, Nisə Qasımova, Akif İslamzadə, Rəşid Behbudov, Müslüm Maqomayevin ifalarında səslənən bir-birindən gözəl mahnıları var. Onların bir çoxu internetdə də yoxdur. Lakin düşünürəm, dövlət arxivində ola bilər. Sadəcə, bu kimi əsərlər üçün güclü təbliğ olmalıdır. Çünki bayağı musiqidənsə gənclər belə zəngin peşəkar əsərlər dinləməlidirlər ki, zövqləri düzgün istiqamətdə formalaşsın.

Hər dövrdə yüzlərlə, bəlkə də minlərlə mahnı yaranır və zaman özü təbii seçim edir. Güclü nümunələr qalır, zəiflər arxa plana keçir və yaddan çıxır. Bu, sənətin inkişaf mexanizmidir. Digər tərəfdən, arxiv siyasəti, repertuar planlaması və müəllif hüquqları sistemi zəifdirsə, çox təəssüf ki, dəyərli əsərlər də diqqətdən kənarda qala bilər. Bəzən keyfiyyətli mahnı sadəcə PR və media dəstəyi görmədiyi üçün də itib-batır.

Arxivdə qalan, amma efirə çıxarılmayan mahnıların dövriyyəyə buraxılmamasına gəldikdə, qeyd edə bilərəm ki, bunun bir neçə səbəb var: müəllif hüquqları və icazə məsələləri, keyfiyyətli rəqəmsallaşdırmanın olmaması, redaksiya siyasətinin kommersiya yönümlü olması; gənc auditoriyanın "reytinq" meyarı və s.

Təbii ki, əgər bayağı mahnıdırsa, oxunmasa yaxşıdır, lakin peşəkar əsərdirsə mədəniyyət üçün yaratdığı risklər mövcud ola bilər. Qeyd edim ki, bir vaxtlar Sara Qədimova, Rübabə Muradova, Rəşid Behbudov, Akif İslamzadə, Şövkət Ələkbərova və digər tanınmış müğənnilər tərəfindən ifa olunan mahnılar təkcə melodik nümunə deyil, həm də vokal və xanəndə məktəbi idi. Bu mahnılar qorunur, amma sistemli və tam rəqəmsallaşdırılmış şəkildə deyil. Müəyyən qurumlarda arxivlər mövcuddur, lakin açıq platforma, əlçatan kataloq və elmi təsnifat tam sistemləşməyib. Halbuki bu, milli musiqi təhlükəsizliyi məsələsidir. Rəqəmsallaşdırma təkcə faylların köçürülməsi deyil, müəlliflik, tarix, janr təsnifatı, ifaçı haqqında dəqiq məlumatların toplanması da vacibdir. Əks halda, arxiv yaransa da, işlək deyil.

***Ləman TƏHMƏZ***
***XQ***

# Xocalı həqiqətləri Gürcüstan mətbuatında




**Gürcüstanın nüfuzlu "Sakartvelos Respublika" ("Gürcüstan Respublikası") qəzetində Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş "Xocalı: Bitməyən ağrıdan Zəfər təntənəsinə" sərlövhəli məqalə dərc olunub. Məqalədə gürcü oxuculara məlumat verilir ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində baş vermiş Xocalı soyqırımından 34 il keçir. Otuz dörd il əvvəl fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu qətliam nəticəsində 613 dinc sakin, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca amansızlıqla qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib, yüzlərlə insan şikəst qalıb və əsir götürülüb.**

Bu gün Xocalını anarkən biz təkcə faciəni xatırlamırıq, həm də Xocalı qurbanlarının qisasının döyüş meydanında alındığını vurğulayırıq. 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri nəticəsində Xocalı şəhəri tamamilə azad edildi və Azərbaycanın dövlət bayrağı orada ucaldıldı.




Məqalə daha sonra aşağıdakı yarımbaşlıqla davam etdirilir:

### Prezident İlham Əliyevin rolu və strateji fəaliyyəti

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə Xocalı faciəsinin dünya miqyasında tanıdılması və ədalətin bərpası istiqamətində misilsiz işlər görülmüşdür. Onun bu sahədəki fəaliyyətini bir neçə əsas istiqamətə bölmək olar:

**Beynəlxalq səviyyədə tanınma:** Dövlət başçısının yürütdüyü aktiv xarici siyasət nəticəsində bir çox ölkələr və beynəlxalq təşkilatlar Xocalı hadisələrini rəsmən soyqırımı kimi tanımışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası bu işdə mühüm rol oynamışdır.

**Hərbi strategiya və qisas:** İlham Əliyev hər zaman vurğulayırdı ki, Azərbaycan xalqı bu təhqirlə barışmayacaq. 44 günlük Vətən müharibəsi və lokal antiterror tədbirləri ilə o, Müzəffər Ali Baş Komandan kimi Xocalı qatillərindən qisası döyüş meydanında aldı.

**Xocalının yenidən qurulması:** Bu gün Xocalı şəhəri Prezidentin birbaşa nəzarəti altında yenidən tikilir. 2024-cü ilin fevralında Xocalı şəhərində ucaldılan Xocalı Soyqırımı Memorial Kompleksinin təməlinin qoyulması və şəhərin sakinlərinin öz evlərinə qaytarılması bu tarixi ədalətin ən böyük sübutudur.

**Cinayətkarların məsuliyyətə cəlb edilməsi:** Xocalı qətliamında iştirak edən separatçı liderlərin və hərbi cinayətkarların Bakıda ədalət mühakiməsi qarşısında cavab verməsi İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsidir.

**Nəticə:** Bu gün Xocalı artıq əsir şəhər deyil. İlham Əliyevin liderliyi sayəsində Azərbaycan həm hərbi, həm də siyasi-diplomatik müstəvidə qalib gələrək, 34 illik yarasına məlhəm qoymuşdur...

***Paşa ƏMİRCANOV***
***XQ***

*Elimizdən – obamızdan*

**Yaz gəlişi ilə hər zaman torpağa can verir, insanlara sevinc bəxş edir, dünyamıza rəng qatır. Hər kəs bu fəsli özünəməxsus şəkildə qarşılayır. Torpaq da dərin yuxudan oyanır. Əkinçi torpağa toxum səpir, bağban ağaclara qulluq edir, çünki yaz zəhmətin bəhrəsini vəd edir.**




Torpağın da, suyun da, heyvanların da, bitkilərin də öz dili var. Heyvandarlıqla məşğul olan təsərrüfatçı onların, əkinçilik edən insan isə torpağın sirlərinə bələd olur. Onlar gününün çoxunu əkin-biçində keçirir.

Doğru deyirlər ki, torpaq da sığal sevir. Əzizləyib, qədərincə qulluq göstərdin, səni ümidsiz qoymaz, barını əsirgəməz. İnsan kimi, onun da nazını çəkməlisən ki, barını-bəhərini də görəsən.

Kəndçinin əsas dolanışığı torpaqdır. Əgər min bir əziyyət çəksən, əlin qabar bağlasa, demək, o torpaq sənindir. Yox əgər üzərində gəzib-dolaşmaq kimi qəbul etsən, elə torpaq da sənə o cür münasibət göstərəcək.

Bir vaxtlar insanlar sovet dönəmində "əli ciblərində" gəzərdilər. Hər gün eyni vaxtda kəndin müəyyən bir yerinə yığışır, günlərini, saatlarını boş-boşuna keçirirdilər. Etdikləri lağlağı söhbətlər də kəndi dolaşardı.

Ölkəmizdə 1996-cı ildə torpaq islahatları başlamaqla bu insanların zəhmətə bağlılığı artdı. "Bu torpaq mənimdir" deyib, hər yerdə sahiblərinin əkin-biçinlə məşğul olduğuna rast gəlirdik. Bekarçılıqdan gileylənənlər sanki "qeybə" çəkildi.

Bu günlərdə yolum kəndə düşmüşdü. Ayağım doğma torpağa dəyən kimi sanki uşaqlığımın izi ilə addımlayırdım. Hər daşında, hər cığırında bir xatirəm vardı.

Uzaqdan görünən tüstülü bacalar, həyətlərdən gələn təndir çörəyinin qoxusu adamın ürəyini isidirdi. Bir vaxtlar səs-küylə dolu olan bu küçələr indi daha sakit idi. Kəsəkli yolları ilə addımlamaq isə insana qəribə hiss yaşadırdı. Amma bu səssizlik boşluq yox, düşüncə səssizliyi idi. Sanki kənd özü-özünə keçmişi xatırlayırdı: uşaqların qaçışı, anaların çağırışı, axşamçağı samovar ətrafında qurulan söhbətlər… O an anladım ki, kənd təkcə adi bir yer deyil, insanın ruhuna yazılmış bir yaddaşdır. Hara getsək də, yolumuz gec-tez ora düşür–öz kökümüzə, öz sükutumuza, öz həqiqətimizə…

Kənd həyatı şəhərin səs-küyündən uzaq, daha sakit və təbii bir mühit təqdim edir. Burada zaman sanki bir qədər ləng axır, insan isə öz daxili aləmi ilə baş-başa qalır. Kəndin yolları, həyətləri və evləri dəyişsə də, onun ruhu dəyişməz qalır. Hər tərəfdə zəhmətkeş insanların əli ilə yaradılmış sadə, lakin səmimi bir həyat görünürdü.

Havaların mülayim keçməsi də insanlarda xoş ovqat yaradırdı. Kənddə təbiət insanla daha yaxın münasibətdədir. Təmiz hava, quş səsləri, axar suların pıçıltısı insanın ruhunu dincəldirdi. Burada hər ağac, hər daş sanki keçmişdən bir iz daşıyır.

Kənd həm də mənəvi dəyərlərin qorunduğu bir məkandır. Böyüyə hörmət, qonşuluq münasibətləri, paylaşma mədəniyyəti burada hələ də yaşayır. İnsanlar bir-birinin halını soruşur, get-gəliş edir, çətin gündə bir-birinə dayaq olur. Bu münasibətlər o vaxtlar üçün cəmiyyətin sağlam təməlini təşkil edirdi.

Günortadır. Qonşumuz Əvəzi torpağı yaz əkininə hazırladığını görüb onunla hal-əhval tuturam. Kəndimizdə hamının zəhmətkeş insan kimi tanıdığı Əvəzin könlün istəyən baxımlı bağı var. Özünün dediyinə görə, uzun illər 95 sotluq torpağı bağ halına salmaq üçün əziyyət çəkib, gecəsi-gündüzü olmayıb. İndi isə rahat bir ömür sürür. Necə deyərlər, heç nəyin "dərd"ini, fikrini çəkmir. Mövsümlərdə satdığı mer-meyvənin gəlirini geninə-boluna sərf edir. Övladlarının ev-eşik sahibi olmasının əsas səbəbi də məhz vaxtilə qurduğu təsərrüfatdır. Alıcı sarıdan da "korluq" çəkmir.

Uzun illər Əvəz Rusiyada fəhlə kimi çalışıb. Zəhmət ilə dolanıb. Yaşa dolduqca, birdəfəlik kəndə nə vaxtsa dönəcəyi haqqında fikirləşib. Qazancı ilə meyvə bağı salıb, yeni növ subtropik ağaclar əkib. 45 baş qoyun-quzu alıb. İndi təsərrüfatında yüzlərlə xırdabuynuzlu heyvanı var.

**Əvəzin özünün dilindən eşidək:**

– Hamı kimi mən də hər il ölkə sərhədindən kənara üz tuturdum. Qazancımız da pis deyildi. Bir gün qrup halında işlədiyimiz yoldaşlarla bu barədə söhbət etdik. Daha kəndə qayıtmağın vaxtıdır. Mən təsərrüfat quracağım haqqında gecə-gündüz düşünürdüm. Nəhayət, kəndə dönüb özümü sınamaq üçün qışın olan çağında istixana qurdum. Göy-göyərti, pomidor-xiyar yetişdirdim.

Deyəsən yanılmamışdım. Çox keçmədi ki, şadlıq evlərindən, kənddə xeyir-şər edənlərdən, bazar-dükanlardan sifarişlər aldım. Heç bir ay keçməmiş alıcı növbələri yarandı. Məcbur olub, həm müştərini itirməyim, həm də heç kimi narazı salmayım deyə, alıcıları günlərə böldüm. Yadıma gəlmir ki, mən nə vaxtsa bazar-dükandan mer-meyvə, göy-göyərti, ağartı məhsulları, kartof, soğan, kələm, badımcan, lobya və digər məhsulları alım. Ailəmizi təmin edəcək qədər əkib–becərirəm. Dərmansız-filansız. Bir sözlə, orqanik məhsullar. Dadından da doymaq olmur. Narı, heyvanı payız aylarından saxlanma qaydalarına uyğun olaraq bütün qış boyu istifadə edirik, ta ki, aprel ayına qədər.

Bu vaxt nəvə Yusif babasını səsləyir: Quzuların yemlənmə vaxtıdır. Hiss edirəm ki, baba nəvəsini zəhmətə alışdırır. Özündən sonra təsərrüfatı idarə etmək üçün qayda-qanunu aşılayır. Heyvanların saxlanma yerləri tam fərqlidir. Ana heyvanlar da, nisbətən zəiflər və körpə südəmər quzular ayrıca saxlanılır. Hiss olunur ki, anaları ilə görüşü səbirsizliklə gözləyirlər. Nəhayət, körpə quzuların analarına qovuşması ilə səslərinin kəsilməsi bir olur. Təkcə bir quzu sakitcə küncə sıxılıb Yusifi gözləyir. Yusif deyir ki, bu quzunun anası iki həftədir ki, tələf olub. Hər gün ona inək südü içizdirirəm. Sonra da isti odun peçinin yanında tumarlayıram.

**Söhbətin başqa məcraya yönəldiyini görən Əvəz davam edir:**

– İnanın ki, bircə saat harasa gedəndə fikrim-zikrim bağda qalır. Elə təsəvvür edirəm bağ-bağat yolumu gözləyir. Mən torpaqla nəfəs alıram. Övladlarım-nəvələrim qədər əzizləyirəm. Hər ağacın öz gözəlliyi, hər meyvənin də öz ətri var. Sübh tezdən yuxudan ayılan kimi, üzümü bağa tutub, "sabahın xeyir" bərəkətli bağım, – deyə söyləyirəm.

Bir gün torpağa baş əyməyəndə, yəni torpaqla çalışmayanda, özümü narahat hiss edirəm. Yuxuma da mənfi təsirini göstərir. Elə ki, torpaq məni yorur, onda günüm, yuxum da mənalı keçir. İndi yaxşı məhsulun varsa, səni müştəri özü arayıb-axtarır, tapır. Dövlətimiz bu gün sahibkara, kəndçiyə hər bir şərait yaradıb. Bircə qalıb əziyyətə qatlaşmaq, əkib–becərmək. Zaman, dövr belə tələb edir. İndiki zamanda hamı işlə təmin oluna bilmir. Amma kənddə elə bir insan yoxdur ki, torpağı olmasın. Hətta mənim kənddən bir az kənarda da torpaq sahəm var ki, orada da yonca, taxıl əkirəm. Un almaqdan da azadam. Kənd dəyirmanında üyüdülən taxılın çörəyinin başqa bir dadı, ətri var. Elə bilirsən mənim fəaliyyətim təkcə bağ-bağatla bitir? Onlarla iribuynuzlu heyvan da saxlayıram. Körpə vaxtlarından alıb, kökəldib ya diri çəkidə, ya da ki, ət halında satıram.

Uzun illər hamı həyatında toy-büsat edirdi. İndi bu adət-ənənə itib. Hamı şadlıq saraylarına üz tutur. Ona görə də ətə böyük tələbat var. İşimi elə qurmuşam ki, hər ay bir-iki iribuynuzlu heyvan satıram. Sizcə, mənim nədən çətinliyim ola bilər.

Əvəz, həmçinin kənd əhlindən gileylidir. Necə ola bilər ki, kənddə yaşayasan zəhmətə qatılmayasan. Bir də görürsən ki, qonum-qonşu bazardan göy-göyərti, yumurta, toyuq-cücə alır. Düşünürəm ki, bu adamların şəhərdə yaşayanlardan nə fərqi var.

Bir neçə aydan sonra Əvəzin yetişdirdiyi məhsullar bazar-dükanları bəziyəcək. Elə bu məhsulların müştərisi olmaq arzusu ilə yazımıza nöqtə qoyuruq.

***Müşfiq MİRZƏ***
***XQ***


# Bakı Xoreoqrafiya Akademiyası

*Dekan və kafedra müdiri vəzifələrinə*

## VAKANSİYA ELAN EDİR

**Aşağıdakı vəzifələrin tutulması üçün müsabiqə elan edilir:**

**1.** İncəsənət fakültəsinə dekan - 1 yer.

**2.** Musiqi tarixi, nəzəriyyəsi və instrumental ifaçılıq kafedrasının müdiri - 1 yer.

Bakı Xoreoqrafiya Akademiyası Musiqi tarixi, nəzəriyyəsi və instrumental ifaçılıq kafedrası üzrə baş müəllim vəzifəsinə 0,5 ştat - 2 yer üçün müsabiqə elan edir.

**Elmi katiblik, telefonlar:** *012-597-47-19; 055-274-71-21.*

**Ünvan:** *Bakı şəhəri, Rəşid Behbudov küçəsi 75.*



# "Kapital Bank" səhmdarlarının nəzərinə!

17 aprel 2026-cı il saat 11.00-da, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 153 nömrəli ünvanda yerləşən "Port Baku Towers 2" ofisində (17-ci mərtəbədə yerləşən "Silicon Valley" otağı) Bankın səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Səhmdarların növbəti ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:**

- "Kapital Bank" ASC-nin 2025-ci ilin yekunlarına dair maliyyə hesabatlarının təsdiq olunması; Məruzəçi: Zaur Musayev
- "Kapital Bank" ASC tərəfindən 2025-ci ilin maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi; Məruzəçi: Zaur Musayev
- "Kapital Bank" ASC-nin nizamnamə kapitalında mühüm iştirak payı ilə bağlı müzakirə; Məruzəçi: Arif Mehdiyev
- Digər məsələlər; Məruzəçi: Yaşar Məmmədov

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 40 (31009) 3 mart 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### “Daşkənd dəbilqəsi”ndə 7 medal

**Özbəkistanın paytaxtı Daşkənddə keçirilən cüdo üzrə Böyük Dəbilqə turniri başa çatıb. Son yarış günündə möhtəşəm çıxış edən Azərbaycan millisinin 4 üzvü fəxri kürsüyə qalxıb.**



Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, Murad Fətiyev (90 kq) və Kənan Nəsibov (+100 kq) bütün rəqiblərinə qalib gələrək çempion olublar. Murad Fətiyev finalda ikiqat Olimpiya çempionu Laşa Bekaurini (Gürcüstan), Kənan Nəsibov isə həlledici görüşdə Olimpiya və dünya mükafatçısı Alişer Yusupovu (Özbəkistan) məğlub edib.

Zelim Kotsoyev (100 kq) və Camal Qamzatxanov (+100 kq) isə bürünc medal qazanıblar.

Xatırladaq ki, daha əvvəl Əhməd Yusifov (60 kq) və Ömər Rəcəbli (81 kq) qızıl, Balabəy Ağayev (60 kq) isə gümüş medala sahib çıxmışdı.

Yekunda 4 qızıl, 1 gümüş və 2 bürünc olmaqla 7 medal qazanan Azərbaycan 39 ölkə arasında ümumi komanda hesabında ikinci, kişilərin yarışında isə birinci yeri tutub.

### Güləş millimiz reytinq turniri qalibidir

**Albaniyanın paytaxtı Tiranada keçirilən güləş üzrə “Muhamet Malo” turnirinə yekun vurulub. Son yarış günündə Azərbaycan təmsilçisi Rəşad Məmmədov (55 kq) finalda rusiyalı dünya mükafatçısı və 2 qat Avropa çempionu Emin Seferşayevə 1:3 hesabıyla məğlub olaraq gümüş medalla kifayətlənib.**




Nihat Məmmədli (60 kq) finalda komanda yoldaşı Nihad Quluzadə ilə qarşılaşıb. Həlledici görüşdə Nihadı ilk xal prinsipinə əsasən üstələyən Məmmədli fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Quluzadə isə gümüş medalı boynundan asıb.

Xatırladaq ki, bundan əvvəl 63 kiloqram çəkidəki təmsilçilərimiz Murad Məmmədov qızıl, Sakit Quliyev isə gümüş medal qazanıb.

Beləliklə, millimiz cari ildə iştirak etdiyi ilk beynəlxalq yarışda 2 qızıl və 3 gümüş medal qazanıb. Yekunda 128 xal toplayan yığmamız komanda hesabında 1-ci yeri tutub. Qazaxıstan (95) ikinci, İran (89) isə üçüncü olub.

### 2 qələbə, 4 heç-heçə

**Misli Premyer Liqasının XXII turuna yekun vurulub.**



“Turan Tovuz” “İmişli” ilə qarşılaşıb. “Azərsun Arena”da baş tutan görüşdə qapılara qol vurulmayıb. Bu nəticədən sonra “Turan Tovuz” hazırda 41 xalla üçüncü pillədə qərarlaşıb. 21 xala malik “İmişli” 9-cu yerdədir.

Turun mərkəzi qarşılaşmasında “Qarabağ” Tofiq Bəhramov adına Respublika stadionunda “Sabah”la üz-üzə gəlib. Gərgin keçən oyun 3:3 hesabıyla başa çatıb. Hazırda turnir cədvəlinə 22 oyundan 53 xal toplayan “Sabah” başçılıq edir. Liderdən 1 oyun az keçirən “Qarabağ” 46 xalla 2-ci pillədədir.

Xəbər verdiyimiz kimi, turun daha əvvəl keçirilmiş matçlarında “Kəpəz” “Sumqayıt”ı (3:0), “Zirə” “Araz-Naxçıvan”ı (1:0) məğlub edib. “Neftçi” – “Şamaxı” (2:2) və “Qəbələ” – “Karvan-Yevlax” (1:1) görüşlərində isə qalib müəyyənləşməyib.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Milli futbol – 115*

# İçərişəhərdən boy atan yaşıl meydan sevgisi

**Təxminən 1 il əvvəl mərhum hakimimiz Eldar Əzimzadənin 1998-ci ildə “Elm və həyat” nəşriyyatında çap olunmuş “Məhəbbətim mənim–futbol” kitabının son səhifəsində müəllifin kövrək duyğularla qələmə aldığı bu gözəl oyunda keçdiyi uzun və qürurlu yol haqqında qeydlərini “Xalq qəzeti” oxucularının diqqətinə çatdırmışıq.**

Bu gün isə milli futbolumuzun 115 illik tarixinin bir parçası olan həmin kitaba bir daha müraciət edib, E.Əzimzadənin Madriddə qarşılaşdığı xoş sürpriz, İçərişəhərdən başlayan futbol sevgisi, Tbilisiyə gedərkən yolüstü Qazax şəhərində başabəla azarkeşə “qırmızı vərəqə” göstərməsi barədə xatirələrini yada salaq. Doğrudan da, əlahəzrət futbol başqa bir aləmdir.

## Madriddə Novruz xonçası

UEFA kuboku turnirində İspaniyanın “Barselona” və İngiltərənin “İpsviç” klubları arasında dörddəbir final görüşünə hakim təyin olunmuşdum. Martın 20-də köməkçilərim – moskvalı Valentin Lipatov və xarkovlu Yuri Sergiyenko ilə birlikdə Madridə gəldik. Ertəsi gün isə bizim milli bayramımız–Novruz bayramı idi. Madrid hava limanında briqadamızı əslən Ukraynadan olan tərcüməçi qadın və “Barselona” klubunun prezidenti qarşıladılar. Onlar bizə yaxınlaşanda fotomüxbirlər də bunu gözləyirmişlər kimi, haradansa peyda olub, fotokameraları işə saldılar. Sonra məni bir otağa apardılar. Otağa daxil olduqda masanın üstündə gördüklərim məni heyrətləndirdi. Burada qoz-fındıq yığılmış bir xonça var idi, onun ətrafında isə şam yanırdı. Tərcüməçidən bunun nə demək olduğunu soruşduqda gülümsəyərək dedi ki, bəs bilmirsiniz, sabah sizin xalqın milli bayramıdır...

Xoş sürpriz idi. Həmin gecə xüsusi təyyarə ilə Madriddən Barselonaya uçduq”.

## İçərişəhərdən başlayan yol

“Hərdən olub-keçənləri, futbolda yaşadığım günləri, illəri xəyalımda canlandırarkən, bu gözəl oyun sayəsində ünsiyyət yaradıb, sonralar möhkəm dostlaşdığım adamlar barədə düşünərkən, bir nəfəri həmişə minnətdarlıq hissi ilə xatırlayıram. Mən uşaqlıq dostum, hazırda Azərbaycan Dövlət Televiziyası idman proqramları baş redaksiyasının baş redaktor müavini, yüngül atletika hakimi Abbas Əzimovu nəzərdə tuturam.

Abbasla mən İçərişəhərdə, bir məhəllədə, Müslüm Maqomayev küçəsində böyüyüb, boya-başa çatmışıq. Valideynlərimiz qonşu olmuşlar. Necə deyərlər, ayağımız yer tutandan hər ikimiz indi AzTV-də idman proqramları baş redaksiyasının baş redaktoru vəzifəsində çalışan Aydın Əliyev, müğənni Oqtay Ağayev, sonralar tanınmış idman mütəxəssislərindən biri olmuş Yaqub Zöhrabov və digər məhəllə uşaqları ilə birlikdə, demək olar, hər gün yaxınlıqdakı Sabir bağına gələr, səhərdən axşamadək top qovardıq.

Sonralar mən hakimliyə başlayanda Abbas da yüngül atletika hakimi oldu. Aradan uzun illər ötdükdən sonra iş elə gətirdiyindən biz – iki uşaqlıq dostu, bir məhəlləli iki oğlan Moskvada XXII Yay Olimpiya Oyunlarında hakimliyə dəvət olunduq və hər ikimiz də dəqiq hakimliyə görə evə diplomla qayıtdıq”.

## Başabəla azarkeşə “qırmızı vərəqə”

“Drezdenə səfərdən sonra Tbilisidə yerli dinamoçularla onların kiyevli həmklublarının oyununu idarə etməliydim. Gürcüstan paytaxtına getməyə hazırlaşarkən respublika Dövlət İdman Komitəsində məndən xahiş etdilər ki, yolüstü Qazaxda yerli “Göyəzən”lə Bakının “Suraxanı” komandasının da görüşünə hakimlik edim.

Bu təklifi razılıq hissi ilə qarşıladım. Əvvəla, ona görə ki, həmin illər bu komandalar Azərbaycan çempionatlarında özlərini mübariz kollektivlər kimi göstərmişdilər. Bu səbəbdən də Tbilisi matçı qarşısında Qazax görüşü mənim üçün baş məşq olardı.İkincisi isə, Qazax futboluna xüsusi hörmətim var idi. Burada vaxtilə yaxşı ustalar meydana çıxmışdır. İndi də Rəhman Salmanovun başçılıq etdiyi “Göyəzən” komandasında bacarıqlı futbolçular az deyildi.

Bu oyunda uzun müddət hesab açılmadı. Görüşün sonuna yaxın isə heç vaxt yadımdan çıxmayan bir hadisə baş verdi. “Göyəzən” komandasının növbəti hücumu zamanı aydın görünürdü ki, onun futbolçularından biri oyundankənar vəziyyətdədir. Bir gözüm köməkçim Əlisgəndər Nağıbəyovda idi. Lakin o, bayrağı qaldırmırdı. Mən bir daha Əlisgəndərə baxanda gördüm ki, onun arxasında bir nəfər çöməlib və bayrağı tutub, onu qaldırmağa imkan vermir. Əlbəttə, dərhal oyunu dayandıraraq başabəla azarkeşi meydançadan uzaqlaşdırdım. Bundan sonra isə “Göyəzən” öz hücumlarından birini qolla başa çatdırıb, qələbə qazandı”.




*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

*Novruz marafonu*

# Biz oddan yaranmışıq



**Azərbaycan xalqının zəngin milli-mənəvi irsində Novruz bayramı xüsusi yer tutur. Bu bayrama aparan dörd çərşənbə isə xalq təqviminin mühüm mərhələləri hesab olunur. Xalq inanclarına görə, bu gün od təbiətə can verir, soyuğun sərtliyini sındırır, torpağı isidir. El arasında deyirlər ki, “od düşən yer dirilər”. Qədim türk dünyagörüşündə od müqəddəs sayılıb, ocaq ailənin, nəslin, soyun davamı kimi qəbul edilib. “Ocağın sönməsin” duası təsadüfi deyil; bu, həm fiziki, həm də mənəvi davamlılığın arzusudur.**

Od çərşənbəsi axşamı ölkənin müxtəlif bölgələrində tonqallar qalayırlar. İnsanlar alovun üzərindən tullanaraq “Ağırlığım-uğurluğum odda yansın” deyirlər. Bu adət qədimdən gələn mənəvi təmizlənmə inancını ifadə edir. Tonqalın közündən evə aparmaq, ailə ocağını həmin alovla alışdırmaq da bəzi bölgələrdə qorunub saxlanılan ənənələrdəndir. Uşaqlar papaq atır, qapılara qulaq asır, gənclər şənliklər təşkil edir, ailələr bir süfrə arxasında toplaşır. Bayram süfrəsində səməni, şirniyyatlar, qoz-fındıq və boyanmış yumurta bolluq və bərəkət rəmzi kimi yer alır.

Qədim dövrlərdə Od çərşənbəsində tonqalı hündür yerdə-dağ, təpə başında qalayar, bütün el həmin tonqalın başına yığışarmışlar. Odunlar yenicə alışmağa başlayanda qız-gəlin odun şərəfinə nəğmələr söyləmişlər.

Xüsusilə kənd yerlərində ağsaqqalların, nənələrimizin keçmiş Novruzlardan danışması bu mərasimi canlı tarix kitabına çevirir. Deyilənlərə görə, çərşənbələrdə ürəyində niyyət tutan şəxs özü ilə açar götürüb evlərinin yanındakı yola çıxır. Yolayrıcı olan yerdə açarı sağ ayağının altına qoyub gözləyir. Yoldan ötənlərin ilk sözünü eşidib yadında saxlayır və açarı da götürərək geri qayıdır. Eşitdiyi söz xoş bir məna verirsə, yaxşı nəsə haqqındadırsa, həmin adam niyyətinin baş tutacağına inanır. Buradakı açar isə simvolik olaraq həmin niyyətin açarı deməkdir.

Od çərşənbəsində iki alma seçilir və onlardan birinə nişan qoyulur. Daha sonra həmin nişanı gizlədərək niyyət tutur və evdəkilərdən birinə almalardan hansınısa götürməsini deyir. Həmin adam əgər nişanlanmış almanı götürərsə, bu niyyətin doğrulacağına işarə kimi anlaşılır. Burada istifadə olunan alma mifoloji dünyagörüşdə xoşbəxtlik, uğur bəxş edən rəmzi motivin daşıyıcısıdır.

Tarixi qaynaqlarda və elmi araşdırmalarda oda müqəddəs münasibət ənənəsinin kökləri qədim inanclarla əlaqələndirilir, bəzi mənbələrdə bu mərasimlərin Zərdüştilik dövrü ilə səsləşdiyi göstərilir. Lakin Azərbaycan xalqının oda münasibəti yalnız dini baxışlarla məhdudlaşmır. Bu münasibət təbiət hadisələrinə verilən mənəvi dəyərdən, odun istilik və işıq mənbəyi kimi həyatdakı əhəmiyyətindən qaynaqlanır. Od burada həm dirçəlişin, həm paklığın, həm də yeni başlanğıcın rəmzidir.

Çərşənbələrin ardıcıllığı barədə bəzi mənbələrdə maraqlı bir məqam diqqəti cəlb edir. Xalq arasında qəbul olunmuş sıra belədir: Su, Od, Yel, Torpaq. Lakin təbiətin oyanış prosesinə ardıcıl baxdıqda suyun buzları açıldıqdan sonra torpağın isinməsi və canlanması baş verir. Bu baxımdan ikinci mərhələdə Torpaq çərşənbəsinin gəlməsini daha məntiqli görürlər. Çünki torpaq isinmədən bitkilərin cücərməsi mümkün deyil. Bununla belə, xalq təfəkküründə Od çərşənbəsinin ikinci pillədə yer alması təsadüfi deyil. Qışdan çıxan insan ilk növbədə istilik dəyişimini hiss edir. İstiliyin artması isə yazın yaxınlaşmasının əsas əlaməti kimi qəbul olunur. Deməli, xalq təqvimi təbiətin elmi ardıcıllığından daha çox insanın müşahidə və hisslərinə əsaslanır.

Od çərşənbəsi xalqımızın təbiətə bağlılığının, mənəvi dəyərlərə sədaqətinin və birlik ruhunun ifadəsidir. Bu çərşənbə insanları bir araya gətirir, keçmişlə gələcək arasında mənəvi bağlılıq yaradır. Yanan hər tonqal istiliklə yanaşı, həm də ümid rəmzidir. Yazın gəlişini müjdələyən alov yalnız təbiətin deyil, insan qəlbinin də işıqlanmasını simvolizə edir. Milli adət-ənənələrimiz yaşadıqca, Od çərşənbəsinin mənəvi dəyəri də nəsildən-nəslə ötürülərək qorunacaqdır.

*Nurəngiz ADİLQIZI*
*XQ*

---

***✓ Astara rayonunun Şahağacı kənd sakini Mürsəlov Şahin Emin oğluna məxsus nəqliyyat vasitəsinin “Kaven” yarımqoşqusunun 07ZA164 nömrəli qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.***

***✓ Xaçmaz rayon sakini Laçınoğlu Fəxri Laçın oğluna məxsus “QAZEL” 33 021 markalı model yük maşınının “10 MR 493” dövlət nömrə nişanı itdiyi üçün etibarsız sayılır.***

***✓ “Təmir Tikinti ANKZ 9” ASC-nin AZ1001002182 Dövlət qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış, hər birinin nominal dəyəri 2 manat olan, 6150 ədəd adi, adlı səhmləri dövriyyədən çıxarılır. Ləğvetmə komissiyası***

***✓ Kərimov Altay Mirzəcan oğlunun idarə etdiyi “QAZ3302-18” nömrəli xüsusi təyinatlı marka model “FURQON ÇÖRƏK” daşıyan yük avtomobilin AZ90LF184 və BD705992 seriya nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***

---

## HAVA

# Od çərşənbəsi günü yağış, duman, qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz yağıntılı olacağı ehtimalı var. Gecə və səhər zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 1-3, gündüz 6-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunundan 764 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 1-5, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 3-8, yüksək dağlıq ərazilərdə 10-15, gündüz 0-5 dərəcə şaxta olacağı ehtimal edilir.

Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Akademik Arif Həşimov Səbinə Həsənovaya anası

**RUFA HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan şəhərindən Hüseyn Əliyev yaxın dostu “Naxçıvan Enerji” MMC-nin texniki şöbəsi rəisi Miryunis Seyidova yaxın qohumu

**ASLAN HACIYEVİN**

Bakı şəhərində vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin kollektivi mexanika kafedrasının dosenti

**AĞAKİŞİ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universiteti memarlıq fakültəsinin professor-müəllim heyəti Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri, professor Səbinə Hacıyevaya atası

**XALİD HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2951
SİFARİŞ 319
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00